KOBİA

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi



“Sahibkarlar təbəqəsi Azərbaycan iqtisadiyyatının aparıcı bir hissəsidir”.

Ümummilli Lider
**Heydər Əliyev**



"Bu gün biznesə mane olmaq istəyən şəxslər Azərbaycana xəyanət edirlər.
Çünki ölkəmizin uğurlu inkişafı biznesin inkişafından asılıdır".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti



KOBİA

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi




# MÜNDƏRİCAT

Ön söz 6

Strateji hədəflər və prioritetlər 8

Fəaliyyət üzrə əməkdaşlıq platformaları 20

Beynəlxalq əlaqələr 42

Dəstək infrastrukturu 104

Biznesə xidmətlər 174

KOB maraqlarının müdafiəsi 230

İşğaldan azad olunmuş ərazilərdə biznesin inkişafı 236

"Yaşıl iqtisadiyyat"a keçiddə KOB-ların rolu 244

Korporativ inkişaf və sosial məsuliyyət 260

*Əziz oxucular!*

Sahibkarlığın inkişafı və KOB-ların dəstəklənməsi istiqamətində həyata keçirilən dövlət siyasətinə və proqramlara uyğun olaraq Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) 2024-cü ildə də mandatı çərçivəsində biznes mühitinin yaxşılaşdırılması, KOB sektorunda qanunvericiliyin və biznesə dövlət xidmətlərinin təkmilləşdirilməsi prosesində aktiv iştirak edib. Agentlik yeni KOB subyektlərinin yaradılmasını və mövcud KOB-ların inkişafını, sahibkarların qanuni maraqlarının müdafiəsini, bazarlara, maliyyə resurslarına, bilik və bacarıqlara çıxışını müxtəlif alətlər və mexanizmlərlə dəstəkləyib. Yerli və xarici iş adamları arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi, KOB sahəsində qarşılıqlı təcrübə mübadiləsi diqqətdə saxlanılıb. Əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də qarşımıza qoyduğumuz hədəflərə nail olmaq üçün fəaliyyətimizi sahibkarlarla, onların ictimai birlikləri ilə sıx əməkdaşlıq şəraitində həyata keçirmişik.

İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidənqurulması, dayanıqlı məskunlaşmanın təmin edilməsi, bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində həyata keçirilən dövlət siyasətinə uyğun olaraq, KOBİA da Qarabağda biznesin qurulması prosesində yaxından iştirak edib, bu sahədə bir sıra tədbirlər və layihələr reallaşdırılıb.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və COP29 kimi nüfuzlu tədbirin ölkəmizdə uğurla keçirilməsi çərçivəsində KOB-ların yaşıl iqtisadiyyata keçidi, iqlim dəyişiklikləri ilə mübarizə, ətraf mühitin qorunması, resurslardan səmərəli istifadə fonunda yaşıl bizneslərin önəmi bir daha gündəmə gəlib. Bu nəşrdə KOB-ların yaşıl keçidini dəstəkləmək üçün KOBİA-nın həyata keçirdiyi tədbirlər və təşəbbüslər barədə ətraflı məlumat verilir.

Cari ildə beynəlxalq müstəvidə KOBİA bir sıra uğurlara da imza atıb. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən Azərbaycanın sahibkarlara yönəlik vahid dəstək xidmətləri modeli olan KOB evi innovativ təşəbbüs olaraq seçilib. Eyni zamanda BMT-nin Qlobal Sazişi tərəfindən korporativ dayanıqlılıq mədəniyyətinin təşviqində fəal iştirakına görə KOBİA-ya sertifikat təqdim edilib.

Beləliklə, təqdim etdiyimiz nəşr fəaliyyətini şəffaflıq və sahibkar məmnunluğu kimi prinsiplər üzərində qurmuş KOBİA-nın bir növ, biznes ictimaiyyəti və digər maraqlı tərəflər qarşısında hesabatıdır. Agentliyin 2024-cü ildəki fəaliyyətinin müxtəlif istiqamətlərinin əks olunduğu nəşrin sahibkarlar və KOBİA-nın fəaliyyəti barədə məlumat əldə etmək istəyən digər maraqlı tərəflər üçün əhəmiyyətli informasiya mənbəyi olacağına inanırıq.

*Hörmətlə,*

**Orxan Məmmədov**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı
Agentliyinin İdarə Heyətinin sədri



# Strateji hədəflər və prioritetlər

1. KOBİA haqqında

2. Missiya və strateji baxış

3. KOB-lar rəqəmlərdə


KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# 01 KOBİA HAQQINDA

KOBİA Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə yaradılıb. Dövlət başçısının 26 iyun 2018-ci il tarixli Fərmanı ilə Agentliyin nizamnaməsi və strukturu təsdiq edilib.

Agentlik ölkədə KOB-ların inkişafını dəstəkləyən, onun tənzimlənməsində, KOB maraqlarının qorunmasında və problemlərinin həllində iştirak edən, sahibkarlara müxtəlif dəstək və xidmətlər göstərən, dövlət və özəl qurumların bu sahədə xidmətlərini əlaqələndirən və səlahiyyətli qurum kimi çıxış edən publik hüquqi şəxsdir.

## Məqsədimiz:

- KOB-ların ölkə iqtisadiyyatında rolunu möhkəmləndirmək;
- KOB subyektlərinin xüsusi çəkisini və rəqabət qabiliyyətini artırmaq;
- maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək;
- institusional dəstək mexanizmlərini təkmilləşdirmək;
- dövlət və özəl qurumların bu sahədə fəaliyyətini əlaqələndirmək;
- regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaratmaq;
- yerli və xarici investisiyaların cəlb edilməsinə nail olmaqdır.


KOBİA
KOB EVİ

# KOBİA-NIN STRUKTURU

## 01 KOBİA-nın Aparatı




## 02 KOB evləri

- “Bakı KOB evi”
- “Xaçmaz KOB evi”
- “Food City” Aqroparkında “Xaçmaz KOB evi”nin xidmət mərkəzi
- “Yevlax KOB evi”



## 03 Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri (KOBİM-lər)

| | |
|---|---|
| 1. | Bakı |
| 2. | Gəncə |
| 3. | Sumqayıt |
| 4. | Xaçmaz |
| 5. | Lənkəran |
| 6. | Şəki |
| 7. | Mingəçevir |
| 8. | Yevlax |
| 9. | Naxçıvan |

## 04 Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi

## 05 Kiçik və Orta Biznesin İnkişafı Fondları

# KOBİA-NIN MÜŞAHİDƏ ŞURASI

**Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli Fərmanına əsasən, KOBİA-nın fəaliyyətinə ümumi rəhbərliyi ictimai əsaslarla fəaliyyət göstərən Müşahidə Şurası (7 üzv) həyata keçirir.**

**Müşahidə Şurasının sədri:**

- Azərbaycan Respublikasının iqtisadiyyat naziri



**Müşahidə Şurasının üzvləri:**

- Azərbaycan Respublikasının maliyyə nazirinin müavini;
- Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini;
- Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti;
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini;
- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti.

# 02 MİSSİYA VƏ STRATEJİ BAXIŞ

## Missiyamız:

Missiyamız kiçik və orta biznesin tənzimlənməsi sisteminin səmərəliliyinin artırılması, çoxsaylı dəstək mexanizmləri və onlara sahibkarların rahat çıxışının təmin edilməsi, KOB sektorunun davamlı inkişafına nail olmaq və onun ölkə iqtisadiyyatındakı rolunun artırılmasından ibarətdir.

Agentliyin hədəflərindən biri də qurumu sahibkarın dostu kimi önəmli missiyanın daşıyıcısına çevirməkdir.

KOBİA nizamnamə ilə müəyyən edilmiş məqsədlərinə uyğun olaraq, ölkədə KOB-ların inkişafı sahəsində fəaliyyətini aşağıdakı aparıcı prinsiplər əsasında həyata keçirir:

- **sahibkar məmnunluğu:** fəaliyyətində sahibkarların tələblərinə, onların qurumdan olan gözləntilərinin təmin edilməsinə xüsusi önəm verir.
- **operativlik:** fəaliyyət istiqamətləri üzrə çevik qərarların qəbulunu, sahibkar müraciətlərinə operativ reaksiyanı təmin edir.
- **şəffaflıq:** fəaliyyəti ilə bağlı ictimaiyyəti, o cümlədən biznes ictimaiyyətini məlumatlandırmaq məqsədilə müxtəlif platformalar yaradır.
- **rahatlıq və nəzakətlilik:** Agentlik tərəfindən göstərilən, təşkil edilən xidmətlərdən KOB subyektlərinin rahat istifadəsinə şərait yaradır, xidmətlərin göstərilməsi zamanı nəzakətliliyi təmin edir.
- **məsuliyyət:** fəaliyyət istiqamətləri üzrə qərarların qəbulunda dövlət maraqlarının təmin edilməsi ilə bağlı məsuliyyətini dərk edir.

## Strateji baxış:

Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsi məqsədilə kiçik və orta biznesin iqtisadiyyatda rolunun, ÜDM-də və məşğulluqda payının artırılması, rəqabət qabiliyyətinin gücləndirilməsi, KOB subyektlərinin maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, gündəlik istehlak malları ilə təminatın, əsasən, KOB subyektləri vasitəsilə həyata keçirilməsi, KOB-ların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi strateji hədəflərimizdir.



# Strateji hədəflər:

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda strateji məqsədlər üzrə ümumi iqtisadi göstəricilər üzrə əsas hədəf indikatorla təqdim olunmuşdur:

**ÜDM-də artım:**

2021-ci il – 5,6%
2022-ci il – 4,6%
2023-cü il – 1,1%
2026-cı il – 1,2 dəfə




**Qeyri-neft/qaz ÜDM-in artımı:**

2021-ci il – 7,2%
2022-ci il – 9,1%
2023-cü il – 3,7%
2026-cı il – 1,3 dəfə




**Qeyri-neft/qaz ixracının həcmi:**

2021-ci il – 2,7 mlrd. ABŞ dolları
2022-ci il – 3 mlrd. ABŞ dolları
2023-cü il – 3,3 mlrd. ABŞ dolları
2026-cı il – 1,8 dəfə artım




**Qeyri-neft/qaz sektoruna cəlb olunan birbaşa xarici investisiyaların həcmi:**

2021-ci il – 790,4 mln. ABŞ dolları
2022-ci il – 1,8 mlrd. ABŞ dolları
2023-cü il – 2 mlrd. ABŞ dolları
2026-cı il – hər il 10-15% artım



# Milli prioritetlər:

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"

**Milli prioritet:** dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat

**Məqsəd:**
davamlı və yüksək iqtisadi artım

**Fəaliyyət istiqamətləri:**

- Sahibkarlara dəstək mexanizmlərinin effektivliyinin, ünvanlılığının və şəffaflığının artırılması;
- KOB-ların resurslara, o cümlədən maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi;
- KOB-ların maarifləndirmə imkanlarının genişləndirilməsi və təşviqi;
- Qeyri-neft/qaz əmtəə və xidmətlər ixracının şaxələnməsi və həcminin artırılmasının dəstəklənməsi;
- Dövlət investisiyalarının səmərəliliyinin artırılması və dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi;
- Qeyri-neft/qaz sektoruna birbaşa xarici investisiyaların cəlbinin stimullaşdırılması.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin 2021-2025-ci illər üzrə əsas icra göstəriciləri" İdarə Heyəti sədrinin müvafiq əmri ilə təsdiq olunub. Burada strateji hədəflər , əsasən, bu istiqamətlərdə müəyyən edilib:

- KOB-ların "G2B" və "B2B" xidmətinə çıxışına dəstək;
- KOB-ların bazarlara çıxışına dəstək;
- KOB-ların maliyyə mənbələrinə çıxışına dəstək;
- KOB mühitinin təkmilləşdirilməsi;
- KOB-ların bilik və innovasiyaya çıxışına dəstək;
- İnstitusional inkişaf.

# 5 Mandat / Məqsəd

KOBİA
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

1. KOB mühitinin yaxşılaşdırılması və maraqlarının müdafiəsi
2. KOB-lar üçün dövlət qurumlarının xidmətlərinə əlçatanlığa dəstək
3. KOB-ların bilik, bacarıq və innovasiyalara çıxışına dəstək
4. KOB-ların bazarlara çıxışına dəstək
5. KOB-ların maliyyə mənbələrinə çıxışına dəstək

# 4 Hədəf



1. KOB-ların sayının artırılması
2. KOB-ların ÜDM-də payının artırılması
3. KOB-ların məşğulluqda payının artırılması
4. KOB-ların qeyri-neft ixracında payının artırılması

# 03 KOB-LAR RƏQƏMLƏRDƏ

## 2023-cü il üzrə fəaliyyətdə olan KOB subyektlərinin sayı:

| | Cəmi | Hüquqi şəxslər | Fərdi şəxslər |
|---|---|---|---|
| Sahibkarlıq subyektlərinin ümumi sayı | 401149 | 47794 | 353355 |
| Mikro sahibkarlıq subyektlərinin sayı | 389133 | 35778 | 353355 |
| Kiçik sahibkarlıq subyekti olan müəssisələrin sayı | 8610 | 8610 | |
| Orta sahibkarlıq subyekti olan müəssisələrin sayı | 3406 | 3406 | |








# Fəaliyyət üzrə əməkdaşlıq platformaları

1. Koordinasiya Qrupu
2. KOB-larla 4 təmas platforması
3. KOBİA yanında İctimai Şura
4. Sahibkarları yerində ziyarət
5. KOB könüllüləri


KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# 01 KOORDİNASİYA QRUPU

Mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi, kiçik və orta biznes evlərində (KOB evləri) Koordinasiya Qrupunda təmsil olunan dövlət orqanları ilə Agentlik arasında səmərəli əlaqələndirmənin və operativliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 yanvar tarixli 21 nömrəli Qərarı ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında Əsasnamə" təsdiq edilib. Əsasnamə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun səlahiyyətlərini, tərkibini və fəaliyyətinin təşkili əsaslarını tənzimləyir.

## KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi:

**Koordinasiya Qrupunun rəhbəri:**

- Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavini

**Koordinasiya Qrupu rəhbərinin müavini:**

- KOBİA-nın İdarə Heyətinin sədri

**Üzvlər:**

- Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"na uyğun olaraq KOB evlərində xidmətlər göstərən dövlət orqanlarının həmin xidmətlər üzrə cavabdeh olan struktur bölmələrinin rəhbər şəxsləri.




# Koordinasiya Qrupunun ilk iclası keçirilib



Avqustun 13-də müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun ilk iclası keçirilib.

İclasda yeni fəaliyyətə başlayan və gələcəkdə yaradılacaq KOB evlərində effektli fəaliyyətin təmin olunması və xidmət göstərəcək digər əlavə qurumların fəaliyyətinin təşkili, lisenziya və icazələr sistemi ilə bağlı məsələlər müzakirə edilib.

Koordinasiya Qrupunun sədri, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ölkədə sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi tədbirləri barədə məlumat verib.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Koordinasiya Qrupunun fəaliyyətinin təşkili ilə bağlı məlumat verib. Bildirilib ki, Koordinasiya Qrupunun yaradılması ilə əlaqələndirmə və iştirakçılıq məsələləri məzmun və keyfiyyət baxımından yeni, daha strateji mərhələyə keçib. Qarşıdakı dövrdə Qrupun fəaliyyətinin daha çevik təşkili məqsədilə xüsusi məsələlər üzrə bir neçə qurumun nümayəndələrinin iştirakı ilə operativ müzakirə platformalarının və ya tematik işçi qruplarının yaradılması hədəflənir.

İclasda biznesin maliyyə yükünə dair mövcud vəziyyət və hədəflərə, KOB evlərində “G2B” xidmətlərin səmərəli təşkilinə, yeni yaradılacaq KOB evləri üzrə dövlət qurumları ilə fəaliyyətin koordinasiyasına dair təqdimatlar keçirilib, müzakirələr aparılıb və dövlət qurumlarının təklifləri dinlənilib.

Koordinasiya Qrupunun üzvləri həmçinin “Bakı KOB evi”ndə sahibkarlara “G2B” və “B2B” xidmətlərin göstərilməsi üçün yaradılmış şəraitlə də tanış olublar.

# 02 KOB-LARLA 4 TƏMAS PLATFORMASI

**KOBİA**-nın strateji fəaliyyət istiqamətlərinin həyata keçirilməsi məqsədilə sahibkarlarla **4 növ** təmas platformasından istifadə olunur.

01 02 03 04




| 01 | 02 | 03 | 04 |
| --- | --- | --- | --- |
| **Ərazi üzrə** | **Sektoral** | **"Bir məkan" prinsipi** | **Elektron vasitə** |

## 01 Ərazi üzrə

- **KOB dostu şəbəkəsi**
- **KOB inkişafı mərkəzləri**

**KOB dostu şəbəkəsi** (Bakı və regionlarda 10 koordinator və 56 KOB dostu) KOBİA-nın KOB-lara başlıca dəstək mexanizmlərindən olmaqla yanaşı, həm də Agentliyin inzibati ərazi vahidləri üzrə nümayəndələridir. KOB dostları sahibkarlıq fəaliyyəti ilə bağlı biznes subyektlərinə mövcud dövlət dəstəyi mexanizmləri və KOBİA-nın xidmətləri çərçivəsində hərtərəfli dəstək göstərir.

**KOB inkişafı mərkəzlərində** KOB-ların bilik və bacarıqlarının artırılması üçün müasir çağırışlara və sahibkarların ehtiyaclarına uyğun təlimlər təşkil olunur, praktik məsləhət xidmətləri göstərilir, KOB-ların şəbəkələşməsinə və s. dəstək təmin edilir.

## 02 Sektoral

- **Sahəvi assosiasiyalarla iş**
- **Fokus-qruplarla iş**

**KOBİA biznes assosiasiyaları** ilə sıx əməkdaşlıq edir, yeni assosiasiyaların yaradılmasını təşviq edir, mövcud assosiasiyaların gücləndirilməsi üçün birgə görüşlər, forumlar və digər formatda tədbirlər təşkil edir.

## 03 Bir məkan

- **KOB evləri**

**KOB evləri** sahibkarlara dövlət-biznes (“G2B”) və zəruri biznes-biznes (“B2B”) xidmətlərinin göstərildiyi vahid məkandır.

1. **Biznesi planla**
2. **Biznesə başla**
3. **Biznesi işlət**
4. **Biznesi inkişaf etdir**

## 04 Elektron vasitə

- e-KOB evi platforması – **www.e-smb.gov.az**
- “KOB növbə” tətbiqi **(“GooglePlay” və “App Store”da)**
- KOB investisiya platforması – **www.invest.smb.gov.az**
- Fərdi inkişaf platforması – **www.kobim.az**
- KOB dostu platforması – **www.kobdostu.smb.gov.az**
- KOB-ların vahid reyestri
- Onlayn ticarət portalı – **www.kobmarket.az**

Sahibkarlarla operativ təmasda olmaq, xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq və əhatə dairəsini genişləndirmək üçün rəqəmsal transformasiya proqramı çərçivəsində həyata keçirilən elektron xidmətlərdir.

# 03 KOBİA YANINDA İCTİMAİ ŞURA











## Sahibkarlıq sahəsində qanunvericiliyə və aparılan islahatlara dair ictimai müzakirə

Martın 13-də KOBİA və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə "Bakı KOB evi"ndə "Qanunvericilikdə sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların biznes mühitinə təsiri imkanları" mövzusunda ictimai müzakirə təşkil olunub.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvlərinin, aidiyyəti dövlət qurumlarının, biznes assosiasiyaların nümayəndələrinin və iş adamlarının iştirakı ilə keçirilən tədbirdə sahibkarlıq sahəsində mövcud qanunvericiliyə, bu sahədə aparılan islahatların biznes mühitinə təsirinə və nəzərdə tutulan yeniliklərə dair fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

KOBİA-da ictimai iştirakçılığın gücləndirilməsi, kiçik və orta biznesin inkişafı ilə bağlı görülən tədbirlər və Agentliyin fəaliyyəti üzərində ictimai nəzarətin təmin olunması, qurum ilə ictimaiyyət, o cümlədən biznes ictimaiyyəti arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında İctimai Şura fəaliyyət göstərir.

Agentliyin fəaliyyəti dövründə KOBİA yanında İctimai Şuranın ümumilikdə 43 ictimai müzakirəsi təşkil edilib. Bunlardan 4-ü 2024-cü ildə keçirilib. Sahibkarlıq sahəsində qanunvericilik və islahatlar, yeni qəbul edilmiş Rəqabət Məcəlləsi, quşçuluq və reklam sektoruna həsr olunmuş ictimai müzakirələrdə ümumilikdə 220-dən çox sahibkar iştirak edib.








## Rəqabət Məcəlləsinin biznes mühitinə təsir imkanlarına dair ictimai müzakirə təşkil olunub

Mayın 27-də İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, KOBİA və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, Agentlik yanında İctimai Şuranın təşkilatçılığı ilə “Yeni Rəqabət Məcəlləsi: rəqabət qanunvericiliyində aparılmış dəyişikliklərin biznes mühitinə təsir imkanları” mövzusunda ictimai müzakirə təşkil olunub.

“Bakı KOB evi”ndə dövlət-sahibkar əməkdaşlığı çərçivəsində keçirilən tədbirdə müvafiq dövlət qurumlarının nümayəndələri və 80-ə yaxın biznes subyekti iştirak edib.

Tədbir çərçivəsində yeni qəbul edilmiş Rəqabət Məcəlləsinin tətbiqinin praktiki əsasları izah edilib və tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



# Quşçuluq ilə bağlı ictimai müzakirə təşkil olunub

İyunun 5-də KOBİA-nın dəstəyi, Agentlik yanında İctimai Şuranın təşkilatçılığı ilə “Quşçuluq sənayesi – yerli istehsalın artırılması, idxal və ixrac əməliyyatlarının inkişafı istiqamətində sahibkarlara göstərilən dəstək mexanizmləri” mövzusunda ictimai müzakirə təşkil olunub. “Bakı KOB evi”ndə keçirilən tədbirdə Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasına üzv olan sahibkarlar, müvafiq dövlət qurumlarının və biznes assosiasiyaların nümayəndələri iştirak ediblər. Tədbirdə quşçuluq sektorunun mövcud vəziyyətinə, bu sahədə fəaliyyət göstərən sahibkarların çətinliklərinə və inkişaf ehtiyaclarına, perspektiv imkanlara dair fikir mübadiləsi aparılıb. İctimai müzakirədə sahibkarlar tərəfindən idxal-ixrac əməliyyatları, müasir quşçuluq təsərrüfatlarının yaradılmasına dəstək, yerli məhsulların rəqabətqabiliyyətliliyinin artırılması və s. məsələlər qaldırılıb. Sahibkarların bir sıra müraciətləri araşdırılması üçün tədbirdə iştirak edən dövlət qurumlarının nümayəndələri tərəfindən qeydiyyata alınıb, dövlətin bu istiqamətdə dəstək alətləri barədə məlumat verilib, iş adamlarını maraqlandıran suallar cavablandırılıb, təklifləri dinlənilib.

# Reklam sektorunun inkişafına dair ictimai müzakirə təşkil olunub

İyulun 22-də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Azərbaycan Dövlət Reklam Agentliyinin (ADRA), Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə “Reklam bazarında yeniliklər və çağırışlar” mövzusunda ictimai müzakirə təşkil olunub. Tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri, eləcə də biznes assosiasiyaların və reklam şirkətlərinin 80-ə yaxın təmsilçisi iştirak edib.

Tədbirdə reklam bazarındakı mövcud vəziyyət, açıq məkanda reklamın yerləşdirilməsi, reklam sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qarşılaşdıqları çətinliklər müzakirə edilib, onların fikir və təklifləri dinlənilib, sualları cavablandırılıb.


















04

# SAHİBKARLARI YERİNDƏ ZİYARƏT

**2024-cü ildə KOBİA nümayəndələri Bakıda və ölkə regionlarında fəaliyyət göstərən 30-dan çox istehsal və emal müəssisəsinin, xidmət obyektlərinin fəaliyyəti ilə yerində tanış olub. Bakı şəhəri, ətraf kənd və qəsəbələrdə, eləcə də Abşeron, Zaqatala, Quba, Ucar, Samux, Gəncə, Göyçay, Qusar, Yevlax, Naxçıvan Muxtar Respublikası və digər şəhər və rayonlarda yerləşən bu müəssisələr sənaye, tekstil, xidmət, qida istehsalı, qablaşdırma və s. sahələri əhatə edir. Müəssisələrlə yerində tanışlıq çərçivəsində sahibkarlarla istehsalın və ixracın genişləndirilməsi üçün dövlət dəstəyi mexanizmləri, o cümlədən KOBİA tərəfindən biznesə göstərilən dəstək və xidmətlər, sahibkarların ehtiyacları və qarşılaşdıqları çətinliklərlə bağlı fikir mübadiləsi aparılıb.**

**KOBİA nümayəndələri 2024-cü ildə müxtəlif ölkələrə səfərlər çərçivəsində burada fəaliyyət göstərən azərbaycanlı və xarici iş adamlarının biznes fəaliyyəti ilə də tanış olub, onlara məxsus müəssisələri ziyarət ediblər.**

## 10.01.2024

Xidmət sektorunun aparıcı qüvvəsi olan KOB-ların bu sahədə fəaliyyətini genişləndirməsi məşğulluğun təmin olunması, ölkə iqtisadiyyatı üçün önəmlidir. KOBİA nümayəndələri Bakıda “Zəfər” restoranının 3-cü filialının açılışında iştirak ediblər. 20-yə yaxın işçinin çalışdığı xidmət məkanında fastfud, milli və Avropa mətbəxindən yeməklər təqdim edilir.

## 31.01.2024

Avstriyaya səfər çərçivəsində KOBİA nümayəndələri Vyana şəhərində azərbaycanlı sahibkarın “Galerie-Günes” xalça mağazasında olub. 1973-cü ildən Vyanada xalça satışını həyata keçirən sahibkarla fəaliyyətinə dair fikir mübadiləsi aparılıb.

## 09.02.2024

KOBİA rəhbərliyi Bakı şəhərində fəaliyyət göstərən profil istehsal müəssisəsində olub. Agentliyin










01 Bakı şəhərində "Zəfər" restoranı.
10 yanvar 2024-cü il

02 Vyana şəhərində "GalerieGünes" xalça mağazası.
31 yanvar 2024-cü il

03 Bakı şəhərində profil istehsalı müəssisəsi.
9 fevral 2024-cü il

04 Balaxanıda "ATA PACK" MMC-yə məxsus qablaşdırma müəssisəsi.
14 fevral 2024-cü il

05 Rusiyada azərbaycanlı sahibkarların tikilməkdə olan hoteli ilə tanışlıq.
28 fevral 2024-cü il

06 Qubada "Şahdağ Quba&Truskavets" müalicə-istirahət kompleksi. 1 mart 2024-cü il

nümayəndələri müəssisədə istehsal prosesi ilə tanış olub, sahibkarla inkişaf ehtiyacları və ixracın genişləndirilməsi imkanlarına dair fikir mübadiləsi aparıblar.
Qeyd edək ki, "Alprof" və "Alumeks" MMC-yə məxsus profil istehsalı müəssisəsində mindən çox çeşiddə profil istehsal edilir. Burada 350 nəfər işçi çalışır. Müəssisənin məhsulları Gürcüstana da ixrac edilir.

## 14.02.2024

KOBİA nümayəndələri Balaxanı Sənaye Parkında "ATA PACK" MMC-yə məxsus qablaşdırma müəssisəsində yeni istehsal xəttinin istifadəyə verilməsi mərasimində iştirak ediblər.
Qeyd edək ki, "ATA PACK" MMC "MÜSAİD Azərbaycan"ın üzvlərindəndir. Müəssisənin illik istehsal gücü 400 tondur. Müəssisədə 70 nəfər çalışır. Müəssisənin yaradılmasına 7 milyon manat investisiya yatırılıb. Yeni xətdə qida sektoru üçün bir çox qablaşdırma məhsulları istehsal olunur. Zavod Azərbaycanda ilk dəfə plastik şüşələrin üzərində istifadə olunan etiketlərin istehsalına başlayıb.

## 28.02.2024

Rusiya Federasiyasına səfər çərçivəsində KOBİA nümayəndələri burada azərbaycanlı sahibkarların turizm sahəsində fəaliyyəti ilə tanış olublar. Kislovodsk şəhərində azərbaycanlı sahibkarlara məxsus və tikilməkdə olan hotellə tanış olan Agentlik nümayəndələri sahibkarla hotelin gələcək fəaliyyətinə dair fikir mübadiləsi aparıblar.

## 01.03.2024

KOBİA nümayəndələri Quba rayonunda fəaliyyət göstərən "Şahdağ Quba&Truskavets" müalicə-istirahət kompleksini ziyarət ediblər. Agentliyin nümayəndələri kompleksin fəaliyyəti ilə tanış olub, sahibkarla biznes subyektinin inkişaf ehtiyaclarını və gələcək planlarını müzakirə ediblər. 2022-ci ildə müəssisənin işçi heyyəti üçün Xaçmaz KOB İnkişaf Mərkəzi tərəfindən təlimlər keçirilib. Kompleksdə 40 nəfər çalışır. Hotelin 500 nəfər qonaq tutumu var. Sanatoriya Almaniya istehsalı fizioterapiya avadanlıqları ilə təmin olunub.




## 05.03.2024

KOBİA, Dövlət Turizm Agentliyi, Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının nümayəndələri Bakıda "Mercure City Baku" hotelin açılışında iştirak ediblər. Dünyanın aparıcı qonaqpərvərlik qruplarından olan "Accor"a daxil olan "Mercure" hotel Azərbaycanda bu brend altında açılan ilk hoteldir. "Mercure City Baku" hoteli müxtəlif kateqoriyalı 140 otaqdan ibarətdir. Hotelin 2 restoranı, müasir fitnes mərkəzi, xüsusi uşaq sahəsi, işgüzar görüşlər və xüsusi tədbirlər keçirmək üçün iclas otaqları və s. var. Hoteldə xidmət və administrativ bölmələr üzrə 114 nəfər çalışır. "Mercure" brendinin dünyanın 60-dan çox ölkəsində 950-dən çox hoteli var.

## 14.03.2024

KOBİA nümayəndələri Ucar rayonunun Qaraböyük kəndində fəaliyyət göstərən qapı-pəncərə və mətbəx mebeli istehsal edən müəssisələrdə olublar. Yerli bazar üçün məhsullar istehsal edən müəssisə ilə tanışlıq zamanı Agentlik nümayəndələri inkişaf və satış imkanları barədə sahibkarlarla fikir mübadiləsi aparıb, ehtiyac və problemləri ilə maraqlanıblar.

## 19.03.2024

KOBİA nümayəndələri Bakının Yeni Günəşli qəsəbəsində yerləşən "UluTürk" tekstil müəssisəsində olublar. Müəssisə ilə tanış olan KOBİA nümayəndələri sahibkarlıq subyektinin inkişaf ehtiyacları ilə maraqlanıblar.
50-yə yaxın işçinin çalışdığı müəssisədə yerli bazar üçün ayda 30 min dəst geyim istehsal edilir.

## 29.03.2024

KOBİA nümayəndələri Quba-Xaçmaz iqtisadi rayonuna səfər çərçivəsində Quba rayonunun İqrıq kəndində fəaliyyət göstərən aqlay

5



6



7



01 Bakıda fəaliyyət göstərən "Mercure" hotelin açılışı. 5 mart 2024-cü il

02 Ucarda qapı-pəncərə və mətbəx mebeli istehsalı müəssisəsi. 14 mart 2024-cü il

03 Bakıda "UluTürk" tekstil müəssisəsi. 19 mart 2024-cü il

04 Qubada aqlay daş istehsalı müəssisəsi. 29 mart 2024-cü il

05 Samuxda "ATA AGRO" MMC-yə məxsus istixana və bağçılıq təsərrüfatı. 9 aprel 2024-cü il

06 Bakıda sənaye, xidmət, tekstil, mebel, inşaat sektorları üzrə müəssisələr. 25 aprel 2024-cü il

07 "Unicons" və "Union" şirkətləri. 27 aprel 2024-cü il

istehsalı müəssisəsində olublar. Müəssisənin fəaliyyəti ilə tanış olan Agentlik nümayəndələri biznes subyektinin inkişaf ehtiyacları ilə maraqlanıb, dəstəyə dair fikir mübadiləsi aparıblar. 2018-ci ildən fəaliyyət göstərən müəssisə mikro sahibkarlıq subyektidir. Müəssisə tərəfindən Quba və ətraf rayonlarda tikili və abidələrin üzlənməsi, naxışların hazırlanması həyata keçirilir. Burada 2 nəfər çalışır.

## 09.04.2024

KOBİA nümayəndələri Samux rayonu Qarayeri qəsəbəsində fəaliyyət göstərən istixana və bağçılıq təsərrüfatı ilə məşğul olan müəssisədə olublar. Agentlik nümayəndələri və "ATA AGRO" MMC arasında sahibkarlıq subyektinin inkişaf ehtiyaclarına dair müzakirələr aparılıb. Müəssisənin əsas istiqamətləri tərəvəz və bostan bitkilərinin becərilməsidir. Burada istehsal olan məhsullar, əsasən, Rusiyaya ixrac olunur və ölkə daxilində satışa çıxarılır. Müəssisədə 30 işçi çalışır. "ATA AGRO" MMC KOBİA-nın məsləhət xidmətlərindən faydalanıb.

## 25.04.2024

"Sahibkarlar Günü"ndə KOBİA nümayəndələri bir sıra mikro, kiçik və orta sahibkarlıq obyektlərində olublar. Sənaye, xidmət, tekstil, mebel, inşaat kimi sektorlarda fəaliyyət göstərən sahibkarların iş prosesi ilə yaxından tanış olan KOBİA nümayəndələri biznesin inkişaf ehtiyacları ilə maraqlanıblar.

## 27.04.2024

KOBİA nümayəndələri təmir, tikinti və dizayn xidməti göstərən "Unicons" və qapı idxalı ilə məşğul olan "Union" şirkətlərində olub. Sahibkarlarla biznesin inkişafı, ehtiyacları və dövlət dəstəyi tədbirlərinə dair fikir mübadiləsi aparılıb.




## 23.05.2024

Goranboya səfər çərçivəsində KOBİA nümayəndələri “G Group” MMC-yə məxsus müəssisədə istehsal prosesi ilə tanış olub, sahibkarın ehtiyacları ilə maraqlanıblar. Qeyd edək ki, müəssisədə aqrar sahədə avtomobillər üçün gövdələr, qoşqu və yarımqoşqular istehsal olunur. Müəssisədə 90-a yaxın işçi çalışır.

## 23.05.2024

KOBİA nümayəndələri Gəncə-Daşkəsən iqtisadi rayonuna səfər çərçivəsində Gəncə şəhərində “Azerbazalt Elmi İstehsalat Birliyi”nin quracağı istehsal müəssisəsinin ərazisində olublar. Görüş zamanı sahibkarla yeni müəssisələrin qurulması üzrə dövlət dəstəyi və təşviq mexanizmləri barədə fikir mübadiləsi aparılıb.

## 28.05.2024

KOBİA nümayəndələri Bakıda açılışı olan “Crescent Mall” ticarət mərkəzində fəaliyyətə başlayan “Rahat Gourmet” marketi ziyarət edib. Agentliyin nümayəndələri marketdə satılan məhsullar ilə tanış olub, iş adamları ilə retail sahəsinin inkişafına dair fikir mübadiləsi aparıblar.

## 10.06.2024

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri Bakı şəhərinin Yasamal rayonunda yerləşən “İndi market” onlayn satış platformasının anbarında və ofisində olublar. Qeyd edək ki, KOBİA tərəfindən “Startap” şəhadətnaməsi verilmiş “İndi market” onlayn platforması 2022-ci ilin iyul ayından fəaliyyət göstərir. Burada 150-yə yaxın işçi çalışır. Şirkətin 6 anbarı var və burada 6 min çeşiddə məhsul saxlanılır.

## 13.06.2024

Göyçay rayonuna səfər çərçivəsində KOBİA rəhbərliyi quru meyvə-tərəvəzdən sublimasiya yolu ilə məhsul istehsal edən müəssisədə olublar. Müəssisənin fəaliyyəti ilə tanış olan Agentlik nümayəndələri sahibkarla inkişaf ehtiyaclarına dair fikir mübadiləsi aparıblar. “Druit” MMC 2022-ci ilin noyabr ayından fəaliyyət göstərir. Burada 25-ə yaxın işçi çalışır. Müəssisə-













01 Goranboyda “G Group” MMC-yə məxsus müəssisə. 23 may 2024-cü il

02 Gəncədə “Azerbazalt Elmi İstehsalat Birliyi”nin istehsal müəssisəsi. 23 may 2024-cü il

03 Bakıda fəaliyyət göstərən “Rahat Gourmet” market. 28 may 2024-cü il

04 Bakıda “İndi market” onlayn satış platformasının anbarı və ofisi. 10 iyun 2024-cü il

05 Göyçayda quru meyvə-tərəvəz istehsalı müəssisəsi. 13 iyun 2024-cü il

06 Lökbatanda qurbanlıq heyvan satışı və kəsimi məntəqəsi. 14 iyun 2024-cü il

07 Bakıda “Danilov” ayaqqabı brendinin istehsal və satış mağazası. 22 iyun 2024-cü il

08 Göyçayda meyvə bağları. 24 iyul 2024-cü il

də sıfır zərərli tullantı texnologiyası tətbiq edilir. Müəssisənin məhsulları xarici ölkələrə ixrac olunur.

## 14.06.2024

KOBİA nümayəndələri Qurban bayramı ərəfəsində Lökbatanda yerləşən qurbanlıq heyvan satışı və kəsimi məntəqəsində olublar. Agentlik əməkdaşları sahibkarlarla bayram yarmarkasına hazırlıq işləri, heyvanların qiyməti və kəsim yerlərində vətəndaşlara göstəriləcək xidmətlər ilə bağlı müzakirələr aparıblar.

## 22.06.2024

Milli ayaqqabı brendi olan “Danilov”un istehsal və satışı ilə tanış olmaq üçün KOBİA nümayəndələri brendin Bakı şəhəri, Yasamal rayonunda yerləşən mağazasında olublar. İstehsal və satış prosesi ilə tanışlıq çərçivəsində ayaqqabı istehsalının inkişafı və ixracın artırılması üçün dövlətin dəstək alətləri barədə sahibkarla fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, “Danilov” brendi ayaqqabıları ənənəvi üsulla hazırlanır və hazırda bir sıra ölkələrə də ixrac edilir.

## 24.07.2024

KOBİA nümayəndələri Göyçay rayonunda yerləşən meyvə bağlarını ziyarət edib. Göyçaya səfər çərçivəsində KOBİA nümayəndələri sahibkarlarla təsərrüfatın inkişafı, yığım prosesi, kooperativlərin fəaliyyəti və KOBİA-nın dəstəyi barədə fikir mübadiləsi aparılıb.

1



2



3




## 29.07.2024

KOBİA nümayəndələri müxtəlif sektorlarda fəaliyyət göstərən 60-a yaxın şirkəti bir araya gətirən “Amara” biznes mərkəzində olublar. Agentliyin nümayəndələri “B2B” əməkdaşlıq modelinə əsaslanan biznes mərkəzdə yaradılmış müasir infrastruktur və biznes subyektlərinə göstərilən xidmətlərlə tanış olub, sahibkarlarla belə mərkəzlərin idarə edilməsinə dair fikir mübadiləsi aparıblar. Qeyd edək ki, mərkəzdə fəaliyyət göstərən ofislərə xidmət göstərmək üçün burada 15-ə yaxın işçi çalışır. Mərkəzdə ofislərlə yanaşı, restoran və kofeşop da fəaliyyət göstərir.

## 30.07.2024

KOBİA nümayəndələri Yevlax rayonunda yerləşən “Lalə tekstil” MMC-də olub, müəssisənin fəaliyyəti ilə tanış olublar. Bir sıra dövlət dəstəyi alətlərindən faydalanan müəssisəni ziyarət zamanı sahibkarla istehsal gücünün və satışın artırılması, həmçinin Agentliyin göstərə biləcəyi dəstək barədə fikir mübadiləsi aparılıb. Qeyd edək ki, müəssisədə 100-ə yaxın işçi çalışır və ayda 15 min dəst geyim istehsal olunur.

## 14.08.2024

KOBİA nümayəndələri Sədərək Ticarət Mərkəzində “Ziraat Bank”ın yeni filialının açılışında iştirak ediblər. Tədbir zamanı məlumat verilib ki, bankın sayca 9-cu filialı Sədərək Ticarət Mərkəzində topdan və pərakəndə satışla məşğul olan KOB-ların maliyyə xidmətlərinə daha rahat çıxışına, xarici ticarət əməliyyatları üzrə fəaliyyətlərinə dəstək olacaq.

## 17.08.2024

KOBİA nümayəndələri Ucar rayonunda yerləşən meyvə şirəsi istehsalı müəssisəsini ziyarət ediblər. “Bagema” MMC-nin fəaliyyəti ilə tanış olan KOBİA əməkdaşları sahibkarın ehtiyacları ilə maraqlanıb, satışın artırılması və dövlət dəstəyi barədə sahibkarla fikir mübadiləsi aparıblar. Qeyd edək ki, müəssisə 2013-cü ildə fəaliyyətə başlayıb və 5 işçisi var. 6,4 ha ərazidə yerləşən müəssisə bir sıra dövlət dəstəyi alətlərindən yararlanıb.

## 21.08.2024

KOBİA nümayəndələri Abşeron rayonunun Novxanı kəndində yerləşən buxar sistemi avadanlıqları istehsal edən “BestTeknik” MMC-ni ziyarət edib. Müəssisə ilə tanış olan KOBİA nümayəndələri sahibkarla “Made in



4



6



5



7

01 Bakıda "Amara" biznes mərkəzi. 29 iyul 2024-cü il

02 Yevlaxda "Lalə tekstil" MMC-yə məxsus müəssisə. 30 iyul 2024-cü il

03 Bakıda "Ziraat Bank"ın yeni filialının açılışı. 14 avqust 2024

04 Ucarda "Bagema" MMC-nin meyvə şirəsi zavodu. 17 avqust 2024-cü il

05 Abşeronda "BestTeknik" MMC-nin buxar sistemi avadanlıqları müəssisəsi. 21 avqust 2024-cü il

06 ABŞ-də "Baku Delicious" qənnadı mağazası. 21 sentyabr 2024-cü il

07 Naxçıvan şəhərində meyvə şirələri və sərinləşdirici içkilər istehsal edən müəssisə. 4 oktyabr 2024-cü il

Azerbaijan" brendi ilə məhsulların ixracına, biznesin inkişafı və qarşıya çıxan çətinliklərin həlli istiqamətində KOBİA-nın dəstəyinə dair fikir mübadiləsi aparıblar.

Müəssisə 2004-cü ildən fəaliyyət göstərir. Burada 20-dən çox daimi işçi çalışır. Müəssisə bir sıra dövlət dəstəyi alətlərindən, o cümlədən dövlətin güzəştli kreditlərindən yararlanıb, investisiya təşviqi sənədi alıb, KOBİA-nın dəstəyi ilə sərgidə iştirak edib. Müəssisə təzyiq altında olan sənaye tipli tutumların istehsalı üzrə ölkəmizdə və Qafqazda əsas istehsalçıdır.

## 21.09.2024

ABŞ-yə səfər zamanı KOBİA nümayəndələri Virciniyada biznes fəaliyyəti ilə məşğul olan azərbaycanlı sahibkarla görüşüblər. "Baku Delicious" qənnadı mağazasının sahibi ilə görüşdə ABŞ-də sahibkarlıq fəaliyyəti və imkanlar, sahibkar xanımın biznes sahəsində uğur hekayəsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## 04.10.2024

KOBİA nümayəndələri Naxçıvan Muxtar Respublikasına səfər çərçivəsində bir sıra istehsal müəssisələrində olublar. Meyvə şirələri və sərinləşdirici içkilər istehsal edən müəssisələri ziyarət edən KOBİA nümayəndələri zavodların fəaliyyəti, istehsal etdiyi məhsullarla yaxından tanış olublar.

Ziyarət çərçivəsində sahibkarlarla bölgə iqtisadiyyatına və məşğulluğa töhfə verən müəssisələrin istehsal gücünün və ixrac imkanlarının artırılması, bu sahədə KOBİA-nın dəstəyinə dair fikir mübadiləsi aparılıb.













## 09.10.2024

KOBİA nümayəndələri Türkiyənin onlayn alış-veriş platforması olan "Trendyol"un Bakıda nümayəndəliyinin açılışında iştirak ediblər. Tədbirdə qeyd edilib ki, "Trendyol"un Bakı ofisi Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsinin artmasına, müştəri məmnuniyyətinin yüksəlməsinə, yerli logistika şirkətlərinin işinə müsbət töhfəsini verəcəkdir. Qeyd edək ki, "Trendyol" 2023-cü ildən Azərbaycan bazarına daxil olub. Onlayn alış-veriş platformasının ofisi "Crescent" Biznes Mərkəzində yerləşir.

## 11.10.2024

KOBİA nümayəndələri Zaqatala rayonuna səfər çərçivəsində fındıq emalı və ixracı ilə məşğul olan "Azerstar" MMC-də olublar. Müəssisənin fəaliyyəti ilə tanışlıq zamanı məlumat verilib ki, zavodun istehsal gücü illik 6 min ton fındıq emalıdır. Burada istehsal olunan fındıq xarici bazarlara ixrac edilir. Müəssisədə 60-a yaxın işçi çalışır. Müəssisə bir sıra dövlət dəstəyi alətlərindən faydalanıb. Zavodun iş prosesi ilə tanış olan KOBİA nümayəndələri sahibkarla ehtiyaclarına və Agentliyin göstərə biləcəyi dəstəyə dair fikir mübadiləsi də aparıblar.

## 19.10.2024

KOBİA nümayəndələri "iTech Group" MMC-nin ofisi və şourumunu ziyarət edib. Görüş zamanı şirkətin təqdim etdiyi innovativ həllər və ağıllı tətbiqlər haqqında ətraflı məlumat verilib. Həmçinin sahibkarla İKT sektorunda fəaliyyət göstərən KOB-ların ehtiyaclarına dair fikir mübadiləsi aparılıb.

## 01.11.2024

KOBİA nümayəndələri "Yelkən restoranı"nın açılışında iştirak edib. Azərbaycan və Türkiyə investisiyası əsasında fəaliyyətə başlayan xidmət məkanında 40 nəfər çalışır. Açılışda qeyd edilib ki, belə biznes obyektləri Azərbaycan və Türkiyə arasında inkişaf edən biznes əlaqələrinin və qarşılıqlı investisiya qoyuluşunun növbəti göstəricisidir.

## 07.11.2024

KOBİA nümayəndələri "Expo Home by AKİAB" inşaat, satış və sərgi mərkəzində olublar. Mərkəzdə müasir texnologiyalara əsaslanan məhsul və xidmətlər təqdim



5



7



6



8

01 “Trendyol”un Bakıda nümayəndəliyinin açılması. 9 oktyabr 2024-cü il

02 Zaqatalada “Azerstar” MMC-nin fındıq emalı müəssisəsi. 11 oktyabr 2024-cü il

03 “iTech Group” şirkəti. 19 oktyabr 2024-cü il

04 “Yelkən restoranı”nın açılışı. 1 noyabr 2024-cü il

05 “Expo Home by AKİAB” inşaat, satış və sərgi mərkəzi. 7 noyabr 2024-cü il

06 İstanbulda “Helba Pharma” şirkəti. 26 noyabr 2024-cü il

07 Göyçayda salfet və plastik yeşik istehsalı müəssisələri. 3 dekabr 2024-cü il

08 Şamaxıda dam örtükləri istehsalı müəssisəsi. 5 dekabr 2024-cü il

edilir. Mərkəzlə tanışlıq çərçivəsində sahibkarla inşaat sektorunun vəziyyəti, bu sahədə imkanlar və satışa dair fikir mübadiləsi aparılıb.

## 26.11.2024

Türkiyəyə səfər çərçivəsində KOBİA nümayəndələri İstanbulda “Helba Pharma” şirkətində olublar. İstehsal prosesi ilə tanışlıq zamanı Agentliyin nümayəndələri şirkətin fəaliyyəti barədə məlumatlandırılıb. Qeyd olunub ki, şirkət Azərbaycan investisiyası ilə qurulub. Şirkət tərəfindən 20-dən çox ölkəyə məhsul ixrac edilir.

## 03.12.2024

KOBİA-nın regionlardakı KOB-larla təmasları onların ehtiyaclarının öyrənilməsi və qarşılanmasında faydalıdır. Göyçaya səfər zamanı KOBİA nümayəndələri salfet və plastik yeşik istehsalı müəssisələrində olublar. Mikro və kiçik sahibkarlıq subyekti olan müəssisələrdə istehsal prosesi ilə tanışlıq zamanı sahibkarlarla bizneslərinin inkişafına dair fikir mübadiləsi aparılıb, Agentliyin göstərə biləcəyi dəstəklər barədə məlumat verilib.

## 05.12.2024

Şamaxıya səfər zamanı KOBİA nümayəndələri dam örtükləri istehsal edən kiçik sahibkarın müəssisəsini ziyarət ediblər. Müəssisə ilə tanışlıq zamanı biznesin böyüməsi üçün rayondakı KOB dostu tərəfindən sahibkarın müvafiq dövlət dəstəyi alətlərindən istifadəsinə köməklik göstəriləcəyi sahibkarın diqqətinə çatdırılıb.

# 05 KOB KÖNÜLLÜLƏRİ









2024-cü ildə 100-dən çox gənc KOBİA-da könüllü fəaliyyətinə cəlb olunub. “KOB könüllüləri” Agentliyin dəstəyi və təşkilatçılığı ilə keçirilmiş müxtəlif tədbirlərin, o cümlədən Bakıda və ölkə regionlarında keçirilən sərgi və yarmarkaların, 25 aprel Sahibkarlar Gününə həsr olunmuş konfransın, Azərbaycan Halal Biznes və Turizm Forumunun (AZHAB Forum), KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə keçirilmiş ictimai müzakirələrin, COP29 çərçivəsində keçirilən tədbirlərin uğurla təşkil olunmasında yaxından iştirak ediblər.

Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumu çərçivəsində KOBİA-nın könüllüləri Fatimə Tağıyeva “İlin könüllüsü” və Sənəm Ağabalayeva “Fəal könüllü” kimi mükafat qazanıblar.

**2024-cü ildə 100-dən** çox gənc KOBİA-da könüllü fəaliyyətinə cəlb olunub.











Qeyd edək ki, Agentlik yarandığı gündən etibarən könüllülərlə sıx əməkdaşlıq edir və bu sahədə yaranmış müsbət təcrübəni inkişaf etdirir. Ölkəmizdə fəaliyyət göstərən müxtəlif könüllü hərəkatları arasında KOBİA-nın "KOB könüllüləri" xüsusilə seçilir. 2018-ci ildən Agentlikdə "KOB könüllüləri proqramı" həyata keçirilir. "KOB könüllüləri" proqramı gənclərə, xüsusilə də idarəetmə, biznes və menecment ixtisasları üzrə təhsil alanlara müvafiq sahədə bilik və bacarıqlarını, dünyagörüşünü artırmağa, əmək vərdişlərinə yiyələnmələrinə dəstək olur. "KOB könüllüləri" KOBİA-nın inzibati binasında, Agentliyin Bakı şəhəri və regionlarda fəaliyyət göstərən KOB evlərində gündəlik iş prosesində yaxından iştirak edir, sahibkarların qarşılanaraq xidmət pəncərələrinə yönləndirilməsi, onların məlumatlandırılması, vətəndaş axınının idarə edilməsi və digər işlərdə köməklik göstərirlər. İndiyədək 750-dən çox gənc KOBİA-da könüllü fəaliyyətinə cəlb edilib. Onlardan 19-u Agentlikdə işlə təmin edilib.






# Beynəlxalq əlaqələr

**1.** Beynəlxalq əməkdaşlıq üzrə fəaliyyət

**2.** Beynəlxalq tədbirlər


RBAYCAN – MACARISTAN BİZNES FORUMU
25 aprel 2024-cü il
AJDZSÁN – MAGYARORSZÁG ÜZLETI FÓRUM
2024. április 25.
AIM
CONGRES
RUSSIA – ISLAMIC WORLD
KAZANFORUM 2024
KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi




# 01 BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ÜZRƏ FƏALİYYƏT

### 17 yanvar 2024

Trabzon Ticarət və Sənaye Palatasının İdarə Heyətinin sədri Erkut Çələbinin rəhbərlik etdiyi türk iş adamlarından və Türkiyənin Ticarət Nazirliyinin nümayəndələrindən ibarət heyətlə KOBİA-da görüş keçirilib. Görüşdə Azərbaycan və Türkiyə iş adamları arasında biznes və ticarət sahəsində əməkdaşlıq, qarşılıqlı investisiya qoyuluşu imkanları, işgüzar dairələrin əlaqələrinin genişləndirilməsi perspektivləri, eləcə də bu sahədə KOBİA və Palatanın birgə dəstək təşəbbüsləri müzakirə edilib. İş adamlarının sağlamlıq turizmi sahəsində qarşılıqlı əməkdaşlığa marağı nəzərə alınaraq bu istiqamətdə əlaqələrin qurulmasına dəstəyin göstərilməsinə, qarşılıqlı biznes missiyaların təşkilinə dair fikir mübadiləsi aparılıb. Həmçinin görüş çərçivəsində türk iş adamlarına KOBİA-nın fəaliyyəti, dəstək və xidmətləri, KOB evi konsepsiyası barədə məlumat verilib.

### 19 yanvar 2024

Ənənəvi olaraq hər il Dubayda keçirilən İllik İnvestisiya Toplantısının icraçı direktoru Valid Farqal KOBİA-da olub. Görüşdə sərgi və konfransların təşkilinə, belə tədbirlərdə KOB-ların iştirakına, ölkəmizdə startap ekosistemina və startaplara dəstək tədbirlərinə dair fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, KOBİA-nın fəaliyyət istiqamətlərindən biri də KOB-ların bazarlara çıxışına dəstək göstərməkdir və Agentlik bu sahədə biznes subyektlərinin sərgilərdə iştirakına və ticarət şəbəkələrinə çıxışına dəstək olur. Həmçinin Agentlik tərəfindən startapların layihələrinin reallaşdırılmasına dəstək məqsədilə vergi güzəştlərini nəzərdə tutan “Startap” şəhadətnaməsi verilir.

### 23-24 yanvar 2024

Səudiyyə Ərəbistanına səfər çərçivəsində Ər-Riyad şəhərində KOBİA nümayəndələrinin də daxil









4

01 Trabzon Ticarət və Sənaye Palatası ilə görüş. 17 yanvar 2024-cü il

02 İllik İnvestisiya Toplantısının icraçı direktoru ilə görüş. 19 yanvar 2024-cü il

03 Səudiyyə Ərəbistanına səfər çərçivəsində görüşlər. 23-24 yanvar 2024-cü il

04 Bəhreynə səfər çərçivəsində görüşlər. 24-26 yanvar 2024-cü il

olduğu, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri Əhməd Əl Dakhil ilə görüşüb. Görüşdə ölkələrimiz arasında biznes sahəsində əməkdaşlıq, eləcə də əlaqələrin genişləndirilməsi üçün perspektivlər müzakirə edilib.
Səfər zamanı KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov "Alhokair Qrupu"nun baş direktoru Turki Əl Hokair ilə görüşüb. Görüşdə Səudiyyə Ərəbistanı bazarına daxil olan, məhsul çeşidini, strateji yerləri və innovativ marketinq yanaşmalarını araşdıran Azərbaycan şirkətləri üçün perspektivlər müzakirə olunub. Məkkə şəhərində keçirilmiş Məkkə Halal Forumu çərçivəsində KOBİA nümayəndələri və İslam Palatasının Halal Sertifikatlaşdırma Xidmətlərinin baş direktoru Əşrəf Əl Tanbouli arasında keçirilmiş görüşdə isə ölkəmizdə halal sənaye, bu sahədə təcrübə mübadiləsi və mümkün əməkdaşlıq imkanları müzakirə edilib.

## 24-26 yanvar 2024

Bəhreyn Krallığına səfər çərçivəsində Manama şəhərində KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Bəhreyn Ticarət və Sənaye Palatasının İdarə Heyətinin üzvü və Bəhreyn KOB-ların İnkişafı Cəmiyyətinin sədri Əhməd Al Saloom ilə görüşüb. Görüşdə KOB-ların dəstəklənməsi təşəbbüslərinə, inkubator proqramlarına dair fikir, innovasiya ekosisteminin inkişafı üzrə təcrübə mübadiləsi aparılıb, əməkdaşlıq imkanları müzakirə edilib.
Səfər zamanı həmçinin KOBİA nümayəndələri Bəhreynin KOB-lar Cəmiyyətinin sədri Abdulhəsən Əl-Dairi ilə görüşüb. Görüşdə KOB-lar arasında əlaqələrin təşviqi üçün innovativ strategiyalar, Azərbaycan və Behreyn KOB-ları arasında mümkün əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

1








2



## 29 yanvar 2024

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri Türkiyə Yüz İli Birlik və Həmrəylik Platformasının sədri Çingiz Aygör ilə görüşüb. Görüşdə iş adamlarının, xüsusilə KOB subyektlərinin iştirakı ilə ortaq layihələrin reallaşdırılması, əməkdaşlıq və investisiya qoyuluşu imkanlarını müzakirə edilib.

## 31 yanvar - 1 fevral 2024

Azərbaycan və Avstriyanın işgüzar dairələri, xüsusilə KOB subyektləri arasında əlaqələrin genişləndirilməsi, mümkün əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi, eləcə də bu ölkədə biznesə dəstək alətləri barədə məlumat və təcrübə mübadiləsi məqsədilə KOBİA nümayəndələri Vyana şəhərində səfərdə olub. Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyinin dəstəyi ilə baş tutan səfər çərçivəsində Avstriyanın biznesə dəstək göstərən müxtəlif qurumlarında görüşlər keçirilib.
Avstriya Biznes Agentliyinin idarəedici direktoru Rene Tritsçer və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov arasında görüşdə hər iki ölkənin biznesə dəstək mexanizmləri barədə qarşılıqlı məlumat verilib, iş adamları arasında əməkdaşlığın inkişaf etdirilməsi, bu sahədə mövcud potensialdan istifadə və hər iki qurumun prosesə verə biləcəyi dəstək müzakirə edilib.
Avstriya Federal İqtisadiyyat Palatasının vitse-prezidenti Filip Qadi ilə görüşdə iş adamları arasında biznes və ticarət sahəsində əlaqələrə, investisiya qoyuluşu imkanlarına, işgüzar əməkdaşlığın daha da genişləndirilməsi üçün KOBİA və palatanın birgə təşəbbüslərinə dair fikir mübadiləsi aparılıb.
Avstriyanın Federal Əmək və İqtisadiyyat Nazirliyinin şöbə müdiri Florian Frauşer ilə görüşdə ölkələrimiz arasında biznes sahəsində əməkdaşlıq imkanları, iş adamlarının iştirakı ilə birgə təşəbbüslərin reallaşdırılmasına dəstəyə dair fikir mübadiləsi aparılıb.
Avstriya-Azərbaycan Ticarət Palatasının nümayəndələri ilə görüşdə isə palatının iş adamları arasında əlaqələrin genişlənməsinə öz töhfəsini verdiyi vuğulanıb,

3





5



4



01 Türkiyə Yüz İli Birlik və Həmrəylik Platformasının nümayəndələri ilə görüş. 29 yanvar 2024-cü il

02 Avstriyaya səfər çərçivəsində görüşlər. 31 yanvar – 1 fevral 2024-cü il

03 İtaliya Ticarət Agentliyi ilə görüş. 8 fevral 2024-cü il

04 "Assan Lojistik" şirkəti ilə görüş. 16 fevral 2024-cü il

05 Dubayda Azərbaycan Ticarət Evinin kollektivi ilə görüş. 19 fevral 2024-cü il

palatanın ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün planları, işgüzar dairələr arasında əməkdaşlığın inkişafı üçün KOBİA-nın dəstəyi müzakirə edilib.
Səfər çərçivəsində Azərbaycanın Avstriyadakı Səfirliyində KOBİA nümayəndələri və azərbaycanlı iş adamları arasında görüş keçirilib. Görüşdə Avstriyada çalışan azərbaycanlı iş adamlarının fəaliyyətinə, iki ölkə arasında investisiya qoyuluşu, ticarət əlaqələrinin inkişafı və əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

## 8 fevral 2024

KOBİA nümayəndələri İtaliya Ticarət Agentliyinin direktoru Andrea Makkaniko ilə görüşüb. Görüşdə Azərbaycan və İtaliya KOB-ları arasında əlaqələrin genişləndirilməsi üçün potensial qeyd edilib, ticarət və investisiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün birgə layihələrin həyata keçirilməsi və KOB-lar arasında əlaqələrin gücləndirilməsi müzakirə edilib.

## 16 fevral 2024

KOBİA nümayəndələri Türkiyənin "Kibar Holding"in tərkibində fəaliyyət göstərən "Assan Lojistik" şirkətinin İdarə Heyətinin üzvü Vedat Baylan və heyəti ilə görüşüb. Görüşdə logistika sahəsində Azərbaycan və Türkiyə KOB-larının əlaqələndirilməsinə, KOBİA-nın bu sahədə dəstəyinə, şirkətin ölkəmizdə fəaliyyət imkanlarına dair fikir mübadiləsi aparılıb.

## 19 fevral 2024

KOBİA nümayəndələri Dubayda yerləşən Azərbaycan Ticarət Evində olublar. Ticarət evinin kollektivi ilə görüşdə xaricdəki ticarət evləri, "Made in Azerbaijan" brendi ilə məhsulların xarici bazarlara çıxarılması, ixracın və istehsalın stimullaşdırılmasında ticarət evlərinin əhəmiyyətinə dair fikir mübadiləsi aparılıb. KOBİA nümayəndələri məhsullarımızın satışı və ticarət evinin ehtiyacları ilə maraqlanıblar.












## 20 fevral 2024

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri Qətərə işgüzar səfər çərçivəsində Dohada bir sıra görüşlər keçiriblər.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Qətər Ticarət və Sənaye Palatasının birinci vitse-prezidenti Məhəmməd bin Əhməd bin Tvar arasında keçirilmiş görüşdə Azərbaycan-Qətər Birgə Biznes Şurasının fəaliyyətinə, işgüzar dairələr arasında əməkdaşlığın genişləndirilməsi üçün birgə təşəbbüslərə və tədbirlərə dair fikir mübadiləsi aparılıb.

KOBİA nümayəndələri Dohadakı Ticarət Evində də olub, mərkəzin əməkdaşları ilə satış, ixrac və ticarət evinin fəaliyyəti ilə bağlı söhbət ediblər.

## 21 fevral 2024

KOBİA-da Bəhreynin KOB-ların İnkişafı Cəmiyyətinin sədri və Bəhreyn Ticarət və Sənaye Palatasının İdarə Heyətinin üzvü Əhməd Əl Salumu ilə görüş keçirilib. Görüşdə “Bakı KOB evi”ndə sahibkarlara göstərilən xidmətlər barədə məlumat verilib, işgüzar əməkdaşlıq üçün birgə platformalar haqqında fikir mübadiləsi aparılıb.

## 27 fevral 2024

Turizm sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə birgə KOBİA nümayəndələri ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiə ilə görüşüb. Görüşdə Azərbaycan şirkətlərinin zəvvarlara həcc və ümrə ziyarətləri üçün xidmətlərin göstərilməsi sahəsində mövcud vəziyyət və imkanlar müzakirə edilib.

## 28 fevral 2024

Rusiya Federasiyasının Stavropol vilayətinin Mineralnı Vodı şəhərində keçirilən XII Rusiya-Azərbaycan



4




5





01 Qətərə səfər çərçivəsində görüşlər. 20 fevral 2024-cü il

02 Bəhreynin KOB-ların İnkişafı Cəmiyyəti ilə görüş. 21 fevral 2024-cü il

03 Səudiyyə Ərəbistanın Həcc və Ümrə naziri ilə görüş. 27 fevral 2024-cü il

04 Rusiya səfər çərçivəsində sənədlərin imzalanması. 28 fevral 2024-cü il

05 Türkiyənin Qəhrəmanmaraş şəhərindən olan iş adamları ilə görüş. 4 mart 2024-cü il

Regionlararası Forumu çərçivəsində KOBİA ilə Rusiyanın müvafiq qurumları arasında iki sənəd imzalanıb.
Azərbaycan və Stavropolun kiçik və orta sahibkarlıq subyektləri arasında ticarət və investisiya əməkdaşlığını təşviq etmək məqsədilə KOBİA və Stavropolun Ticarət və Sənaye Palatası arasında imzalanmış Anlaşma Memorandumunda KOB sahəsində yeniliklərə, dəstək və xidmətlərə dair qarşılıqlı məlumat və təcrübə mübadiləsi, işgüzar missiyaların təşkili, birgə tədbirlərin keçirilməsi nəzərdə tutulur.
KOBİA və Rusiyanın "Qafqaz. RF" Səhmdar Cəmiyyəti arasında imzalanmış Anlaşma Memorandumunda isə KOB-ların dəstəklənməsi üçün qarşılıqlı məlumatlandırma, KOB-lar arasında əlaqələrin qurulmasına və inkişafına köməyin göstərilməsi, birgə layihələrin və investisiya təşəbbüslərinin reallaşdırılması üçün işgüzar dairələrə dəstək və s. istiqamətlərdə əməkdaşlıq tədbirləri öz əksini tapıb.
Həmçinin səfər çərçivəsində KOBİA-nın dəstəyi, hər iki ölkənin iş adamlarının iştirakı ilə biznes görüşü təşkil olunub. Tədbirdə KOB-ların dəstəklənməsi tədbirləri, bu sahədə əməkdaşlıq perspektivləri və rəqəmsal imkanlar müzakirə edilib.

## 4 mart 2024

Türkiyənin Qəhrəmanmaraş şəhərindən olan bir qrup iş adamı Türkiyə Yüz İli Əməkdaşlıq və Həmrəylik Platformasının dəstəyi ilə ölkəmizdə səfərdə olub. Səfər çərçivəsində KOBİA-nın təşkilatçılığı və platformanın dəstəyi ilə "Bakı KOB evi"ndə Türkiyə və Azərbaycan iş adamları arasında birgə əməkdaşlıq və qarşılıqlı investisiya imkanları müzakirə edilib. Tədbirdə hər iki ölkədən xidmət, kənd təsərrüfatı, sənaye, İKT, tikinti, turizm və s. sektorlarda fəaliyyət göstərən 150-yə yaxın iş adamı iştirak edib.



3



1




2

## 6 mart 2024

KOBİA nümayəndələri və Türkiyənin Bilişim Vadisinin Baş icraçı direktoru Erkam Tüzgen arasında görüş keçirilib. Görüşdə əməkdaşlıq imkanları, startaplara dəstək tədbirləri, Bilişim Vadisinin təşkil etdiyi tədbirlərdə yerli startapların iştirakı müzakirə edilib.

## 7 mart 2024

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi BMT-nin Qlobal Sazişinə qoşulub. Agentlik BMT-nin Qlobal Sazişinin iştirakçısı olaraq strategiya və fəaliyyətini Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq prinsiplərinə uyğunlaşdırmaqda, KOB-ların inkişafına və yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstək olmaqla qlobal davamlı inkişaf strategiyasına öz töhfəsini verməkdə davam edəcək. Agentlik fəaliyyətində və KOB-larla iş prosesində ətraf mühit məsələlərinə, "yaşıl iqtisadiyyat"ın təbliğinə diqqəti daha da artıracaqdır. Qeyd edək ki, BMT-nin Qlobal Sazişi 160-dan çox ölkədə 20 mindən artıq biznes və qeyri-biznes tərəfdaşlarını bir araya gətirir. Təşkilatın üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplərə, eləcə də "Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmaqdır.

## 11 mart 2024

Bakıda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti cənab Kasım-Jomart Tokayevin iştirakı ilə bir sıra sənədlər, o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və






4




5

01 Türkiyənin Bilişim Vadisi ilə görüş.
6 mart 2024-cü il

02 KOBİA BMT-nin Qlobal Sazişinə qoşulub.
7 mart 2024-cü il

03 KOBİA və Qazaxıstanın “DAMU” Sahibkarlığın İnkişafı Fondu arasında Memorandumun imzalanması. 11 mart 2024-cü il

04 Qazaxıstanın “Damu” Sahibkarlığın İnkişafı Fondu ilə görüş.
12 mart 2024-cü il

05 Azərbaycan-Xorvatiya biznes forumu.
12 mart 2024-cü il

Qazaxıstanın “DAMU” Sahibkarlığın İnkişafı Fondu ASC arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənəddə iki ölkə arasında KOB sahəsində əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə bir sıra tədbirlər, o cümlədən məlumat və təcrübə mübadiləsi, sahibkarlıq sahəsində təlim proqramlarının reallaşdırılması, birgə layihələrin yaradılması və təşviqi, müxtəlif tədbirlərin təşkili və s. nəzərdə tutulur. Memorandumla birgə həmçinin kiçik və orta biznesə dəstək tədbirlərinin keçirilməsi üzrə Yol Xəritəsi də təsdiq edilib.

## 12 mart 2024

KOBİA-da Qazaxıstanın “Damu” Sahibkarlığın İnkişafı Fondunun sədri Qauxar Buribayeva və “Atameken” Milli Sahibkarlar Palatasının rəyasət heyətinin sədri Raimbəy Batalov ilə görüş keçirilib. Görüşdə KOB sahəsində KOBİA və Qazaxıstanın müvafiq qurumları arasında əlaqələrə və əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.
Qonaqlar həmçinin “Bakı KOB evi”nin fəaliyyəti, burada sahibkarlara göstərilən xidmətlərlə tanış olublar.

## 12 mart 2024

AZPROMO və Xorvatiya İqtisadiyyat Palatasının birgə təşkilatçılığı ilə Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib. Tədbirdə dövlət rəsmiləri ilə yanaşı, qida sənayesi, tikinti, ticarət, energetika sahələrində fəaliyyət göstərən 40-dan çox şirkət nümayəndəsi iştirak edib. Tədbirdə çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizin biznes və investisiya potensialı, KOB subyektlərinə göstərilən dəstək tədbirləri və Xorvatiyanın iş adamları və yerli KOB-lar arasında mümkün əməkdaşlıq perspektivləri barədə məlumat verib.













## 15 mart 2024

KOBİA-da İtalyanın "Pramac" şirkətinin vitse-prezidenti İqor Baraxtyanski və şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə rəsmi tərəfdaşı olan "Baku Business Group Holding"in əməkdaşları ilə görüş keçirilib. Görüşdə KOBİA-nın mikro, kiçik və orta sahibkarlara göstərdiyi dəstək və xidmətlər barədə məlumat verilib, "Pramac" şirkətinin ölkəmizdəki fəaliyyətinə və əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

## 18 mart 2024

KOBİA-nın nümayəndələri və Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi arasında görüş keçirilib. Görüşdə əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb, birgə platformaların yaradılması və qarşılıqlı inkişaf üçün yeni imkanların araşdırılması müzakirə edilib.

## 1 aprel 2024

KOBİA-da "Ziraat Bank Azərbaycan"nın İdarə Heyətinin sədri Selçuk Demir ilə görüş keçirilib. Görüşdə KOB-lara maliyyə dəstəyinin göstərilməsi, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, investisiya qoyuluşu, bu sahələrdə KOBİA və bank arasında əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

## 2 aprel 2024

KOBİA nümayəndələri və Türkiyə İxracatçılar Məclisinin vitse-prezidenti Fikret Kileci arasında görüş keçirilib. Agentlikdə təşkil olunmuş görüşdə iki ölkə arasında ixrac sahəsində əməkdaşlıq, əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib.

## 3 aprel 2024

Qazaxıstanın "Damu" Sahibkarlığın İnkişafı Fondunun nümayəndələri Azərbaycanın kiçik və orta sahibkarlıq sahəsində təcrübəsini öyrənmək məqsədilə ölkəmizdə səfərdə olublar. Səfər KOBİA və fond arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində baş tutub. İki gün davam edən səfər zamanı Qazaxıstan nümayəndə heyəti üçün KOB sahəsində qanunvericilik, bu sahədə dəstək və xidmətlər, o cümlədən KOBİA-nın fəaliyyəti, KOB dostu və KOB evi mexanizmləri, yeni KOB subyektlərinin yaradılması və inkişafı məqsədilə həyata keçirilən layihələr barədə təqdimatlar keçirilib, nümayəndə heyətini maraqlandıran suallar cavablandırılıb.



5



7



6



8

01 İtalyanın “Pramac” şirkəti ilə görüş. 15 mart 2024-cü il

02 Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandaki səfiri ilə görüş.18 mart 2024-cü il

03 “Ziraat Bank Azərbaycan” ilə görüş. 1 aprel 2024-cü il

04 Türkiyə İxracatçılar Məclisi ilə görüş. 2 aprel 2024-cü il

05 Qazaxıstanın Sahibkarlığın İnkişafı Fondunun KOBİA təcrübəsi ilə tanış olması. 3 aprel 2024-cü il

06 Türkiyə-Azərbaycan biznes görüşü. 3 aprel 2024-cü il

07 “A-Z Czech Engineering” və “Smart Plan” şirkətləri ilə görüş. 4 aprel 2024-cü il

08 MÜSİAD nümayəndələri ilə görüş. 4 aprel 2024-cü il

Qonaqlar həmçinin “Bakı KOB evi”ndə sahibkarlara vahid məkanda xidmətlərin göstərilməsi üçün yaradılmış şəraitlə tanış olublar.

## 3 aprel 2024

Türkiyə İxracatçılar Məclisinin təşkilatçılığı ilə ölkəmizdə səfərdə olan Türkiyə və Azərbaycan iş adamlarının iştirakı ilə biznes görüş keçirilib. Hər iki ölkədən xidmət, qida, avtomobil sənayesi, İKT, kimya, qara və əlvan metallurgiya və s. sektorlarda fəaliyyət göstərən 100-ə yaxın iş adamının iştirak etdiyi görüşdə qarşılıqlı əməkdaşlıq və investisiya qoyuluşu imkanları, KOB-lar arasında əlaqələrin qurulması müzakirə edilib. Tədbir çərçivəsində həmçinin ölkəmizin əlverişli investisiya mühiti, sərmayə qoyuluşu və ixrac potensialı barədə məlumat verilib, iş adamaları arasında “B2B” və sahəvi görüşlər keçirilib.

## 4 aprel 2024

KOBİA-da “A-Z Czech Engineering” şirkətinin baş direktoru Milan Pavlicek və “Smart Plan” şirkətinin idarəedici tərəfdaşı Tomas Janca ilə görüş keçirilib. Görüşdə innovasiyalar, “ağıllı şəhər” layihələrinin və “yaşıl texnologiyalar”ın tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.

## 4 aprel 2024

Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) İdarə Heyətinin üzvü Mustafa Özgür Yücelin rəhbərlik etdiyi nümayəndə heyəti KOBİA-da olub. Görüşdə Azərbaycan və Türkiyə iş adamları arasında əməkdaşlıq, ticarət əlaqələri və KOB-ların xarici ticarət fəaliyyətinin genişləndirilməsi, birgə layihələrin reallaşdırılması, hər iki qurumun KOB-ların inkişafına yönəlmiş birgə təşəbbüsləri, KOB-lar arasında məlumat və təcrübə mübadiləsinin davam etdirilməsi kimi məsələlər müzakirə edilib. Görüşdə “MÜSİAD Azərbaycan”ın nümayəndələri də iştirak ediblər.

1





3




2



## 17 aprel 2024

Tatarıstanın Baş nazirinin müavini, sənaye və ticarət naziri Oleq Korobçenkonun rəhbərlik etdiyi heyət “Bakı KOB evi”ndə olub. Nümayəndə heyəti KOB evində sahibkarlara vahid məkanda xidmətlərin təşkili üçün yaradılmış şəraitlə tanış olub.
Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və “Bakı KOB evi”nin nümayəndələri Tatarıstan nümayəndə heyətinə KOB evi konsepsiyası, KOB evlərinin biznesin işini asanlaşdırması, bu sahədə nəzərdə tutulan yeniliklər barədə məlumat veriblər. Tatarıstan nümayəndə heyəti KOB evi modelinin onlarda müsbət təəssürat yaratdığını və sahibkarlara “G2B” və “B2B” xidmətlərin göstərilməsi sahəsində yeniliklərdən olduğunu, biznesə göstərilən xidmətlərin vahid məkanda təşkili üzrə Azərbaycanın bu təcrübəsinin nümunə olduğunu bildiriblər.

## 18 aprel 2024

KOBİA nümayəndələri Türkiyənin İzmir şəhərində işgüzar səfərdə olub. Səfər çərçivəsində KOBİA nümayəndələri Agentliyin dəstəyi ilə İzmir şəhərində keçirilən “İş dünyası-100 İlin Zirvəsi” biznes forum-sərgidə iştirak ediblər. Azərbaycan və Türkiyənin işgüzar dairələrini bir araya gətirən tədbirdə ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı, perspektivlər, KOB-lar arasında əməkdaşlığın genişləndirilməsi müzakirə edilib. Tədbirin sərgi hissəsində kənd təsərrüfatı, İKT, tikinti və inşaat, xidmət, daşınmaz əmlak, turizm və hotelçilik, qida sənayesi, mebel istehsalı, reklam və poliqrafiya sahələrində fəaliyyət göstərən Azərbaycan və Türkiyə şirkətlərinin məhsul və xidmətləri nümayiş olunub, “B2B” görüşlər keçirilib. Həmçinin KOBİA nümayəndələri İzmir Ticarət Palatasının məclis sədri Selami Özpoyraz ilə görüşüb. Görüşdə işgüzar dairələrin iştirakı ilə iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi imkanları, bu sahədə hər iki qurumun birgə təşəbbüslərinə dair fikir mübadiləsi aparılıb.

## 19 aprel 2024

Türkiyənin Aydın İdarəçi və Sənaye İş Adamları Dərnəyinin rəhbəri










01 Tatarıstan nümayəndə heyətinin "Bakı KOB evi"ni ziyarət etməsi. 17 aprel 2024-cü il

02 KOBİA nümayəndələrinin İzmirə səfəri. 18 aprel 2024-cü il

03 Türkiyənin Aydın İdarəçi və Sənaye İş Adamları Dərnəyi ilə görüş. 19 aprel 2024-cü il

04 Qazaxıstanın tələbə və magistrları "Bakı KOB evi"ndə olublar. 22 aprel 2024-cü il

05 Azərbaycan – Başqırdıstan biznes forumu. 24 aprel 2024-cü il

06 Başqırdıstanın kənd təsərrüfatı naziri ilə görüş. 24 aprel 2024-cü il

Fırat Barışıqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə ölkəmizə səfər çərçivəsində KOBİA-da görüş keçirilib. Turizm, sənaye, qida kimi sektorlarının nümayəndələrinin təmsil olunduğu heyət ilə görüşdə Azərbaycanda biznes və investisiya imkanları, yerli KOB-larla əməkdaşlığa dair müzakirələr aparılıb. Qonaqlar həmçinin "Bakı KOB evi"nin fəaliyyəti ilə də tanış olublar.

## 22 aprel 2024

Ölkəmizə səfər çərçivəsində "ADA" Universitetində təcrübə keçən Qazaxıstanın "Almatı İdarəetmə Universiteti"nin bir qrup tələbə və magistrı "Bakı KOB evi"ndə olub. KOB evinin fəaliyyəti ilə tanış olan heyətə "Bakı KOB evi"nin nümayəndələri tərəfindən mərkəzdə sahibkarlara göstərilən "G2B" və "B2B" xidmətlər barədə məlumat verilib. Həmçinin tələbə və magistrlar üçün KOB evi konsepsiyası barədə təqdimat keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

## 24 aprel 2024

AZPROMO-nun təşkilatçılığı ilə Bakıda Azərbaycan – Başqırdıstan biznes forumu keçirilib. Tədbirdə dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, qida sənayesi, əczaçılıq, logistika, konsaltinq, ticarət və digər sahələrdə fəaliyyət göstərən şirkət nümayəndələri iştirak edib. Forumdakı çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin fəaliyyət istiqamətləri haqqında məlumat verib, Rusiya Federasiyasının subyektləri ilə əlaqələrin aktiv şəkildə inkişaf etdiyini bildirib. KOBİA sədri KOB sahəsində Azərbaycanın təcrübəsini iştirakçıların diqqətinə çatdırıb, bu sahədə Başqırdıstanın müvafiq qurumları ilə tərəfdaşlığın potensialı barədə fikirlərini bölüşüb.

## 24 aprel 2024

Bakıda keçirilmiş Azərbaycan-Başqırdıstan biznes forumu çərçivəsində KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Başqırdıstanın Baş nazirinin müavini, kənd təsərrüfatı naziri İlşat Fəzrəxmanov arasında görüş keçirilib. Görüşdə sahibkarlıq subyektləri arasında əməkdaşlıq imkanları, işgüzar missiyaların təşkili və sərgilərdə iştiraka dair fikir mübadiləsi aparılıb.








## 24 aprel 2024

Somali Federativ Respublikasının nümayəndələrindən ibarət heyət ölkəmizə səfər çərçivəsində KOBİA-da olub. Nümayəndə heyətində Somalinin Xarici İşlər Nazirliyinin Asiya və Avstraliya üzrə direktoru Abdisalam Süleyman Abdi Kodar, Baş nazirin katibinin müavini Abdirizak Əli İbrahim, Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyinin katibi Həsən Məhəmməd Əli təmsil olunub. KOBİA və Somali nümayəndələri arasındakı görüşdə KOB sahəsində təcrübə mübadiləsinə dair müzakirələr aparılıb. Ölkəmizdə KOB subyektlərinə göstərilən dəstək və xidmətləri maraqla qarşılayan qonaqlar Azərbaycanın kiçik və orta sahibkarlıq sahəsində təcrübəsinin Somalidə tətbiqinə maraqlarını ifadə ediblər. Görüşdə həmçinin Somalidə fəaliyyət göstərən KOB subyektləri üçün təlimlərin təşkili imkanlarına, dövlət və özəl qurumlar arasında əlaqələrin yaradılmasına dair fikir mübadiləsi aparılıb.

## 25 aprel 2024

Bakıda Azərbaycan və Macarıstan Hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 10-cu iclası çərçivəsində İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin-AZPROMO və Macarıstanın İxracın Təşviqi Agentliyinin (HEPA) təşkilatçılığı ilə Azərbaycan-Macarıstan biznes forumu keçirilib. Tədbirdə dövlət rəsmiləri ilə yanaşı, su sənayesi, kənd təsərrüfatı, İKT, səhiyyə, avtomobil sənayesi, əczaçılıq, tikinti, maliyyə və digər sektorlarda fəaliyyət göstərən 50-dən çox şirkət iştirak edib. Komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Macarıstan tərəfindən həmsədri, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto biznes forumun açılışında iştirak ediblər. Tədbirdə çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin fəaliyyətindən, iş adamları arasında əlaqələrin qurulmasına, birgə təşəbbüslərin reallaşdırılmasına xidmət edən dəstək tədbirlərindən bəhs edib.

## 30 aprel 2024

Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərinə səfəri çərçivəsində KOBİA nümayəndələri və Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri Əhməd Əl Dakhil arasında görüş keçirilib. Görüşdə işgüzar əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün İşgüzar Şura çərçivəsində atılacaq növbəti addımlara dair fikir mübadiləsi aparılıb.










01 Somali nümayəndə heyəti ilə görüş. 24 aprel 2024-cü il

02 Azərbaycan-Macarıstan biznes forumu. 25 aprel 2024-cü il

03 Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri ilə görüş. 30 aprel 2024-cü il

04 Azərbaycan və Pakistan iş adamları arasında “B2B” görüş. 30 aprel 2024-cü il

05 Malaziyanın Birləşdirilmiş Çin Ticarət və Sənaye Palatası ilə görüş. 1 may 2024-cü il

06 Türkiyədə təlim səfəri. 1-3 may 2024-cü il

## 30 aprel 2024

Pakistanın İslamabad Kiçik Ticarətçilər və Sənayeçilər Palatasının nümayəndələrindən və iş adamlarından ibarət heyətin ölkəmizə səfəri çərçivəsində Bakı Biznes Mərkəzində “B2B” görüşlər keçirilib. KOBİA-nın təşkilatçılığı ilə keçirilmiş “B2B” görüşlərdə Azərbaycan və Pakistanın sənaye, qida, turizm, elektronika və digər sektorlarında fəaliyyət göstərən iş adamları iştirak ediblər. Görüşlərdə şirkətlər qarşılıqlı olaraq fəaliyyətləri barədə məlumat verib, əməkdaşlıq və ixrac imkanları barədə müzakirələr aparıblar. “B2B” görüşlərdə İslamabad Kiçik Ticarətçilər və Sənayeçilər Palatasının prezidenti Sajad Sarvar və vitse-prezident Syeda Vajida Salem də iştirak ediblər.

## 1 may 2024

KOBİA-da Malaziyanın Birləşdirilmiş Çin Ticarət və Sənaye Palatasının prezidenti Tan Sri Dato Lov Kian Çuanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Azərbaycan və Malayziyanın biznes strukturları arasında əməkdaşlığın genişləndirilməsi və bazarlara çıxışın dəstəklənməsinə dair fikir mübadiləsi aparılıb.

## 1-3 may 2024

KOBİA ilə Türkiyənin Katılım Bankaları Birliyi arasında əməkdaşlıq çərçivəsində maliyyə bazarları sahəsində bilik və bacarıqların artırılması məqsədilə 1-3 may tarixlərində Türkiyənin İstanbul şəhərində “İslam bankçılığı və maliyyəsi” təlimi keçirilib. Tədbirdə İqtisadiyyat Nazirliyinin, Azərbaycan Mərkəzi Bankının, Sahibkarlığın İnkişafı Fondunun, KOBİA-nın və ölkənin aparıcı banklarının nümayəndələri iştirak ediblər. Təlimdə islam bankçılığı ilə ənənəvi bankçılıq arasında fərq, islam maliyyə alətləri və tətbiqi mexanizmləri, maliyyə vəsaitlərinin toplanması və idarə edilməsi mövzuları tədris olunub. Eyni zamanda təlim səfəri çərçivəsində iştirakçılar Türkiyənin maliyyə bazarlarının tənzimləyici qurumlarında və peşəkar bazar iştirakçıları ilə görüşlər keçiriblər. Təlim iştirakçılarına sertifikatlar verilib.

1









2




## 4 may 2024

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İslam Ticarət və İnkişaf Palatasının Baş katibi Yusuf Həsən Xalavi arasında görüş keçirilib. Görüşdə cari il üçün əməkdaşlıq gündəliyi, o cümlədən üzv ölkələrlə qarşılıqlı biznes missiyaların və forumların təşkili barədə müzakirə aparılıb.

## 7 may 2024

Ənənəvi İllik İnvestisiya Toplantısında (Annual Investment Meeting – AİM) iştirak etmək, eləcə də KOB-ların inkişafına yönəlmiş əməkdaşlıq imkanlarına dair fikir mübadiləsinin aparılması məqsədilə KOBİA nümayəndələri Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində səfərdə olublar.
KOBİA nümayəndələri “AIM Congress”in açılış mərasimində və tədbir çərçivəsində təşkil olunmuş “KOB-lar və xarici investisiyalar: çağırışlar və imkanlar” mövzusunda panel iclasda iştirak ediblər. Paneldə Agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov KOB-ların birbaşa xarici investisiya potensialı barədə Azərbaycan təcrübəsinə dair fikirlərini bölüşüb.
KOBİA nümayəndələri “AIM Congress” çərçivəsində təşkil olunmuş sərgidə təmsil olunan “Invest in Azerbaijan” stendini ziyarət ediblər. Stenddə Azərbaycan iqtisadiyyatı, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühitin, eləcə də sahibkarlara dəstək göstərən qurumların, o cümlədən KOBİA-nın dəstək və xidmətləri barədə məlumat verilib.
“AIM Congress”də startaplar üçün xüsusi proqram da təşkil olunub. Tədbirdə ölkəmizi “AIM Congress” üzrə milli turun qalibi “Recepta” startapı təmsil edib. KOBİA nümayəndələri “Recepta”nın komandası ilə görüşüb, layihəyə xarici investorların marağı barədə fikir mübadiləsi aparıblar.
Səfər çərçivəsində KOBİA nümayəndələri San-Marinonun sənaye, əl sənəti, ticarət və texnoloji araşdırmalar naziri Fabio Righi, Türkmənistanın Xarici İqtisadi Əlaqələr üzrə Dövlət Bankının İdarə Heyətinin sədri Rahimberdi Jepbarov, Əlcəzair İş Adamları Assosiasiyasının prezidenti Zertit Haisem və Küveyt Biznes Şurasının prezidenti Feras Adel Məhəmməd Əl-Salem ilə görüşüblər.




3






01 İslam Ticarət və İnkişaf Palatası ilə görüş. 4 may 2024-cü il

02 Birləşmiş Ərəb Əmirliklərinə səfər. 7 may 2024-cü il

03 Türkiyə səfəri. 8 may 2024-cü il

Görüşlərdə biznes qurumları arasında əlaqələrin inkişaf etdirilməsi üçün institusional əməkdaşlığın qurulmasına, mümkün əməkdaşlıq istiqamətlərinə, KOB-larla bağlı təcrübəyə dair fikir mübadiləsi aparılıb. Həmçinin səfər zamanı KOBİA və "AIM Congress" arasında tərəfdaşlığa dair sənəd imzalanıb.

## 8 may 2024

Ankara şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 11-ci iclası çərçivəsində KOBİA və Türkiyənin Xarici İqtisadi Əlaqələr Komitəsinin (DEİK) nəzdində Türkiyə-Azərbaycan Biznes Şurası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənəd iki ölkə arasında idxal və ixracın inkişafı ilə bağlı qarşılıqlı məlumat mübadiləsi, investisiya və sənaye layihələri barədə işgüzar dairələrin məlumatlandırılması sahəsində əməkdaşlıq, birgə tədbirlərin təşkili kimi məsələləri özündə əks etdirir. KOBİA nümayəndələri hər iki ölkənin rəsmi şəxslərinin və iş adamlarının iştirakı ilə keçirilmiş Türkiyə-Azərbaycan biznes forumunda da iştirak ediblər. Tədbirdə KOBİA tərəfindən ölkələrimiz arasında kiçik və orta biznes sahəsində əlaqələrin inkişafı istiqamətində görülən tədbirlər və perspektiv imkanlar barədə məlumat verilib.
Səfər zamanı həmçinin KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İslam Ölkələri üzrə Statistik, İqtisadi, Sosial Araşdırmalar və Təlim Mərkəzinin (SESRİC) Baş direktoru Zehra Zümrüt Selçuk arasında görüş keçirilib. Görüşdə KOBİA-nın sahibkarların bilik və bacarıqlarının artırılması istiqamətində dəstəyi barədə məlumat verilib, qarşılıqlı ekspert mübadiləsi imkanları, biznes dairələri arasında əməkdaşlığı gücləndirəcək tədbirlərin təşkili məsələləri müzakirə edilib. Görüş çərçivəsində KOBİA və SESRİC arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Sənəddə tərəflər arasında əməkdaşlığın gücləndirilməsi, hər iki ölkənin KOB sahəsində əlaqələrinin inkişafı üçün müvafiq tədbirlərin, o cümlədən məlumat və təcrübə mübadiləsinin, sahibkarlıq sahəsində təlim proqramlarının reallaşdırılması, birgə layihələrin icrası kimi məsələlər nəzərdə tutulur.



1



2



3

## 11 may 2024

KOBİA-da BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinin üzvü Aslan Abaşidze ilə görüş keçirilib. Görüşdə ölkədə KOB-ların inkişafı, bu sahədə qanunvericilik, dəstək tədbirləri barədə müzakirə aparılıb. Aslan Abaşidze KOB evində sahibkarlara vahid məkanda xidmətlərin təşkili üçün yaradılmış şəraitlə və mediasiya məkanı ilə də tanış olub.

## 14 may 2024

KOBİA nümayəndələri və Müstəqil Sənayeçi və İş Adamları Birliyinin (MÜSİAD) Azərbaycan filialının İdarə Heyətinin üzvləri arasında görüş keçirilib. Görüşdə hər iki ölkənin iş adamları arasında ticarət və investisiya sahəsində əməkdaşlıq, KOB-ların xarici ticarət fəaliyyəti barədə fikir mübadiləsi aparılıb.

## 16 may 2024

KOBİA-nın nümayəndələri Belarus Respublikasının İqtisadiyyat Nazirliyinin İnvestisiya və Özəlləşdirmə Milli Agentliyinin direktoru Dmitri Krasovski ilə görüşüb. Görüşdə qurumlar arasında əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb. Dmitri Krasovski “Bakı KOB evi”nin fəaliyyəti ilə də tanış olub.

## 17 may 2024

Tatarıstan Respublikasının Kazan şəhərində keçirilən “Rusiya-İslam dünyası: Kazan Forumu 2024” çərçivəsində təşkil olunan “Rusiya – Azərbaycan” dəyirmi masasında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri də iştirak ediblər. Tədbirdəki çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov hər iki ölkənin iş adamları arasında əməkdaşlıq, Azərbaycanda biznes qurmaq istəyən Rusiya iş adamlarına dəstək və KOB-larla iş sahəsində təcrübə mübadiləsi imkanlarına dair fikirlərini bölüşüb. Rusiya iş adamları işğaldan azad edilmiş ərazilərin investisiya potensialını, bölgədə












01 BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinin üzvü ilə görüş. 11 may 2024-cü il

02 “MÜSİAD Azərbaycan”ın nümayəndələri ilə görüş. 14 may 2024-cü il

03 Belarusun İnvestisiya və Özəlləşdirmə Milli Agentliyi ilə görüş. 16 may 2024-cü il

04 Tatarıstana səfər çərçivəsində keçirilmiş görüşlər. 17 may 2024-cü il

05 Çorum Gənc İş Adamları Dərnəyi ilə görüş. 18 may 2024-cü il

06 Azərbaycan – Tacikistan biznes forumu. 20 may 2024-cü il

prioritet olan “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji” konsepsiyalarını nəzərə almaqla bu sahədə layihələrin icrasında fəal olmağa dəvət edilib.

KOBİA nümayəndələri “Rusiya – İslam dünyası: Kazan Forumu 2024” çərçivəsində təşkil olunan “Russia Halal Expo” Sərgisində Azərbaycan stendini də ziyarət ediblər. İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə stenddə sahibkarlar tərəfindən ölkəmizdə istehsal olunan tekstil, çay, fındıq, qənnadı məmulatları, ədviyyatlar, ət və ət məhsulları nümayiş olunur. Sərgidə həmçinin AZPROMO, KOBİA və Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın iqtisadi imkanları, o cümlədən investisiya və ixrac perspektivləri, turizm sahəsinin potensialı, eləcə də investorlara təklif olunan imtiyazlar barədə məlumat verilir.

Səfər çərçivəsində KOBİA nümayəndələri Moskvanın Ticarət və Sənaye Palatasının prezidenti Vladimir Platonov ilə görüşüb. Görüşdə işgüzar dairələr arasında əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlər və birgə təşəbbüslər müzakirə edilib.

## 18 may 2024

KOBİA-da Türkiyənin Çorum Gənc İş Adamları Dərnəyinin İdarə Heyətinin sədri Burak Küçükbenli ilə görüş keçirilib. Görüşdə biznes dairələri arasında əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb.

## 20 may 2024

Bakıda AZPROMO-nun təşkilatçılığı və hər iki ölkənin iş adamlarının iştirakı ilə Azərbaycan-Tacikistan biznes forumu keçirilib. Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistanın sənaye və yeni texnologiyalar naziri Şerali Kabir iştirak ediblər. Forumdakı çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov hər iki ölkənin işgüzar dairələri arasında əməkdaşlıq, KOBİA-nın iş adamları arasında əlaqələrin genişləndirilməsinə göstərə biləcəyi dəstək barədə məlumat verib.








## 21 may 2024

Qubada II Azərbaycan-Özbəkistan Regionlararası Forumu keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmilərlə yanaşı, müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov forumdakı çıxışında ölkəmizin işgüzar mühiti, iş adamları arasında mümkün əməkdaşlıq imkanları və potensial fəaliyyət istiqamətləri barədə fikirlərini bölüşüb.

## 24 may 2024

KOBİA-da Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) Azərbaycan üzrə regional direktoru Sandra Şenke ilə görüş keçirilib. Görüşdə cari əməkdaşlıq və gələcək təşəbbüslər, o cümlədən sahibkarlığın inkişafında bilik və bacarıqların artırılması, rəqəmsallaşma məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## 27 may 2024

KOBİA-nın nümayəndələri və Türkiyənin tanınmış "Kiğılı" brendinin nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə şirkətin ölkəmizdə planlaşdırdığı tikiş fabrikinə dəstək, tekstil sahəsində klasterləşmə, yerli KOB-larla əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

## 29-30 may 2024

KOBİA nümayəndələri və bir qrup iş adamı KOB-lar arasında əməkdaşlıq imkanlarının araşdırılması və əlaqəli təşkilatlarla institusional əməkdaşlığın qurulması məqsədilə Vyetnamın paytaxtı Hanoy şəhərində səfərdə olublar. Səfər Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı Səfirliyinin dəstəyi ilə baş tutub.
KOBİA nümayəndələri ilə Beynəlxalq Biznes Əlaqələri Klubunun prezidenti Le Trunq Kien, Milli Sahibkarlıq Assosiasiyasının (VINEN) prezidenti Dinh Viet Ho, Vyetnamın Ticarətin Təşviqi












4

01 Azərbaycan – Özbəkistan Regionlararası Forumu. 21 may 2024-cü il

02 Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə görüş. 24 may 2024-cü il

03 “Kiğılı” brendinin nümayəndələri ilə görüş. 27 may 2024-cü il

04 Vyetnama səfər çərçivəsində görüşlər və sənədlərin imzalanması. 29-30 may 2024-cü il

Agentliyi, Sahibkarlığın İnkişafı Agentliyi, Texnoloji Sahibkarlıq və Kommersiyalaşdırmanın İnkişafı üzrə Milli Agentlik ilə görüşlərdə Azərbaycanda KOB-lara göstərilən dəstək və xidmətlər barədə məlumat verilib, sahibkarlıq sahəsində təcrübə, hər iki ölkənin işgüzar dairələri arasında əlaqələrin qurulması, ticarət əlaqələrinin inkişafı və mümkün əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində KOBİA və Vyetnamın Beynəlxalq Biznes Əlaqələri Klubu arasında əməkdaşlığa dair sənəd imzalanıb. Sənəddə hər iki ölkənin işgüzar dairələri arasında birgə əməkdaşlığın inkişafına və əlaqələrin təşviqinə dair müxtəlif tədbirlər nəzərdə tutulur.

KOBİA nümayəndələri və iş adamlarımız səfər zamanı Hanoyda Vyetnamın Milli Sahibkarlıq Assosiasiyasının (VINEN) təşkilatçılığı ilə keçirilən Qlobal Biznes və İnvestisiya Forumunda iştirak ediblər. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov tədbirdəki çıxışında Azərbaycanda sahibkarlıq imkanları, biznesə dəstək alətləri, o cümlədən Agentliyin fəaliyyəti barədə məlumat verib.

Forum çərçivəsində KOBİA və VINEN arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənəddə KOB-lar arasında iqtisadi, ticarət və investisiya əməkdaşlığının genişləndirilməsi, KOB-larla iş və onlara göstərilən dəstəklər üzrə məlumat və təcrübə mübadiləsi, qarşılıqlı işgüzar səfərlərin təşkili, KOB-lar və əlaqədar qurumlar üçün təlim və təhsil proqramlarının təşkilinin dəstəklənməsi kimi istiqamətlərdə əməkdaşlıq öz əksini tapıb. Həmçinin forumda Azərbaycan və Vyetnam iş adamları arasında kənd təsərrüfatı, ət, qənnadı məmulatları və s. qida, kosmetik məhsulların idxal və ixracına, birgə istehsalına dair əməkdaşlıq haqqında niyyət protokolları imzalanıb.




1



2




3

## 4 iyun 2024

Bakıda təhsil alan türkiyəli tələbələr və "Gənc MÜSİAD Azərbaycan"a üzv olan gənclərlə "Bakı KOB evi"ndə görüş keçirilib. "Gənc MÜSİAD Azərbaycan"ın "By Protocol" layihəsi çərçivəsində təşkil olunan görüşdə biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək üçün KOBİA-nın göstərdiyi dəstək və xidmətlər, eləcə də Agentliyin fəaliyyəti barədə məlumat verilib, tələbələri maraqlandıran suallar cavablandırılıb. Görüşdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, "Gənc MÜSİAD Azərbaycan"ın rəhbəri Akif Başoğlu, Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Texniki Universiteti kimi ali təhsil müəssisələrində təhsil alan türkiyəli tələbələr iştirak ediblər. Gənclər "Bakı KOB evi"nin fəaliyyəti ilə də tanış olublar.

## 5 iyun 2024

Ukraynanın Ticarət və Sənaye Palatasının, KOBİA və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun iştirakı ilə Azərbaycan və Ukraynanın işgüzar dairələri arasında əməkdaşlığın genişləndirilməsinə dair görüş keçirilib. Onlayn formatda təşkil olunmuş görüşdə Azərbaycan və Ukraynanın səfirləri də iştirak ediblər.

Görüşdə hər iki ölkənin iş adamları arasında sektoral əməkdaşlığın genişləndirilməsi imkanlarına, İşgüzar Şuranın fəaliyyətinə dair müzakirələr aparılıb.

## 6 iyun 2024

Azərbaycan nümayəndə heyətinin tərkibində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən Beynəlxalq İqtisadi Forumda iştirak edən KOBİA nümayəndələri tədbir çərçivəsində bir sıra görüşlər keçiriblər.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ilə Qırğızıstan Sənayeçilər və Sahibkarlar İttifaqının prezidenti Danil İbraev arasında görüşdə hər iki ölkənin KOB subyektləri arasında birgə təşəbbüslərə və əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Sankt-Peterburqun KOB-ların İnkişafı Fondunun direktoru Aleksey Beresnev ilə görüşdə isə kiçik və orta biznesə dəstək istiqamətində nəzərdə tutulan birgə tədbirlər müzakirə olunub.

Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində keçirilən "Rusiya-Azərbaycan Biznes Dialoqu" tədbirində KOBİA tərəfindən hər iki ölkənin KOB subyektləri arasında potensial əməkdaşlıq imkanlarına, ticarət əməliyyatlarında



4





5



6

01 “Gənc MÜSİAD Azərbaycan”a üzv olan gənclərlə görüş. 4 iyun 2024-cü il

02 Ukraynanın Ticarət və Sənaye Palatası ilə görüş. 5 iyun 2024-cü il

03 Sankt-Peterburqda görüşlərin keçirilməsi. 6 iyun 2024-cü il

04 Türkiyənin “StartGate” şirkəti ilə görüş. 7 iyun 2024-cü il

05 KOBİA və Belarus Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumunun imzalanması. 7 iyun 2024-cü il

06 Azərbaycan-Albaniya Hökumətlərarası Komissiyasının iclası. 10 iyun 2024-cü il

KOB-ların payının artırılmasına təsir göstərə biləcək sektorlara dair məlumat verilib.

## 7 iyun 2024

KOBİA-da Türkiyənin rəqəmsal oyun sənayesinin vacib iştirakçılarından olan “StartGate” şirkətinin rəhbəri Mustafa Cihat Durmuş ilə görüş keçirilib. Görüşdə Azərbaycanda müvafiq sektorun inkişaf perspektivlərinə və “StartGate” şirkəti ilə əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

## 7 iyun 2024

Minsk şəhərində keçirilən Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 14-cü iclası çərçivəsində KOBİA və Belarus Ticarət və Sənaye Palatası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov və Belarus Ticarət və Sənaye Palatasının sədr müavini Denis Meleşkin imzalayıblar. Memorandumda hər iki ölkənin sahibkarları arasında işgüzar əlaqələrin təşviqi, qarşılıqlı maraq doğuran birgə tədbirlərin keçirilməsi, investisiya layihələrinin reallaşdırılmasında təşkilat və iş adamlarına dəstəyin göstərilməsi, iqtisadiyyat və ixrac imkanları ilə tanışlıq məqsədilə biznes missiyaların təşkili, tədbirlər, xarici iqtisadi fəaliyyət sahəsində qanunvericilik aktları və əməkdaşlıqda maraqlı olan potensial tərəfdaşlar barədə məlumat mübadiləsi və s. istiqamətlərdə tədbirlər nəzərdə tutulur.

## 10 iyun 2024

Bakıda Azərbaycan Respublikası Hökuməti və Albaniya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 1-ci iclası keçirilib. İclasda iqtisadiyyat, ticarət və sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat, turizm, mədəniyyət, təhsil, səhiyyə və ərzaq təhlükəsizliyi sahələri üzrə əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb.
Tədbirdəki çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Albaniyanın sahibkarlara dəstək və xidmət göstərən qurumları ilə institusional əməkdaşlığın qurulması və işgüzar əlaqələrin gücləndirilməsi üzrə fikirlərini bölüşüb.

1



3



2



4



## 11 iyun 2024

KOBİA nümayəndələri və Belçika Krallığının Flandriya regionu üzrə iqtisadi və ticarət attaşesi Piter Verplanxen arasında görüş keçirilib. Görüşdə KOBİA-nın fəaliyyəti barədə məlumat verilib, qarşılıqlı əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Həmçinin görüşdə Azərbaycan və Belçikanın KOB-ları arasında ticarət imkanlarını artırmaq üçün potensial birgə addımlar müzakirə edilib.

## 12 iyun 2024

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat nazirinin xarici ticarət və sənaye üzrə müavini Abdulla Əhməd Əl Saleh və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov arasında görüş keçirilib. Görüşdə hər iki ölkənin KOB-ları arasında ticarət əlaqələrinin genişləndirilməsinə dair potensial əməkdaşlıq istiqamətlərinə, münasibətlərin gücləndirilməsi üçün qarşılıqlı biznes missiyaların təşkilinə, investisiya qoyuluşu sahəsində məlumat mübadiləsinə, birgə layihələrin icrasına maraq göstərən şirkətlərin və aidiyyəti qurumların iştirakı ilə tədbirlərin keçirilməsinə dair fikir mübadiləsi aparılıb. Nümayəndə heyəti həmçinin “Bakı KOB evi”nin fəaliyyəti, burada sahibkarlara göstərilən xidmətlərlə yaxından tanış olub.

## 20 iyun 2024

KOBİA nümayəndələri Çin Xalq Respublikasının “Jiubai Import & Export” və “Caspian New Energy” şirkətlərinin nümayəndələri ilə görüşüblər. Görüşdə alternativ enerji sektoruna xarici investisiyaların yatırılması və bu sahədə yerli KOB-larla əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

## 27 iyun 2024

Kiçik Biznes üzrə Beynəlxalq Şuranın (ICSB) təşkilatçılığı ilə İsveçrənin Cenevrə şəhərində yerləşən BMT-nin ofisində 27 iyun – Beynəlxalq Mikro, Kiçik və Orta Müəssisələr Gününə həsr olunmuş tədbir keçirilib. Beynəlxalq təşkilatların, müxtəlif ölkələrdən rəsmi şəxslərin və ekspertlərin iştirakı ilə keçirilən tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədovun videomüraciəti yayımlanıb. Videomüraciətdə KOBİA sədri Azərbaycanda KOB-lara göstərilən dəstək, bu



5





6

01 Belçikanın Flandriya regionu üzrə iqtisadi və ticarət attaşesi ilə görüş. 11 iyun 2024-cü il

02 BƏƏ-nin iqtisadiyyat nazirinin müavini ilə görüş. 12 iyun 2024-cü il

03 Çinin “Jiubai Import & Export” və “Caspian New Energy” şirkətləri ilə görüş. 20 iyun 2024-cü il

04 Beynəlxalq Mikro, Kiçik və Orta Müəssisələr Gününə həsr olunmuş tədbir. 27 iyun 2024-cü il

05 Türkiyə səfəri çərçivəsində keçirilmiş görüşlər. 1 yul 2024-cü il

06 “SRAM&MRAM Group” şirkəti ilə görüş. 5 iyul 2024-cü il

sahədə Agentliyin fəaliyyəti, o cümlədən KOB-ların bilik və bacarıqlara, bazarlara və maliyyəyə çıxışı istiqamətində dəstək alətləri barədə məlumat verib. Tədbirdə KOBİA-nı Agentliyin səlahiyyətli nümayəndələri təmsil ediblər.

## 1 iyul 2024

Türkiyənin İstanbul şəhərində keçirilən “Qlobal Biznes Həftəsi 2024” çərçivəsində təşkil olunan müxtəlif tədbirlərdə KOBİA nümayəndələri də iştirak ediblər. Agentliyin İdarə Heyəti sədrinin müavini Rüfət Atakişiyev “Big Boss” Qlobal Biznes və İnnovasiya Forumu”nda ölkəmizdə gənc sahibkarlıq, gənclərin biznes fəaliyyətinin dəstəklənməsi üçün mexanizmlər və KOBİA-nın fəaliyyəti barədə məlumat verib.

Səfər zamanı KOBİA nümayəndələri İstanbul valisi Davut Gül ilə görüşüb. Görüşdə KOB-lara göstərilən dəstək və xidmətlər, bu sahədə infrastrukturun inkişafı, təcrübə mübadiləsi, eləcə də potensial ortaq layihələrin reallaşdırılması və investisiya qoyuluşu imkanlarına dair fikir mübadiləsi aparılıb.
KOBİA-nın nümayəndələri Kocaeli şəhərində “Bilişim Vadisi”nin ofisində olublar. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və “Bilişim Vadisi”nin icraçı direktorunun müavini Tuba Öztepe arasında görüşdə tərəflər arasında mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib. KOBİA nümayəndələri “Bilişim Vadisi”nin iş prosesi və burada fəaliyyət göstərən müəssisələrlə tanış olublar.

## 5 iyul 2024

KOBİA-da “SRAM&MRAM Group” şirkətinin İdarə Heyətinin sədri Sayleş Lachu Hiranandani və “Rean Earth LTD” şirkətinin təsisçisi və baş icraçı direktoru Renu Singh ilə görüş keçirilib. Görüş zamanı müxtəlif sahələrdə əməkdaşlıq perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb. Həmçinin ölkəmizdə kiçik və orta biznesin inkişafı üçün mövcud imkanlar və dövlətin dəstək mexanizmləri barədə məlumat verilib.



1



2





3

## 8 iyul 2024

AZPROMO, Çin-Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Yerli İqtisadi və Ticarət Əməkdaşlığı Nümayiş Zonasının (SCODA) İnzibati Komitəsinin birgə təşkilatçılığı, Çinin Azərbaycandakı Səfirliyi, Azərbaycanın Çindəki Səfirliyində ticarət nümayəndəsi Aparatının dəstəyi ilə ŞƏT Nümayiş Zonası-Azərbaycanda logistika və ticarətin təşviqi konfransı keçirilib. Tədbirdə hər iki ölkədən rəsmilərlə yanaşı, ticarət, logistika və turizm sektorlarından şirkətlərin nümayəndələri də iştirak edib. Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov iş adamları arasında əməkdaşlıq imkanları, Azərbaycan-Çin işgüzar əlaqələrinin müxtəlif platformalar və formatlarda inkişafı haqqında fikirlərini bölüşüb.

## 9 iyul 2024

KOBİA və İslam Ölkələri üzrə Statistik, İqtisadi, Sosial Araşdırmalar və Təlim Mərkəzinin (SESRIC) birgə əməkdaşlığı çərçivəsində "İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrdə KOB-ların yaşıl iqlim maliyyələşdirilməsi vasitəsilə gücləndirilməsi" mövzusunda seminar keçirilib. İki günlük onlayn seminara yaşıl iqlim maliyyələşdirilməsi üzrə ekspertlər, İƏT-ə üzv ölkələrin müvafiq qurumlarının nümayəndələri, beynəlxalq təşkilatların mütəxəssisləri, müxtəlif ölkələrdən, o cümlədən Azərbaycandan olan KOB subyektləri, ümumilikdə 90-a yaxın iştirakçı qatılıb.
KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və SESRIC-in Baş direktoru Zehra Zümrüt Selçuk çıxışlarında seminarın tərəflər arasında cari ildə imzalanmış Anlaşma Memorandumu çərçivəsində keçirildiyini qeyd edib, KOB-ların yaşıl iqlim maliyyələşdirilməsindəki rolu və bu sahədə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüblər.
Tədbirdə İslam İnkişaf Bankının, BMT-nin Ətraf Mühit Proqramının (UNEP), Kiçik və Orta Müəssisələrin İnkişafı və Dəstəklənməsi Təşkilatının (KOSGEB), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD), Bəhreyin Bankçılıq və Maliyyə İnstitutunun, eləcə də Azərbaycan, İndoneziya, Türkiyə və s. ölkələrdən müvafiq təşkilatların nümayəndələri tərəfindən iqlim dəyişiklikləri fonunda ağıllı texnologiyaların tətbiqi, KOB-lar üçün davamlı maliyyə, bu sahədə İƏT-in platforması, iqlim maliyyələşdirilməsinin effektivliyi və gələcəyi, Azərbaycanda "yaşıl KOB"lar üçün imkanlar kimi mövzularda təqdimatlar keçirilib, iştirakçıların sualları cavablandırılıb.

## 10 iyul 2024

Türkiyənin Bursa Ticarət və Sənaye Palatasının nümayəndə heyəti və qida sektorunda fəaliyyət göstərən iş adamları ilə KOBİA-da görüş keçirilib. Görüşdə Azərbaycan və Türkiyə, o cümlədən Bursa iş adamları arasında əməkdaşlıq,



4

5






01 Azərbaycanda logistika və ticarətin təşviqi konfransı. 8 iyul 2024-cü il

02 "İƏT-ə üzv ölkələrdə KOB-ların yaşıl iqlim maliyyələşdirilməsi vasitəsilə gücləndirilməsi" mövzusunda seminar. 9 iyul 2024-cü il

03 Bursa Ticarət və Sənaye Palatası ilə görüş. 10 iyul 2024-cü il

04 Azərbaycan-Özbəkistanın Hökumətlərarası Komissiyanın iclası. 10 iyul 2024-cü il

05 İspaniya səfəri. 15-16 iyul 2024-cü il

birgə layihələrin reallaşdırılmasına hər iki qurumun dəstəyi, təcrübə mübadiləsi, qarşılıqlı investisiya qoyuluşunda KOB-ların rolunun artırılması və biznes missiyaların təşkili müzakirə edilib. Həmçinin görüşdə KOB-ların xarici ticarət fəaliyyətinin genişləndirilməsi, Bursa və yerli iş adamları arasında ticarət əlqələrinin artırılması və qida sektorunda fəaliyyət göstərən sahibkarlar arasında ixrac əməliyyatlarının genişləndirilməsinin təşviqinə dair fikir mübadiləsi aparılıb.

## 10 iyul 2024

Buxarada Azərbaycan – Özbəkistanın Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının 13-cü iclası keçirilib. Tədbirdəki çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Özbəkistanın sahibkarlıqla bağlı qurumları ilə əlaqələr, iş adamları arasında əməkdaşlığın inkişafı və KOBİA-nın bu sahədə dəstəyi barədə məlumat verib.

## 15-16 iyul 2024

KOBİA nümayəndələri İspaniyanın paytaxtı Madrid şəhərində səfərdə olublar. Azərbaycan Respublikasının İspaniya Krallığındakı Səfirliyinin dəstəyi ilə baş tutan səfər çərçivəsində KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ilə İspaniyanın Sənaye və Turizm Nazirliyinin Sənaye strategiyası və KOB-larla iş üzrə direktoru Jordi Qarsia Brustenga, Ticarət Palatasının nümayəndələri, Biznes Təşkilatları Konfederasiyasının Beynəlxalq əlaqələr komissiyasının prezidenti Marta Blanko, İspaniya İxrac və İnvestisiya Təşkilatının (ICEX) "Invest in Spain" bölməsi üzrə direktor müavini Jesus Rubiera və Startaplar və KOB-lar üçün Maliyyələşdirmə Agentliyinin (ENISA) İdarə Heyətinin sədri Borja Kabezon arasında görüşlər keçirilib. Görüşlərdə Azərbaycan və İspaniyanın işgüzar dairələri arasında əlaqələrin genişləndirilməsi və mümkün əməkdaşlıq imkanları, o cümlədən ticarət əlaqələri, investisiya qoyuluşu, iş adamlarının iştirakı ilə birgə layihələrin icrası, ortaq tədbirlərin təşkili, KOB-lara göstərilən dəstək tədbirləri üzrə qarşılıqlı məlumat və təcrübə mübadiləsi müzakirə edilib. Həmçinin görüşlər zamanı KOB-ların bacarıqlarının artırılması üzrə birgə təlim və digər proqramların həyata keçirilməsi, maliyyəyə çıxış, innovativ təşəbbüslərin dəstəklənməsi və Azərbaycanda startaplar üçün dəstək alətlərinə dair fikir mübadiləsi aparılıb.







## 20 iyul 2024

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov "British Council"ın ölkə üzrə direktoru Nərgiz Hacıyeva və Böyük Britaniyanın Ticarət Palatasının Azərbaycandakı İdarə Heyətinin sədri Con Patterson ilə görüşüb.

Görüşdə ölkəmizdə keçiriləcək COP29 tədbiri ərəfəsində KOB subyektlərinin yaşıl keçidinə dair birgə təşəbbüslər müzakirə edilib.

## 23 iyul 2024

KOBİA nümayəndələri ilə Azərbaycan-Qazaxıstan İşgüzar Şurasının həmsədrləri və Qazaxıstanın Azərbaycandakı Səfirliyinin nümayəndələri arasında görüş keçirilib. Görüşdə iş adamları arasında əlaqələrin təşviqi, şura çərçivəsində birgə tədbirlərin təşkil edilməsi və ticarət dövriyyəsinin artırılması məsələləri müzakirə edilib.

## 23 iyul 2024

KOBİA və Vyetnam Sahibkarlıq Milli Assosiasiyası (VINEN) arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində Azərbaycan və Vyetnam sahibkarları arasında əməkdaşlığın genişləndirilməsi, ticarət və investisiya sahəsində əlaqələrin inkişafına dəstək məqsədilə "Bakı KOB evi"ndə görüş keçirilib. Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı Səfirliyinin dəstəyi və KOBİA-nın təşkilatçılığı ilə keçirilmiş görüşdə Vyetnam və Azərbaycan iş adamları, eləcə də yerli biznes assosiasiyaların nümayəndələri iştirak ediblər. Tədbirdə Azərbaycanın Vyetnamdakı fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə, KOBİA-nın İdarə Heyətinin sədr müavini Rüfət Atakişiyev, VINEN-nin nümayəndəsi xanım Trinh Thi Thu Ha, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun icraçı direktorunun müşaviri Şəbnəm Allahverdiyeva, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyasının (AQİSA) sədri Emin Dostiyari çıxış ediblər. Çıxışlarda Azərbaycan və Vyetnam arasında müxtəlif sahələrdə əməkdaşlıq, iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün perspektivlər, ölkələrimizin biznes və investisiya mühiti, iş adamları arasında əməkdaşlıq və gələcəkdə birgə layihələrin həyata keçirilməsi üçün imkanlar barədə məlumat verilib. Tədbir çərçivəsində VINEN və AQİSA, "Canet" MMC və Vyetnam Aşpazlar Assosiasiyası




4






5




01 "British Council" ilə görüş. 20 iyul 2024-cü il

02 Azərbaycan-Qazaxıstan İşgüzar Şurasının həmsədrləri ilə görüş. 23 iyul 2024-cü il

03 Azərbaycan və Vyetnam sahibkarları arasında görüş. 23 iyul 2024-cü il

04 Vyetnam Sahibkarlıq Milli Assosiasiyası ilə görüş. 24 iyul 2024-cü il

05 Azərbaycan və Qətər şirkətləri arasında sazişin imzalanması. 25 iyul 2024-cü il

arasında əməkdaşlığa dair niyyət protokolları imzalanıb, Azərbaycan və Vyetnam iş adamları arasında birbaşa əlaqələrin qurulması üçün müzakirələr aparılıb.

## 24 iyul 2024

Vyetnam Sahibkarlıq Milli Assosiasiyasının (VINEN) nümayəndələri və KOBİA rəhbərliyi arasında görüş keçirilib. Görüşdə Azərbaycan nümayəndə heyətinin 2024-cü ilin mayında Vyetnama səfəri və səfər çərçivəsində KOBİA və VINEN arasında imzalanmış sənədin əməkdaşlığın genişlədirilməsində əhəmiyyəti qeyd edilib. Görüşdə hər iki ölkənin iş adamları arasında əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib, əməkdaşlıq üçün potensial sektorlar və gələcək birgə təşəbbüslər nəzərdən keçirilib.

## 25 iyul 2024

Azərbaycan sahibkarlarının Birləşmiş Ərəb Əmirliklərində təsis etdiyi "Green Capital Management" şirkəti və Qətərin "Al Baladi Holding"i arasında KOBİA-nın dəstəyi ilə strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Bakıda keçirilən "Qətər bütün dünya üçün" adlı tədbir çərçivəsində imzalanmış sənəd Azərbaycanda Qətər franşizalarının yaradılmasını, o cümlədən iki ölkənin işgüzar dairələri arasında ticarət əlaqələrinin genişləndirilməsini, potensial əməkdaşlıq imkanlarının inkişaf etdirilməsini, investisiya qoyuluşunu, qarşılıqlı layihələrin təşviqini nəzərdə tutur.

Tədbirdə çıxış edən "Al Baladi Holding"in icraçı direktoru Hany Al Sayyadi, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Respublikasının Qətər Dövlətindəki Səfirliyinin müşaviri Eldəniz Musayev ölkələrimiz arasında iqtisadi və işgüzar münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayıblar. Bildirilib ki, hər iki ölkə ticarət-iqtisadi əlaqələrin genişləndirilməsində maraqlıdır və bu gün imzalanan sənəd də bu istiqamətdə əlaqələri daha da intensivləşdirəcəkdir.




## 1 avqust 2024

Şuşada iqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marrinin həmsədrliyi ilə Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib.
İclasdakı çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov BƏƏ ilə işgüzar əməkdaşlığın genişləndirilməsi, Biznes Şura kimi birgə platformaların yaradılması, KOB-lar arasında əlaqələr barədə fikirlərini bölüşüb.

## 9 avqust 2024

KOBİA və Rusiya Birbaşa İnvestisiya Fondunun Baş direktorunun birinci müavini Azər Məmmədov arasında görüş keçirilib. Görüşdə Agentliyin və Rusiya Birbaşa İnvestisiya Fondunun dəstəyi ilə Azərbaycanın və Rusiyanın KOB subyektlərinin iştirakı ilə həyata keçirilməsi mümkün olan sosial və kommersiya layihələri barədə müzakirələr aparılıb.

## 12 avqust 2024

KOBİA nümayəndələri ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) Gürcüstan ofisinin nümayəndəsi S.Kobu arasında görüş keçirilib. Görüşdə KOBİA və JICA arasında institusional əməkdaşlıq, təşkilatın təcrübəsinə əsaslanaraq yerli KOB-lara və startaplara dəstəyə dair fikir mübadiləsi aparılıb.

## 16 avqust 2024

KOBİA-da "ACWA Power" şirkətinin Azərbaycan filialının baş icraçı direktoru Mehmet Səlim Güvənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə KOB subyektləri üçün "yaşıl enerji", sosial sahibkarlıq, ölkəmizə investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.


4


6


5


7

01 Azərbaycan-BƏƏ Hökumətlərarası Komissiyasının iclası. 1 avqust 2024-cü il

02 Rusiya Birbaşa İnvestisiya Fondu ilə görüş. 9 avqust 2024-cü il

03 JICA nümayəndələri ilə görüş. 12 avqust 2024-cü il

04 “ACWA Power” şirkəti ilə görüş. 16 avqust 2024-cü il

05 Türkiyə şirkəti ilə görüş. 23 avqust 2024-cü il

06 İtaliya-Azərbaycan dəyirmi masası. 5 sentyabr 2024-cü il

07 “Bank VTB” ilə görüş. 6 sentyabr 2024-cü il

## 23 avqust 2024

KOBİA nümayəndələri Türkiyənin “Yiğit Teknik Maden” şirkətinin İdarə Heyəti sədrinin müavini Yiğit Yılmaz ilə görüşüblər. Görüşdə şirkətin yerli KOB-larla əməkdaşlıq imkanlarına, bu sahədə KOBİA-nın əlaqələndirmə dəstəyinə və ölkəmizə investisiya qoyuluşu perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## 5 sentyabr 2024

Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfəri çərçivəsində İtaliyanın Müəssisələr və “Made in Italy” Nazirliyi, Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və İtaliya Sənaye Konfederasiyasının (“Confindustria”) birgə təşkilatçılığı ilə İtaliya – Azərbaycan dəyirmi masası keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, enerji sektoru, kimya sənayesi, avtomobil istehsalı, mühəndislik, əczaçılıq, kənd təsərrüfatı, metallurgiya, tikinti, qida və digər sahələrdə fəaliyyət göstərən 40-a yaxın sahibkar iştirak edib.

Dəyirmi masada KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov işgüzar dairələr arasında fəaliyyət istiqamətləri və perspektivlər, prioritet sektorlarda əməkdaşlığın gücləndirilməsi barədə fikirlərini bölüşüb.

## 6 sentyabr 2024

KOBİA nümayəndələri və “Bank VTB”nin (Azərbaycan) İdarə Heyətinin sədri İqor Okayev arasında görüş keçirilib. Görüşdə KOB-ların layihələrinin maliyyələşdirilməsi məsələlərinə, o cümlədən KOB-lara maliyyə dəstəyinin göstərilməsi, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, bankın biznes fəaliyyətinin inkişafına yönəlik dəstək alətləri və əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

1





2




## 10 sentyabr 2024

Bakıda səfərdə olan Dünya İqlim Fondunun icraçı direktoru Cens Nilsen və KOBİA nümayəndələri arasında görüş keçirilib. Görüşdə "yaşıl iqtisadiyyat"a keçid və qlobal iqlim dəyişiklikləri ilə mübarizə sahəsində KOB-ların rolu, bu sahədə beynəlxalq təşkilatlar, o cümlədən Dünya İqlim Fondu ilə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb. Həmçinin tədbirdə KOBİA-nın təşkilatçılığı ilə sentyabrın 9-da Bakıda keçirilmiş "Yaşıl iqtisadiyyatda KOB-ların rolu" mövzusunda Konfransın bu sahədə əhəmiyyətinə toxunulub, belə tədbirlərin KOB-ların məlumatlandırılması və onlarla müzakirələrin aparılması baxımından önəmli olduğu vurğulanıb.

## 14 sentyabr 2024

Azərbaycanda səfərdə olan 20-yə yaxın ukraynalı iş adamı yerli sahibkarlar və biznes assosiasiyaların nümayəndələri ilə görüşüb. "Bakı KOB evi"ndə təşkil olunmuş tədbirdə Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev, "CEO Club London"-nun prezidenti Sergey Qaydaçuk, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov iştirak ediblər. Görüşdə ölkəmizdə biznes və investisiya qoyuluşu imkanları, sahibkarlara göstərilən dəstək tədbirləri və iş adamları arasında əməkdaşlıq perspektivləri barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb. Tədbir çərçivəsində Azərbaycan və Ukrayna sahibkarları arasında "B2B" görüşlər də keçirilib.

## 16 sentyabr 2024

Azərbaycanın İqtisadiyyat Nazirliyi, Pakistanın Ticarət Nazirliyinin dəstəyi, AZPROMO və Pakistanın Ticarətin İnkişafı İdarəsinin birgə təşkilatçılığı ilə Bakıda Azərbaycan-Pakistan biznes forumu keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, əczaçılıq, tekstil, sənaye və digər sahələrdə fəaliyyət göstərən 90-a yaxın sahibkar iştirak edib.






3



4



5

01 Dünya İqlim Fondu ilə görüş. 10 sentyabr 2024-cü il

02 Azərbaycan və Ukrayna sahibkarları arasında görüş. 14 sentyabr 2024-cü il

03 Azərbaycan-Pakistan biznes forumu. 16 sentyabr 2024-cü il

04 İraq Ticarət Palataları Federasiyası ilə görüş. 16 sentyabr 2024-cü il

05 AQEM-in İşgüzar Şurasının onlayn iclası. 17 sentyabr 2024-cü il

Forumdakı çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində reallaşdırılan tədbirləri, bu sahədə Agentliyin fəaliyyətini, eləcə də KOB sahəsində Pakistanın müvafiq qurumları və sahibkarlıq subyektləri ilə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

## 16 sentyabr 2024

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İraq Ticarət Palatalar Federasiyasının prezidenti Abdulrazaq Al-Zuheyri arasında görüş keçirilib. Görüşdə iki ölkə arasında ticarət əlaqələrinin gücləndirilməsi, investisiya qoyuluşunun artırılması və əməkdaşlıq üçün yeni imkanların araşdırılması barədə müzakirələr aparılıb.

## 17 sentyabr 2024

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) yanında İşgüzar Şuraya 2025-2026-cı illərdə KOBİA sədrlik edəcək. AQEM-in İşgüzar Şurasının onlayn formatda keçirilmiş iclasında KOBİA nümayəndələri də iştirak ediblər. İclasda KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov 2025-2026-cı illərdə AQEM-ə Azərbaycanın sədrliyi dövründə İşgüzar Şuranın gündəliyinə dair fikirlərini bölüşüb. Qeyd edilib ki, KOBİA-nın İşgüzar Şuraya sədrliyi dövründə iştirakçı ölkələrin işgüzar dairələri arasında əməkdaşlığın daha da gücləndirilməsi, qarşılıqlı fəaliyyət üçün yeni imkanların araşdırılması, kiçik və orta biznesin inkişafına dəstək məsələləri diqqət mərkəzində olacaq. İclasda cari məsələlərlə yanaşı, İşgüzar Şuranın iclasının və biznes forumun keçirilməsinə dair də fikir mübadiləsi aparılıb. Qeyd edək ki, AQEM-in bu il mart ayında qəbul etdiyi qərarla Azərbaycan 2025-2026-cı illər üzrə təşkilatın sədri seçilib. Hazırda təşkilatın 28 üzvü var.










1



2

## 17 sentyabr 2024

Bakıda İqtisadiyyat Nazirliyi və İraqın Ticarət Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və İraqın Ticarət Palataları Federasiyasının birgə təşkilatçılığı ilə Azərbaycan-İraq biznes forumu keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, qida, logistika, tikinti, konsaltinq, gəmiçilik və s. sahələrdə fəaliyyət göstərən 100-ə yaxın iş adamı iştirak edib.
KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov forumdakı çıxışında ölkəmizdə KOB-ların inkişafı, bu sahədə görülən tədbirlər, Agentliyin fəaliyyətini, eləcə də KOB sahəsində İraqın müvafiq qurumları və sahibkarlıq subyektləri ilə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.
Forum çərçivəsində KOBİA ilə İraq Ticarət Palataları Federasiyası arasında Azərbaycan - İraq Biznes Şurasının yaradılması haqqında razılaşma sənədi imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İraq Ticarət Palatalar Federasiyasının prezidenti Abdulrazaq Al-Zuheyri imzalayıblar. Hər iki ölkədən biznes nümayəndələrinin təmsil olunacağı Biznes Şura sahibkarların təşəbbüslərini dəstəkləyəcək, onlar arasında birbaşa əlaqələrin qurulmasına, qarşılıqlı səfərlərin, görüşlərin və müxtəlif tədbirlərin təşkilinə kömək edəcək, iş adamları arasında informasiya mübadiləsini həyata keçirəcəkdir.

## 18 sentyabr 2024

KOBİA-da Avropa Mühasiblər və Auditorlar Federasiyasının prezidenti Salvador Marin ilə görüş keçirilib. Görüşdə KOB-ların dəstəklənməsi, maliyyə hesabatı standartlarının təkmilləşdirilməsi və şəffaflığın artırılması üzrə fikir mübadiləsi aparılıb.

## 19-25 sentyabr 2024

KOBİA nümayəndələri ABŞ-də səfərdə olublar. Azərbaycanın ABŞ-dəki səfirliyinin dəstəyi ilə baş tutan səfər çərçivəsində KOBİA-nın nümayəndələri Vaşinqton və Nyu-York şəhərlərində kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlığa dair bir sıra görüşlər keçirib, müxtəlif tədbirlərdə iştirak ediblər. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədovun Vaşinqtonda ABŞ Ticarət Palatasının Yaxın Şərq, Türkiyə və Mərkəzi Asiya üzrə vitse-prezidenti Cenifer Mil, Kiçik Biznes üzrə Beynəlxalq Şuranın prezidenti Ayman El Tarabişi, ABŞ-nin Kiçik Biznes üzrə Administrasiyasının Kiçik Biznesin İnkişafı Mərkəzləri üzrə köməkçi Brüs Purdi, Qlobal Sahibkarlıq Şəbəkəsinin prezidenti Conatan Ortmans, Nyu-Yorkda BMT-nin İqlim Dəyişikliyi Təsirlərin Azaldılması Departamentinin rəhbəri Ceyms Qrabert və BMT-nin Cənub-Cənub











01 Azərbaycan-İraq biznes forumu. 17 sentyabr 2024-cü il

02 Avropa Mühasiblər və Auditorlar Federasiyası ilə görüş. 18 sentyabr 2024-cü il

03 ABŞ-yə səfər çərçivəsində tədbirlərdə iştirak və keçirilmiş görüşlər. 19-25 sentyabr 2024-cü il

əməkdaşlıq ofisinin direktoru Dima Əl-Xatib ilə görüşlərində KOB-lar arasında əməkdaşlığın inkişafı, qarşılıqlı biznes missiyaların təşkili, sahibkarların bilik və bacarıqlarının artırılması və bu sahədə KOBİA ilə birgə addımlar, KOB-lar üçün yaşıl keçidin əhəmiyyətinə dair fikir mübadiləsi aparılıb.

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay ilə Nyu-Yorkda keçirilmiş görüşdə isə qarşıdakı illərdə KOBİA-nın qurumdakı İşgüzar Şuraya sədrliyinə dair məsələlər müzakirə olunub.

Vaşinqtonda Azərbaycanın ABŞ-dəki Səfirliyi, Vaşinqton Hökumətlərarası Peşəkar Qrupu və Dünya Ticarət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş Azərbaycanda ABŞ şirkətləri üçün investisiya imkanlarına dair görüşdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizin əlverişli biznes və investisiya mühiti, işğaldan azad olunmuş Azərbaycan ərazilərinin potensialı, KOB-ların fəaliyyəti, sahibkarlara dəstək tədbirləri və əməkdaşlıq imkanları barədə məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Nyu-York İqlim Həftəsi çərçivəsində BMT-nin təşkilatçılığı ilə keçirilmiş "Hamı üçün hərəkətə ilham vermək: KOB-lar və təsir yaradanların iqlim liderliyinin nümayişi" mövzusunda tədbirdə KOBİA sədri KOB-ların iqlim dəyişiklikləri ilə mübarizəyə verə biləcəyi töhfə barədə fikirlərini bölüşüb, iştirakçıları KOB-ların yaşıl keçidinin asanlaşdırılmasına dəstək üçün Agentliyin irəli sürdüyü qlobal təşəbbüsə qoşulmağa dəvət edib.

KOBİA nümayəndələri həmçinin ABŞ Ticarət Palatasının "COP Troika" dəyirmi masasında da iştirak ediblər. KOBİA nümayəndələri Nyu-Yorkda BMT-nin Qlobal Sazişinin "Liderlər Zirvəsi 2024" tədbirində də iştirak ediblər. Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin Qlobal Sazişin üzvü olduğunu qeyd edib, KOB-ların qlobal iqtisadiyyat və məşğulluqla yanaşı, ekoloji və sosial inkişafda rolu, Azərbaycanda KOB-lara göstərilən dəstək tədbirləri barədə məlumat verib, KOB-ların davamlı inkişafı üçün təşkilatın SPARK təşəbbüsünü dəstəklədiyi bildirilib.

Nyu-Yorkda keçirilmiş "5-ci Xəzər Biznes Forumu"nda isə KOBİA tərəfindən Azərbaycanda biznes və investisiya imkanları, KOB-lara dəstək tədbirləri və onların yaşıl keçidə töhfəsi, ölkəmizə, xüsusilə də işğaldan azad edilmiş Qarabağa investisiya qoyuluşu imkanları barədə məlumat verilib.










## 28 sentyabr 2024

KOBİA nümayəndələri Körfəz Əməkdaşlıq Şurası ölkələrinin Ticarət Palataları Federasiyasının və Oman Ticarət Palatasının sədri Faisal Əl Ravas, Bəhreyn Ticarət və Sənaye Palatasının sədri Samir Nas və Əcman Ticarət və Sənaye Palatasının İdarə Heyətinin üzvü Amna Əli arasında görüşlər keçirilib. Görüşlərdə Azərbaycan və Körfəz Əməkdaşlıq Şurası ölkələri arasında biznes əməkdaşlığının gücləndirilməsi məsələləri müzakirə edilib, Körfəz ölkələrində Azərbaycanın ticarət evləri və işgüzar şuralar çərçivəsində əlaqələrin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## 30 sentyabr 2024

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri Əhməd Əl Dakhil arasında görüş keçirilib. Görüşdə KOBİA-nın koordinasiyası ilə şura çərçivəsində Azərbaycanın və Səudiyyə Ərəbistanın KOB-ları arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb.

## 1 oktyabr 2024

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Səudiyyə Ərəbistanı Ticarət və Sənaye Palataları Federasiyasının sədri Həsən Əl-Huvaizi arasında görüş keçirilib. Görüşdə mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsinə və əməkdaşlıq üçün yeni imkanlara dair müzakirələr aparılıb.

## 2 oktyabr 2024

KOBİA-da Ukrayna Ticarət Palatasının prezidenti Gennadi Çijikov ilə görüş keçirilib. Görüşdə əməkdaşlıq üçün yeni imkanlara, ölkələrimiz arasında işgüzar əlaqələrin gücləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Ukrayna Ticarət Palatasının nümayəndələri "Bakı KOB evi"nin fəaliyyəti ilə də tanış olublar.

## 3 oktyabr 2024

Rusiyanın tikinti sektorunda fəaliyyət göstərən şirkətlərinin ölkəmizə işgüzar missiyası təşkil olunub. Səfər çərçivəsində Rusiya İxrac Mərkəzinin təşkilatçılığı, Azərbaycan və Rusiya şirkətlərinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin yerli və xarici şirkətlər arasında əlaqələrin qurulması və inkişafına, birgə layihələrin icrasına dəstəyi barədə məlumat verib.



5



7



6



8

01 Körfəz Əməkdaşlıq Şurası ölkələrinin nümayəndələri ilə görüşlər. 28 sentyabr 2024-cü il

02 Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri ilə görüş. 30 sentyabr 2024-cü il

03 Səudiyyə Ərəbistanı Ticarət və Sənaye Palataları Federasiyası ilə görüş. 1 oktyabr 2024-cü il

04 Ukrayna Ticarət Palatasının prezidenti ilə görüş. 2 oktyabr 2024-cü il

05 Rusiya işgüzar missiyası ilə görüş. 3 oktyabr 2024-cü il

06 Dünya İqlim Fondu ilə görüş. 5 oktyabr 2024-cü il

07 SMIIC, SESRİC və Özbəkistanın Sahibkarlığın İnkişafı Agentliyi ilə görüşlər. 8 oktyabr 2024-cü il

08 AZHAB Forumunun iştirakçıları ilə görüş. 9 oktyabr 2024-cü il

## 5 oktyabr 2024

Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində KOBİA-nın İdarə heyətinin sədri Orxan Məmmədov və Dünya İqlim Fondunun İdarə Heyətinin sədri Cens Nilsen arasında görüş keçirilib. Görüşdə KOB-ların yaşıl keçidi, bu sahədə Agentliyin KOB-lara göstərə biləcəyi dəstək, eləcə də iqlim dəyişiklikləri ilə mübarizə tədbirləri və KOB-ların yaşıl keçidi istiqamətlərində dövlət-biznes əməkdaşlığı imkanları barədə fikir mübadiləsi aparılıb.

## 8 oktyabr 2024

KOBİA-da Azərbaycan Halal Biznes və Turizm Forumunun (AZHAB Forum) bir qrup iştirakçısı ilə görüşlər keçirilib. İslam Ölkələrinin Standartlar və Metrologiya İnstitutunun (SMIIC) Baş katibi İhsan Övüt, İqtisadi və Sosial Araşdırmalar və Təlim Mərkəzinin (SESRIC) Baş direktoru Zehra Zümrüt Selçuk, Özbəkistanın Sahibkarlığın İnkişafı Agentliyinin direktorunun birinci müavini Muxtor Şonazarov ilə keçirilmiş görüşlərdə sahibkarlığın təşviqi, halal standartlarının tətbiqi və qurumlar arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.

## 9 oktyabr 2024

Azərbaycan Halal Biznes və Turizm Forumunda (AZHAB Forum) iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan nümayəndə heyətləri ilə KOBİA-da görüşlər keçirilib. İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin iqtisadi məsələlər üzrə köməkçisi Ahmad Kavesa Sengendo, İslam Biznesi Beynəlxalq Assambleyasının prezidenti Marat Kabayev, Ərəb-Braziliya Ticarət Palatasının İnstitusional əlaqələr üzrə direktoru Fernanda Baltazar və Malayziyanın Baş nazirlik və Senatının nümayəndələrindən ibarət heyətlə görüşlərdə gələcək əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb, qonaqlar AZHAB Forumu ilə bağlı təəssüratlarını bölüşüblər.





1






2

## 15 oktyabr 2024

İstanbulda keçirilən Dünya Palatalar Federasiyasının Avropa və Asiya Sammitində iştirak məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri Türkiyədə səfərdə olub. "İqlim fəaliyyətinə birgə yanaşma" mövzusuna həsr olunmuş tədbir palata rəhbərləri, ekspertlər, dövlət və özəl sektorun təmsilçiləri ilə bir araya gəlməklə əməkdaşlıq vasitəsilə effektiv iqlim fəaliyyətinə dair yeni yolları müzakirə etmək məqsədilə təşkil olunub.
KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov sammitin açılışında və tədbir çərçivəsində keçirilən Türk Ticarət və Sənaye Palataları Birliyinin görüşündə iştirak edib. "KOB-lar və iqlim uyğunlaşması: problemlər və imkanlar" mövzusunda paneldəki çıxışında KOBİA sədri KOB-ların iqlim dəyişiklikləri ilə mübarizəyə verə biləcəyi töhfə, yaşıl keçidlə bağlı onların qarşılaşdıqları çətinliklər və ehtiyacları barədə fikirlərini bölüşüb, iştirakçıları KOB-ların yaşıl keçidinin asanlaşdırılmasına dəstək üçün Agentliyin irəli sürdüyü qlobal təşəbbüsə qoşulmağa dəvət edib.
Sammit çərçivəsində KOBİA nümayəndələri Ərəb Palataları İttifaqının Baş katibi Xalid Hənəfi, Keniya Milli Ticarət və Sənaye Palatasının prezidenti Erik Rutto, Qətər Beynəlxalq Ticarət Palatasının sədri Şeyx Xəlifə Əl Tani, İordaniya Ticarət və Sənaye Palatasının sədri Xəlil Məhəmməd Əl-Hac Tövfiq və Beynəlxalq Ticarət Palatasının Baş katibi Con Denton ilə görüşüb. Görüşlərdə yerli KOB-lar ilə müvafiq ölkələrin sahibkarları arasında əlaqələrin qurulması və inkişaf etdirilməsinə, bu istiqamətdə qarşılıqlı biznes missiyaların təşkilinə, rəqəmsal transformasiya və yaşıl keçidlə bağlı KOB-ların çətinliklərinə, rəqəmsal ticarət və KOB-ların bazarlara çıxışı, onların imkanlarını artırmaq üçün birgə təlim proqramları və digər şəbəkələşmə tədbirləri, əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

## 16 oktyabr 2024

İtaliyanın Roma şəhərində Kiçik və Orta Müəssisələr üçün Beynəlxalq Şəbəkənin (INSME) təşkilatçılığı ilə INSME-nin İllik Toplantısı keçirilib. INSME-nin 20 illik yubileyinə həsr olunmuş builki tədbir "KOB-lar üçün davamlı maliyyənin açılması" mövzusuna həsr olunub. Toplantıda INSME-yə üzv təşkilatlar, o cümlədən KOBİA nümayəndələri iştirak ediblər.
Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədovun videomüraciəti yayımlanıb. O, KOB-ların yaşıl transformasiyasının qlobal və milli səviyyədə birgə əməkdaşlıqla mümkün olduğunu bildirib, maraqlı tərəfləri KOBİA-

3





4



01 Türkiyəyə səfər çərçivəsində tədbirlərdə iştirak və görüşlər. 15 oktyabr 2024-cü il

02 INSME-nin İllik Toplantısında iştirak. 16 oktyabr 2024-cü il

03 Çin şirkəti ilə görüş. 17 oktyabr 2024-cü il

04 Omana səfər. 20 oktyabr 2024-cü il

nın irəli sürdüyü "KOB-ların yaşıl iqlim keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi"nə qoşulmağa dəvət edib.
Toplantı çərçivəsində müxtəlif panel müzakirələr də təşkil olunub. KOBİA-nın İdarə Heyəti sədrinin müavini Rüfət Atakişiyev "Dəstəkləyici siyasətlər və ESG qaydaları" mövzusuna həsr olunmuş paneldə ESG (Ekoloji, sosial və korporativ idarəetmə) prinsiplərinin tətbiqinin KOB-lar üçün önəmi, Agentliyinin bu sahədə fəaliyyəti barədə məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

## 17 oktyabr 2024

KOBİA-da Çin Xalq Respublikasının "Hongxiang Zhongshi Group LTD" şirkətinin nümayəndələri ilə görüş keçirilib. Görüş çərçivəsində ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə təqdimat təşkil olunub. Eyni zamanda ölkəmizdə KOB subyektlərinə dəstək tədbirləri barədə məlumat verilib, şirkət təmsilçilərinin sualları cavablandırılıb.

## 20 oktyabr 2024

KOB sahəsində əməkdaşlıq imkanlarını müzakirə etmək və 5-ci Duqum Forumunda iştirak məqsədilə KOBİA nümayəndələri Omanda səfərdə olublar. Agentlik nümayəndələri Maskat şəhərində KOB İnkişaf Fondunun sədri Salim Əl Zəvəvi və KOB İnkişaf İdarəsinin vitse-prezidenti Qais Əl Toubi ilə görüşüb. Görüşlərdə sahibkarlığın inkişafı sahəsində Azərbaycan və Oman arasında əməkdaşlıq, o cümlədən KOB-ların imkanlarını artırmaq üçün birgə təlim proqramlarının təşkili, hər iki regiondan biznesləri birləşdirəcək şəbəkələşmə tədbirlərinin keçirilməsi, ticarət missiyalarının təşkili müzakirə edilib, KOB-lara dəstək sahəsində qarşılıqlı təcrübə mübadiləsi aparılıb.
Səfər çərçivəsində KOBİA nümayəndələri 5-ci Duqum Forumuna qatılıblar. Forumun "Qlobal texnologiya və təcrübələrin investisiyaları mavi iqtisadiyyata təşviq etməsi" mövzusunda panel müzakirədə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov KOB-lar üçün mavi iqtisadiyyatdakı imkanlar, KOBİA-nın fəaliyyəti barədə məlumat verib.












## 21 oktyabr 2024

KOBİA nümayəndələri Qətərdə səfərdə olublar. Doha şəhərində KOBİA və Qətər Ticarət və Sənaye Palatasının təşkilatçılığı, “Marsol Group” və İş adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) dəstəyi, Azərbaycan və Qətərdən olan 60-dan çox iş adamının iştirakı ilə dəyirmi masa təşkil olunub. Tədbirdə Azərbaycan və Qətərin sənaye, turizm, xidmət, İKT və s. sektorlarında fəaliyyət göstərən 60-dan çox iş adamı iştirak edib. Dəyirmi masada çıxış edən Qətər Ticarət və Sənaye Palatasının sədr müavini Rəşid bin Hamad Əl-Əthba, Azərbaycan Respublikasının Qətər dövlətində fövqəladə və səlahiyyətli səfiri Mahir Əliyev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri, sahibkarlıq sahəsində əməkdaşlıq, işgüzar əlaqələrin genişləndirilməsi imkanları, iş adamlarının iştirakı ilə birgə təşəbbüslərin reallaşdırılması perspektivləri barədə fikirlərini bölüşüblər. Tədbir çərçivəsində Azərbaycan və Qətər iş adamları arasında “B2B” görüşlər keçirilib, əməkdaşlıq imkanları müzakirə edilib.

Səfər çərçivəsində həmçinin KOBİA nümayəndələri Qətər İnkişaf Bankının tabeliyində Qətər İxracın İnkişafı, Maliyyə və Təşviq Agentliyinin (Tasdeer) icraçı direktoru Xalid Abdulla Əl Mana və Qətər İş Adamları Assosiasiyasının Baş direktoru Sara Abdallah ilə görüşüb. Görüşlərdə Azərbaycan və Qətər sahibkarları arasında mövcud əməkdaşlıq, biznes əlaqələrinin genişləndirilməsi imkanları, hər iki ölkənin KOB-ları arasında əlaqələrin daha da genişləndirilməsi məqsədilə KOBİA və müvafiq qurumlar arasında münasibətlərin inkişafı məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Səfər zamanı KOBİA və Azərbaycan sahibkarları arasında görüş keçirilib. Görüşdə Körfəz ölkələri ilə işgüzar əməkdaşlığın genişləndirilməsi və ticarət əlaqələri ilə bağlı müzakirələr aparılıb.

## 24 oktyabr 2024

KOBİA-da Vyetnamın Baknin vilayətinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Azərbaycan və Vyetnam arasında inkişaf edən işgüzar münasibətlər, ticarət, investisiya və innovasiya sahələrində əməkdaşlıq imkanları müzakirə edilib.













01 Qətərə səfər. 21 oktyabr 2024-cü il

02 Vyetnam nümayəndə heyəti ilə görüş.
24 oktyabr 2024-cü il

03 Türk Dövlətləri Təşkilatının Nazirlər Toplantısı çərçivəsində
işçi qrupu səviyyəsində müzakirə. 26 oktyabr 2024

04 BƏƏ-nin Ticarət Mərkəzi ilə görüş. 31 oktyabr 2024-cü il

05 Almaniya şirkəti ilə görüş. 2 noyabr 2024-cü il

06 Türkiyə şirkəti ilə görüş. 4 noyabr 2024-cü il

07 Çin şirkəti ilə görüş. 7 noyabr 2024-cü il

## 26 oktyabr 2024

İstanbulda Türk Dövlətləri Təşkilatının Sənaye, Elm, Texnologiyalar və İnnovasiyalar Nazirlərinin 1-ci Toplantısı keçirilib. Toplantı çərçivəsində işçi qrupu səviyyəsində təşkil olunmuş tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov KOB-ların dəstəklənməsi tədbirləri, bu sahədə Agentliyin fəaliyyəti barədə məlumat verib.

## 31 oktyabr 2024

KOBİA-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Ticarət Mərkəzinin baş direktoru Valid Əl Falahi ilə görüş keçirilib. Görüşdə yerli KOB-ların xarici bazarlara çıxışı, ticarət əlaqələrin genişləndirilməsi, eləcə də bu sahədə mərkəzlə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

## 2 noyabr 2024

KOBİA nümayəndələri və Almaniyanın “Tauber İnternational İnvest GMBH” şirkətinin səlahiyyətli nümayəndəsi Tobias Bauman arasında görüş keçirilib. Hər iki qurumun nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə ölkəmizə investisiya qoyuluşu imkanlarına, bu istiqamətdə potensial sektorlara və yerli biznes subyektləri ilə şirkətin əlaqələndirilməsinə dair fikir mübadiləsi aparılıb.

## 4 noyabr 2024

KOBİA-da Türkiyənin texnologiya şirkəti “ASELSAN”ın Bakı nümayəndəliyinin direktoru Özgür Kürüm arasında görüş keçirilib. Görüşdə yerli KOB-ların fəaliyyətlərində İKT-nin imkanlarından istifadə etməsinə, bu sahədə təlim proqramının həyata keçirilməsinə və texnoloji startaplara birgə dəstəyə dair fikir mübadiləsi aparılıb.

## 7 noyabr 2024

KOBİA-da Çinin “FiberHome Telecom” şirkətinin heyəti ilə görüş keçirilib. Görüşdə Azərbaycanda ağıllı infrastruktur və rəqəmsal innovasiyaların inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.



1





2




3

## 11 noyabr 2024

COP29-da iştirak etmək üçün Azərbaycanda səfərdə olan Beynəlxalq Ticarət Mərkəzinin (ITC) nümayəndələri "Bakı KOB evi"ndə olublar. KOBİA və "Bakı KOB evi"nin nümayəndələri tərəfindən ITC-nin nümayəndələrinə sahibkarlara vahid məkanda xidmət mərkəzi olan KOB evinin fəaliyyəti barədə məlumat verilib. Qeyd edilib ki, KOB evi modeli biznes sahəsində dünyanın qabaqcıl innovativ təşəbbüsləri sırasında yer alır. ITC-nin nümayəndə heyəti tərəfindən "Bakı KOB evi"nin fəaliyyəti maraqla qarşılanıb, KOB-lara dəstək sahəsində unikal modellərdən olduğu qeyd edilib. KOB evi ilə tanışlıq zamanı həmçinin qonaqları maraqlandıran suallar cavablandırılıb.

## 13 noyabr 2024

Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 çərçivəsində KOBİA nümayəndələri KOB-ların yaşıl keçidinə dair bir sıra tədbir və panel müzakirələrdə iştirak ediblər. Qazaxıstanın DAMU Sahibkarlığın İnkişafı Fondunun təşkilatçılığı ilə keçirilmiş yaşıl maliyyələşdirmə ilə bağlı panel müzakirədə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) çərçivəsində KOB-lara dəstəyi, KOB-ların yaşıl keçidi istiqamətində qurumun fəaliyyəti barədə fikirlərini bölüşüb.

## 14 noyabr 2024

COP29 çərçivəsində "Kapital Bank" ASC-nin təşkil etdiyi "Azərbaycanda dayanıqlı KOB mənzərəsi" mövzusunda panel müzakirədə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkənin davamlı və yaşıl inkişafının təmin olunmasında KOB-ların rolu və KOBİA-nın dəstəyi barədə sualları cavablandırıb.

## 14 noyabr 2024

Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 çərçivəsində KOBİA və Bolqarıstan Respublikasının "Invest Bulgaria" Agentliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və "Invest Bulgaria" Agentliyinin İcraçı direktoru Mila Nenova Tsoneva imzalayıblar.


4



6


5



7

01 ITC nümayəndələrinin “Bakı KOB evi”ni ziyarəti. 11 noyabr 2024-cü il

02 Yaşıl maliyyələşdirməyə dair panel müzakirə. 13 noyabr 2024-cü il

03 “Azərbaycanda dayanıqlı KOB mənzərəsi”nə dair panel müzakirə. 14 noyabr 2024-cü il

04 KOBİA və “Invest Bulgaria” Agentliyinin Memorandum imzalaması. 14 noyabr 2024-cü il

05 Braziliya nümayəndə heyəti ilə görüş. 15 noyabr 2024-cü il

06 “Afrikada dayanıqlı ticarət” mövzusunda tədbir. 15 noyabr 2024-cü il

07 Qana İnvestisiyaların Təşviqi Mərkəzi ilə görüş. 16 noyabr 2024-cü il

Memorandumda ticarət və investisiya imkanları, biznesyönümlü tədbirlər barədə qarşılıqlı məlumat mübadiləsi, KOB-lar arasında əlaqələrin genişləndirilməsi üçün müxtəlif əməkdaşlıq formalarının yaradılmasının təşviqi və mövcud platformaların inkişaf etdirilməsi, dövlət-özəl tərəfdaşlığı üzrə layihə və proqramlar çərçivəsində əməkdaşlıq və bu sahədə imkanların araşdırılması kimi məsələlər nəzərdə tutulur.

İmzalanma mərasimində Bolqarıstanın innovasiya və inkişaf naziri Rosen Karadimov da iştirak edib. Tədbir çərçivəsində nazir Rosen Karadimov və KOBİA nümayəndələri arasında əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi də aparılıb.

## 15 noyabr 2024

COP29 çərçivəsində KOBİA nümayəndələri Braziliyanın Sahibkarlıq, Mikro Müəssisə və Kiçik Biznes Nazirliyinin də olduğu nümayəndə heyəti ilə görüşüb. Görüşdə KOB-ların yaşıl təşəbbüslərinə dair fikir mübadiləsi aparılıb.

## 15 noyabr 2024

COP29 çərçivəsində “Afrikada dayanıqlı ticarət”ə dair tədbir təşkil edilib. Tədbirdə çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ticarətin ətraf mühitin qorunması və rifahın təmin olunması baxımından önəmini qeyd edib, yaşıl iqtisadi yanaşmalara və təşəbbüslərə dair fikirlərini bölüşüb.

## 16 noyabr 2024

COP29 çərçivəsində KOBİA və Qana İnvestisiyaların Təşviqi Mərkəzinin baş direktoru Yofi Qrant arasında görüş keçirilib. Görüşdə regionlar arasında işgüzar əməkdaşlıq üçün praktiki yolların araşdırılması üzrə fikir mübadiləsi aparılıb.













## 16 noyabr 2024

COP29 çərçivəsində "Ədalətli keçidin və dayanıqlı yaşıl iqtisadiyyatın hərəkətverici qüvvəsi kimi KOB-lara dair yüksək səviyyəli çoxtərəfli dəyirmi masa"da KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov KOB-ların yaşıl keçidi ilə bağlı qlobal əməkdaşlığı nəzərdə tutan "KOB-ların yaşıl iqlim keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi" çərçivəsində görüləcək tədbirlər və əməkdaşlıq planları barədə məlumat verib.

## 16 noyabr 2024

BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) təşkilatçılığı ilə COP29 çərçivəsində "Dairəvi iqtisadiyyat: resurs effektivliyi və dairəvi biznes təcrübələrindən istifadə etməklə iqlim hədəflərinə nail olunması" mövzusunda tədbir keçirilib. Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov dairəvi iqtisadiyyatın biznes, xüsusilə də KOB-lar üçün faydası, bu sahədə KOBİA-nın "EU4Environment" təşəbbüsü çərçivəsində həyata keçirdiyi tədbirlər barədə fikirlərini bölüşüb.

## 18 noyabr 2024

COP29 çərçivəsində "Yaşıl transformasiya" mövzusunda Alman-Azərbaycan Yüksək Səviyyəli Biznes Dialoqu tədbirində KOBİA tərəfindən ölkəmizdə "yaşıl iqtisadiyyat"a keçid, bu sahədə KOB-lardan gözləntilər, KOBİA-nın biznesin yaşıl keçidinə dəstək alətləri barədə məlumat verilib.

## 18 noyabr 2024

KOBİA nümayəndələri COP29 çərçivəsində İsveçin qida və içki məhsullarını uzun müddət saxlanıla bilən qablaşdırma texnologiyasını inkişaf etdirən və tətbiq edən "Tetra Pak" şirkətinin vitse-prezidenti Çarls Brand ilə görüşüb. Görüşdə Azərbaycanda müvafiq istiqamətdə potensial



5




7



6




01 KOB-lara dair yüksək səviyyəli dəyirmi masa. 16 noyabr 2024-cü il

02 Dairəvi iqtisadiyyatla bağlı tədbir. 16 noyabr 2024-cü il

03 “Yaşıl transformasiya” mövzusunda Alman-Azərbaycan Yüksək Səviyyəli Biznes Dialoqu. 18 noyabr 2024-cü il

04 İsveçin “Tetra Pak” şirkəti ilə görüş. 18 noyabr 2024-cü il

05 Özbəkistanın Məşğulluq və Yoxsulluğun Azaldılması Nazirliyinin nümayəndələri ilə görüş. 18 noyabr 2024-cü il

06 Misirin Ağıllı Yaşıl Layihələr üzrə Milli Təşəbbüs heyəti ilə görüş. 18 noyabr 2024-cü il

07 “Davamlı üfüqlər: Azərbaycanın qida və içki sənayesində innovasiyalar” mövzusunda tədbir. 19 noyabr 2024-cü il

təşəbbüslər və yerli KOB-ların bu layihələrdə iştirakı məsələləri müzakirə edilib.

## 18 noyabr 2024

KOBİA nümayəndələri COP29 çərçivəsində Özbəkistanın məşğulluq və yoxsulluğun azaldılması nazirinin müavini Rəno Turdiboyeva ilə görüşüb. Görüşdə bu ölkənin sahibkarlara dəstək və xidmət göstərən qurumları ilə əlaqələrə, eləcə də əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## 18 noyabr 2024

“Bakı KOB evi”ndə KOBİA və COP29 çərçivəsində Azərbaycanda səfərdə olan Misirin Ağıllı Yaşıl Layihələr üzrə Milli Təşəbbüsünün nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə KOBİA tərəfindən Agentliyin KOB subyektlərinə göstərdiyi dəstək və xidmətlər, eləcə də KOBİA-nın fəaliyyəti, dayanıqlı və innovativ sahibkarlıq, yaşıl KOB-larla bağlı əməkdaşlıq imkanlarına dair məlumat verilib. Həmçinin görüş zamanı Misir nümayəndə heyətinin Azərbaycanda sahibkarlıq mühiti, KOB-ların fəaliyyəti, yaşıl təşəbbüslər və bu sahədə dövlət dəstəyi tədbirləri barədə sualları cavablandırılıb.

## 19 noyabr 2024

COP29 çərçivəsində Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası (AQİSA) tərəfindən “Davamlı üfüqlər: Azərbaycanın qida və içki sənayesində innovasiyalar” mövzusunda tədbir təşkil olunub. Tədbirdə KOBİA tərəfindən qida və içki sənayesində innovasiyaların tətbiqinin önəmi və bu sahədə KOBİA-nın bizneslərə dəstəyi barədə məlumat verilib.

1




2



## 19 noyabr 2024

COP29 çərçivəsində “Yaşıl zona”da “Su həyatdır” layihəsinin təqdimatına həsr olunmuş “Sudan dayanıqlı istifadədə KOB-ların rolu” mövzusunda tədbir keçirilib.

Tədbir KOB-lar üçün səmərəli su istifadəsi və müasir texnologiyalar üzrə inkişaf proqramının – “Su həyatdır” layihəsi barədə maraqlı tərəflərin məlumatlandırılması, eləcə də su ehtiyatlarının qorunması, davamlı idarə edilməsi və bu sahədə innovativ həllərin təşviqi məqsədilə təşkil olunub. Qeyd edək ki, “Su həyatdır” layihəsi “SmartNation” platforması və Kiçik və Orta Biznesin inkişafı Agentliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirilir.

Tədbirdə kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Dünya İqlim Fondunun prezidenti Cens Nilsen və COP29 Təşkilat Komitəsinin üzvü və “SmartNation” platformasının təsisçisi Şəbnəm Məmmədova su resurslarının əhəmiyyəti, KOB-ların “yaşıl iqtisadiyyat”a keçidi prosesində sudan səmərəli istifadə barədə fikirlərini bölüşüblər. Tədbir “Sabah üçün hər damla önəmlidir” və “Suya qayğı, gələcəyə zəmanət” mövzularında panellərlə davam edib.

## 20 noyabr 2024

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) yanında İşgüzar Şuranın 7-ci iclası keçirilib. Onlayn formatda iclasda çıxış edən KOBİA tərəfindən 2025-2026-cı illərdə AQEM-ə Azərbaycanın sədrliyi dövründə təşkilat yanında İşgüzar Şuranın gündəliyindəki prioritet məsələlər barədə məlumat verilib. Qeyd edilib ki, əməkdaşlıq, innovasiya və dayanıqlı iqtisadi modellərə keçid vasitəsilə KOB-ların inkişafını stimullaşdıran dinamik platformanın yaradılması diqqət mərkəzində olacaq. “Yaşıl iqtisadiyyat”a keçidin təşviqi, rəqəmsal transformasiya, e-ticarət və transsərhəd ticarətinin gücləndirilməsi, qadın sahibkarlığın inkişafı, dayanıqlı kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində innovasiyaların dəstəklənməsi İşgüzar Şuranın prioritetləri sırasında olacaq. KOBİA-nın İşgüzar Şuraya sədrliyi dövründə həmçinin qarşılıqlı biznes missiyaların təşkili və “B2B” əlaqələrin genişləndirilməsi fəal şəkildə dəstəklənəcək. AQEM-in Azərbaycanda keçiriləcək biznes forumu çərçivəsində sərginin təşkili










01 "Sudan dayanıqlı istifadədə KOB-ların rolu" mövzusunda müzakirə. 19 noyabr 2024-cü il

02 AQEM yanında İşgüzar Şuranın 7-ci iclası. 20 noyabr 2024-cü il

03 "Yaşıl tikinti və tikinti sektorunun dekarbonizasiyası" mövzusunda tədbir. 20 noyabr 2024-cü il

04 Asiya İnkişaf Bankının nümayəndələri ilə görüş. 21 noyabr 2024-cü il

05 Venesuelanın Azərbaycandakı səfiri ilə görüş. 21 noyabr 2024-cü il

də nəzərdə tutulur. Bu, üzv dövlətlərin bizneslərinə məhsul və xidmətlərini nümayiş etdirməklə regionda yeni əlaqələr qurmağa, ticarət və investisiya sahəsində əməkdaşlığı gücləndirməyə imkan verəcəkdir. Həmçinin iclasda KOBİA-nın nümayəndəsi Əmir Şirinbəyli Azərbaycanda rellaşdırılan yaşıl təşəbbüslər, Ticarət Şəbəkələri Assosiasiyasının sədri Samir Abdullayev isə KOB-ların dayanıqlı inkişafına dair məlumat veriblər.

Qeyd edək ki, 2025-2026-cı illərdə AQEM-ə Azərbaycanın sədrliyi dövründə İşgüzar Şuraya KOBİA sədrlik edəcək. AQEM yanında İşgüzar Şuraya sədrlik cari ilin dekabrından KOBİA-ya keçəcəkdir.

## 20 noyabr 2024

COP29 çərçivəsində "Şəhərləşmə, Nəqliyyat və Turizm Günü"ndə Beynəlxalq Maliyyə Korporasiyasının təşkilatçılığı ilə "Yaşıl tikinti və tikinti sektorunun dekorbanizasiyası" mövzusunda tədbir keçirilib. Tədbirdəki çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Azərbaycanın tikinti sektorunda KOB-ların rolu və bu sahədə yaşıl çağırışlar barədə fikirlərini bölüşüb.

## 21 noyabr 2024

KOBİA nümayəndələri Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin Baş direktorunun müavini Xiaohong Yanq və bankın Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Camal ilə görüşüb. Görüşdə KOB subyektlərinin yaşıl keçidinin təşviq olunması və bu sahədə potensial əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## 21 noyabr 2024

COP29 çərçivəsində Venesuelanın pavilyonunda KOBİA nümayəndələri və Venesuelanın Azərbaycandakı səfiri Kristofer Martinez arasında görüş keçirilib. Görüşdə ticarət və ikitərəfli əlaqələrin genişləndirilməsinə və əməkdaşlığın genişləndirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb.













## 25 noyabr 2024

Azərbaycanda səfərdə olan Qazaxıstan sahibkarları ilə "Bakı KOB evi"ndə görüş keçirilib. Görüşdə Qazaxıstandan olan 20-yə yaxın sahibkar, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstan Xarici Ticarət Palatasının Aparat rəhbəri Assan Jakişev iştirak ediblər. Tədbir çərçivəsində KOBİA tərəfindən ölkəmizin biznes və investisiya qoyuluşu imkanları, sahibkarlara göstərilən dəstək tədbirləri və iş adamları arasında əməkdaşlıq perspektivləri barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb. Qonaqlar "Bakı KOB evi"nin fəaliyyəti ilə də tanış olublar.

## 26-27 noyabr 2024

Türkiyəyə səfər çərçivəsində KOBİA nümayəndələri halal sənayesi üzrə maraqlı tərəfləri bir araya gətirən, müvafiq sahədə yeni imkanların və əməkdaşlıq perspektivlərinin müzakirə edildiyi 10-cu Dünya Halal Sammitində iştirak ediblər. Tədbirin açılışındakı çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov halal sənayenin davamlı inkişafı üçün əməkdaşlığın və innovasiyaların vacibliyini qeyd edib, bu sektorun gələcək inkişafında standartların və texnoloji yeniliklərin inteqrasiyasına xüsusi diqqət yetirilməli olduğunu vurğulayıb. Yaşıl texnologiyaların tətbiqinin ətraf mühitə təsiri əhəmiyyətli dərəcədə azalda biləcəyini bildirən KOBİA sədri Agentliyin yaşıl təşəbbüsləri və sahibkarlara dəstək alətləri barədə də məlumat verib. Səfər çərçivəsində KOBİA nümayəndələri bir sıra görüşlər də keçiriblər. Dünya Halal Sammitinin və "Halal Expo"-nun təşkilatçısı Yunus Ete, Malayziyanın sənayenin inkişafı nazirinin köməkçisi Datuk Andi Muhammed Suryady Bin Bandy, Sahibkarlığın İnkişafı və Kooperativlər Nazirliyinin müşaviri Saifuzzaman Abdul Rahman və Kiçik və Orta Sahibkarlığın İnkişafı Bankının baş direktoru Məhəmməd İbrahim, Seneqalın KOB-ların İnkişafı Agentliyinin baş meneceri Mari Roz Faye, İndoneziyanın Halal Sənayenin Gücləndirilməsi Mərkəzinin rəhbəri Nila Kumalasari ilə görüşlərdə KOB sahəsində əməkdaşlıq imkanlarına, KOB-ların gücləndirilməsi və "yaşıl iqtisadiyyat"a keçidi, sahibkarlıq sahəsində innovasiyaların təşviqinə dair fikir mübadiləsi aparılıb.

## 28 noyabr 2024

İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və Latviya Ticarət və Sənaye Palatasının (LCCI) birgə təşkilatçılığı ilə Bakıda Azərbaycan və Latviyanın biznes dairələri



3



5



4



6

01 Qazaxıstan sahibkarları ilə görüş. 25 noyabr 2024-cü il

02 Türkiyə səfəri. 26-27 noyabr 2024-cü il

03 Azərbaycan və Latviyanın işgüzar dairələri arasında görüş. 28 noyabr 2024-cü il

04 Kars Ticarət və Sənaye Palatası ilə görüş. 28 noyabr 2024-cü il

05 Efiopiya nümayəndə heyəti "Bakı KOB evi"ndə olub. 29 noyabr 2024-cü il

06 Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi ilə görüş. 4 dekabr 2024-cü il

arasında görüş keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, İKT, təhsil, sənaye, logistika, tikinti materiallarının istehsalı və digər sahələri təmsil edən şirkət nümayəndələri iştirak ediblər.

Görüşdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkələrimiz arasında inkişaf edən ikitərəfli əlaqələrin özəl sektor, xüsusilə Azərbaycan və Latviya KOB-ları arasında ticarət və investisiya əməkdaşlığının daha da genişləndirilməsini stimullaşdırdığını qeyd edib, Agentliyin dəstək və xidmətləri barədə məlumat verib.

## 28 noyabr 2024

Azərbaycanda səfərdə olan Kars Ticarət və Sənaye Palatasının İdarə Heyətinin sədri Kadir Bozan və sahibkarlardan ibarət nümayəndə heyəti KOBİA-da olub. Agentliyin nümayəndələri ilə Karsdan olan heyətin görüşündə iş adamları arasında əməkdaşlığın genişləndirilməsi, bu sahədə KOBİA və palatanın birgə əməkdaşlığı müzakirə edilib, sərhədyanı ticarətin vacibliyi vurğulanıb.

## 29 noyabr 2024

Ölkəmizdə səfərdə olan Efiopiyanın Baş nazirinin ofisində dövlət naziri Aklilu Tadesse və heyəti "Bakı KOB evi"ndə olub. Nümayəndə heyətində Efiopiyanın İnvestisiya Komissiyasının komissarı Zeleke Temesgen, Sənaye Park İnkişaf Korporasiyasının Baş icraçı direktoru Feseha Yetagsu, İnvestisiya Holdiqin Baş icraçı direktoru Brook Taye və digərləri təmsil olunub. KOBİA və "Bakı KOB evi"nin nümayəndələri tərəfindən Efiopiya nümayəndə heyətinə KOB evi barədə ətraflı məlumat verilib. Qonaqlar KOB evi modelinin onlarda yüksək təəssürat yaratdığını qeyd ediblər.

## 4 dekabr 2024

KOBİA nümayəndələri və Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyinin rəhbəri Serkan Kayalar arasında görüş keçirilib. "Bakı KOB Evi"ndə keçirilən görüş zamanı KOB sektorunun inkişafı və məşğulluqdakı rolu, sosial sahibkarlıq üzrə birgə layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

# 02 BEYNƏLXALQ TƏDBİRLƏR

## BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANS TƏŞKİLATÇILARININ İLLİK TOPLANTISI

**16 yanvar 2024**

Bakıda Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyasının (ASTA) təşkilatçılığı və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə Beynəlxalq Sərgi və Konfrans Təşkilatçılarının İllik Toplantısı keçirilib.

Beynəlxalq sərgi və konfrans təşkilatçılarının görüşü Bakıda ilk dəfədir ki, keçirilib. Tədbirin məqsədi beynəlxalq sərgi və konfransların təşkilinin əhəmiyyəti və səmərəliliyinin vurğulanması, bu qəbildən olan tədbirlərdə iştirak qaydaları haqqında ətraflı məlumat vermək, sərgi və konfransların keçirilməsində dövlət dəstəyi və əməkdaşlıq perspektivləri, o cümlədən bu sahəyə aid bir sıra digər aktual məsələləri müzakirə etmək olub.

Toplantı çərçivəsində "Bakı KOB evi"ndə "Kiçik və orta sahibkarlığın inkişafında beynəlxalq sərgilərin rolu: dövlət dəstəyi və əməkdaşlıq perspektivləri" adlı tədbir təşkil olunub. Tədbirdə beynəlxalq sərgi və konfrans təşkilatçısı olan "ICA Group" şirkətinin Çin, Qazaxıstan, Özbəkistan, Türkiyə, Polşa və Azərbaycan filiallarının, eləcə də "ICA Eurasia", "Caspian Event Managment", "Kongress servis", "Vista", "Lentewenc", "ITE E&C", "Iteca Uzbekis-




tan", "Iteca Kazakhstan", "ICA Turkiye" və "Iteca Caspian" şirkətlərinin nümayəndələri, sərgi tərəfdaşları iştirak ediblər.

Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, ASTA-nın İdarə Heyətinin sədri Fərid Məmmədov, sərgi sənayesi eksperti Stiven Mörte çıxış edərək Beynəlxalq Sərgi və Konfrans Təşkilatçılarının İllik Toplantısına, eləcə də sərgilərin KOB-ların inkişafında, satış imkanlarının genişləndirilməsində, məhsul və xidmətlərinin tanıdılmasında roluna, sərgilərin təşkili sahəsində dövlət-özəl əməkdaşlığına dair fikirlərini bölüşüblər.

Tədbir çərçivəsində KOBİA-ya 2023-cü il ərzində sərgilərin təşkilinə göstərdiyi dəstəyə görə sertifikat təqdim edilib.

Sonra Beynəlxalq Sərgi və Konfrans Təşkilatçılarının İllik Toplantısının iştirakçıları "Bakı KOB evi"nin fəaliyyəti ilə tanış olublar.





# AZƏRBAYCAN-SƏUDİYYƏ ƏRƏBİSTANI BİRGƏ İŞGÜZAR ŞURASININ İCLASLARI

**Aprel, oktyabr 2024**

**Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurası 2022-ci ildə yaradılıb.**
Hər iki ölkədən biznes nümayəndələrinin təmsil olunduğu İşgüzar Şura sahibkarların təşəbbüslərini dəstəkləyir, onlar arasında birbaşa əlaqələrin qurulmasına, qarşılıqlı səfərlərin, görüşlərin və müxtəlif tədbirlərin təşkilinə kömək edir, iş adamları arasında informasiya mübadiləsini həyata keçirir.

**APRELİN 29-DA ƏR-RİYAD ŞƏHƏRİNDƏ** KOBİA və Səudiyyə Ərəbistanının Palatalar Federasiyasının təşkilatçılığı ilə Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının 4-cü iclası keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslər və iş adamları iştirak ediblər.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin, İşgüzar Şuranın həmsədrləri - KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və "Al Rajhi International for İnvestment" şirkətinin baş icraçı direktoru Əhməd Əl Dakhil, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin–AZPROMO-nun icraçı direktoru Yusif Abdullayevin iştirak etdiyi iclasda hər iki ölkənin biznes, investisiya və ixrac potensialı, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə biznes və sərmayə qoyuluşu imkanları, işgüzar dairələr arasında ticarət və investisiya sahəsində mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri, iş adamlarının iştirakı ilə birgə təşəbbüslərin və layihələrin reallaşdırılması, bu istiqamətlərdə Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının rolunun gücləndirilməsi, qarşılıqlı olaraq investisiyaların təşviqində KOB-ların rolunun artırılmasına dair fikir mübadiləsi aparılıb.













**OKTYABRIN 1-DƏ BAKIDA** keçirilmiş Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının 5-ci iclasında hər iki ölkənin iş adamlarının iştirakı ilə birgə təşəbbüslərin və layihələrin reallaşdırılması, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi sahəsində Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının rolunun gücləndirilməsi, qarşılıqlı investisiyaların təşviqində KOB-ların rolunun artırılmasına dair fikir mübadiləsi aparılıb, təqdimatlar və iş adamları arasında “B2B” görüşlər keçirilib. KOBİA və Səudiyyə Ərəbistanının Palatalar Federasiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə hər iki ölkədən rəsmi şəxslər və iş adamları iştirak ediblər.

Tədbirdə iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev və Səudiyyə Ərəbistanının Palatalar Federasiyasının İdarə Heyətinin sədri Həsən Əl-Huvaizi iki ölkə arasında iqtisadi-ticarət əlaqələri, investisiya qoyuluşu və ixrac imkanları barədə fikirlərini bölüşüblər.

İşgüzar Şuranın həmsədrləri - “Al Rajhi İnternational for İnvestment” şirkətinin baş icraçı direktoru Əhməd Əl Dakhil və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov, Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri İssam bin Saleh əl-Cuteyli, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev işgüzar dairələr arasında ticarət və investisiya sahəsində əlaqələrin genişləndirilməsi perspektivləri, Azərbaycanda yerli və xarici iş adamlarına göstərilən dəstək və xidmətlər, İşgüzar Şuranın fəaliyyəti barədə məlumat veriblər.






# UKRAYNA-AZƏRBAYCAN İŞGÜZAR ŞURASININ 3-CÜ İCLASI

2 oktyabr 2024

"Bakı KOB evi"ndə KOBİA və Ukraynanın Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə Ukrayna-Azərbaycan İşgüzar Şurasının 3-cü iclası keçirilib. Tədbirdə rəsmi şəxslər, eləcə də ölkəmizdə səfərdə olan Ukrayna iş adamları və yerli sahibkarlar iştirak ediblər.

















İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev və Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri, biznes sahəsində əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüblər.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Ukrayna Ticarət və Sənaye Palatasının prezidenti Gennadi Çijikov, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov ticarət və investisiya sahəsində əlaqələr, ölkəmizdə iş adamlarına göstərilən dəstək, İşgüzar Şura çərçivəsində biznes dairələr arasında əməkdaşlıq perspektivləri barədə məlumat veriblər.

Tədbir iş adamları arasında “B2B” görüşlərlə başa çatıb.

AZHAB FORUM
AZERBAIJAN
HALAL BUSINESS FORUM

8-9 oktyabr 2024

# AZƏRBAYCAN HALAL BİZNES VƏ TURİZM FORUMU

Bakıda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə ilk dəfə olaraq Azərbaycan Halal Biznes və Turizm Forumu (AZHAB Forum) keçirilib.

Tədbir “Caspian Event Organisers” MMC, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, İslam Əməkdaşlıq Təşkilatı (OIC), Beynəlxalq İslam Biznesi Assosiasiyası, İslam Ticarət və İnkişaf Palatası (ICO), İslam Ölkələri üzrə Statistik, İqtisadi,












Sosial Araşdırmalar və Təlim Mərkəzi (SESRIC), İslam ölkələri üçün Standartlar və Metrologiya İnstitutu (SMIIC) tərəfindən dəstəklənib.

Tədbirin məqsədi investisiya və ticarət sahəsində yeni əməkdaşlıqların qurulmasına, müvafiq sahədə fikir və təcrübə mübadiləsinə töhfə vermək, Azərbaycana xarici sərmayələrin cəlb edilməsini təşviq etmək olub.

Forumda 20-yə yaxın ölkədən (Avstraliya, ABŞ, Bosniya və Hersoqovina, Braziliya, Birləşmiş Ərəb Əmirlikləri, Fələstin, Qazaxıstan,








Qırğızıstan, Malayziya, Nigeriya, Özbəkistan, Pakistan, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Böyük Britaniya) 70-dən çox halal sənaye sahəsində təcrübəli beynəlxalq ekspertlər, rəsmilər, beynəlxalq təşkilatların rəhbərləri, eləcə də 300-ə yaxın yerli rəsmilər, Azərbaycanda fəaliyyət göstərən İƏT-ə üzv ölkələrin səfirlikləri, qeyri-hökumət təşkilatları, şirkət rəhbərləri, tələbələr və s. iştirak edib.

Forum müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə öz işinə başlayıb.

Tədbirin açılışında Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin iqtisadi məsələlər














üzrə köməkçisi Ahmad Kavesa Sengendo, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, SESRIC-in Baş direktoru Zehra Zümrüt Selçuk, Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, Qafqaz Müsəlmanları İdarəsi sədrin birinci müavini Hacı Salman Musayev, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti Taha Ayxan, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, SMIIC-in Baş katibi İhsan Övüt və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış ediblər. Çıxışçılar halal məhsul və xidmətlərin sertifikatlaşdırılması, bu sahədə standartlar, idxal-ixrac məsələləri, beynəlxalq bazarlarda rəqabət, müvafiq sahədə innovasiya və texnologiyaların rolu, investisiya imkanları və trendlər, əməkdaşlıq perspektivləri barədə fikirlərini bölüşüblər.










Forumda Azərbaycanda halal sənaye üçün imkanlara dair film də nümayiş olunub.

Konfrans və sərgi olmaqla iki hissədən ibarət olan forumun sərgi hissəsində isə Azərbaycan və xarici ölkələrdən olan 30-a yaxın şirkətin məhsul və xidmətləri nümayiş olunub. Sərgidə nümayiş olunan məhsullar əsasən qida, tekstil, xidmət, İKT və təhsil sektorlarını əhatə edib.

Həmçinin forum çərçivəsində erməni işğalı zamanı Qarabağın maddi-mədəni irsinə, regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən zərər haqqında məlumatların geniş ictimaiyyətə çatdırılması məqsədilə Qarabağ Dirçəliş Fondunun “Qarabağda urbisid” fotosərgisi də nümayiş olunub.

Forum çərçivəsində bir sıra panel müzakirələr də təşkil olunub. “Qlobal halal sənayenin formalaşmasında KOB-ların rolu” mövzusunda paneldə bölgənin böyüyən KOB sektorunun inkişaf perspektivləri və KOB-lar üçün halal sənayedə imkanlarına dair fikir mübadiləsi aparılıb. “Halal sənayesində davamlılıq: yaşıl yeni









halaldırmı?" mövzusundakı paneldə ekologiya və iqlim dəyişikliyi mövzularına yeni perspektivdən yanaşılaraq "halal yaşıl" anlayışı barədə müzakirələr aparılıb. Qeyd olunub ki, cəmiyyətlər ətraf mühit tədbirlərini halal standartlarına uyğunlaşdırmaqla ekoloji məqsədləri dəstəkləyə, davamlı inkişafı təşviq edə və qlobal bazarda mövqelərini yaxşılaşdıra bilərlər.

"Regionun halal turizm potensialı" panelində bölgədə halal turizmin potensialı, zəngin mədəniyyəti və qonaqpərvərliyi ilə halal turizm sahəsindəki imkanları birləşdirmək nəzərdən keçirilib.

"Halal standartlaşdırma: problemlər və çağırışlar" mövzusunda paneldə halal standartlar, bu sahədə çağırışlar, halal sertifikatlaşdırmanın önəmi, mövcud çətinliklər və imkanlar barədə fikir mübadiləsi aparılıb.

"MDB regionunda halal ekosistemin inkişafında çətinliklər" mövzusuna həsr olunmuş panel MDB məkanında halal ekosistemin inkişafına, halal bazarın imkanlarına dair müzakirələr ilə yadda qalıb.

"İslam maliyyəsi və investisiya: regionda etik bankçılıq və maliyyə imkanları"na dair panel müzakirədə isə İslam bankçılığı, onun cəmiyyətə və iqtisadiyyata təsirləri və regionun maliyyə imkanları barədə məlumat verilib, iştirakçıların sualları cavablandırılıb.

Forum çərçivəsində Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası (AQİSA) və Britaniya İslam Ticarət Assosiasiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Həmçinin AZHAB Forumunun təşkilinə göstərdikləri dəstək üçün könüllülərə sertifikatlar təqdim edilib.












# Dəstək infrastrukturu

**1.** KOB evləri

**2.** KOB inkişafı mərkəzləri

**3.** KOB dostu şəbəkəsi

**4.** Layihələr və proqramlar




KOBİA

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# 01 KOB EVLƏRİ

KOB evləri – sahibkarlara dövlət və özəl qurumlar tərəfindən göstərilən “G2B” və “B2B” xidmətlərin təqdim edildiyi vahid məkandır. Hazırda Bakı, Xaçmaz və Yevlax şəhərlərində olmaqla üç KOB evi, Xudat şəhərində “Xaçmaz KOB evi”nin xidmət mərkəzi fəaliyyət göstərir.

KOB evlərində xidmətlər biznesi planla, biznesə başla, biznesi işlət və biznesi inkişaf etdir olmaqla 4 proses üzrə aparılır. Sahibkarlar biznesin qeydiyyatı, biznes fəaliyyəti üçün zəruri olan sənədlər, biznes planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal xidmətlərə qoşulmaq, bank, sığorta və s. xidmətlər üçün KOB evlərinə müraciət edə bilərlər. KOB evlərində ümumilikdə 50-dən çox dövlət və özəl qurum tərəfindən sahibkarlıq fəaliyyəti üçün zəruri olan 400-dən çox “G2B” və “B2B” xidmətlər göstərilir.

KOB evlərində sahibkarlara göstərilən xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik, rahatlıq və sahibkar məmnunluğu prinsipləri əsasında həyata keçirilir. Sahibkarların bu xidmətlərdən məmnunluq səviyyəsi 98% təşkil edir.

2024-cü ildə KOB evlərinin fəaliyyəti ilə bağlı bir sıra uğurlu nəticələr əldə olunub.

KOB evlərində ümumilikdə **50-dən çox dövlət və özəl qurum tərəfindən** sahibkarlıq fəaliyyəti üçün zəruri olan **400-dən çox “G2B” və “B2B” xidmətlər göstərilir.**




## Azərbaycanın KOB evi modeli dünyanın qabaqcıl innovativ təşəbbüsləri sırasında

### İyul 2024

2024-cü ildə Azərbaycanın KOB evi modeli beynəlxalq səviyyədə uğur əldə edib. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzi tərəfindən keçirilən müsabiqədə Azərbaycanın KOB evi modeli innovativ təşəbbüs olaraq seçilib və bu barədə qurumun saytında məlumat paylaşılıb. Beynəlxalq təşkilat KOB sektorunun inkişafına töhfə vermək üçün dövlət və özəl qurumların imkanlarının vahid məkanda – KOB evlərində birləşdirilməsi və əlaqələndirilməsini unikal model kimi qiymətləndirib. Mərkəzin ekspertləri tərəfindən KOB evi modelinin innovativliyi burada KOB-ların inkişafını dəstəkləyən kompleks xidmət təminatı, ehtiyaclara uyğun çevik yanaşmanın olması kimi amillərlə əlaqələndirilir.

İƏİT-in 2011-ci ildə yaradılmış Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzi dövlət sektorunda qabaqcıl innovasiyaların tətbiqinə və təbliğinə dəstək verən qlobal forumdur. Mərkəzin saytında 2003-cü ildən ideyaların və yeniliklərin paylaşıldığı bölmə fəaliyyət göstərir. Burada dünyanın 90-dan çox ölkəsi, o cümlədən Azərbaycan üzrə innovativ təşəbbüslərin qiymətləndirilməsi nəticələri barədə məlumatlar qeyd olunur.





## “Bakı KOB evi”ndə gömrük anbarı fəaliyyətə başlayıb

### Avqust 2024

İdxal sahəsində KOB subyektlərinin işinin daha da asanlaşdırılması məqsədilə “Bakı KOB evi”ndə “KOB gömrük anbarı” yaradılıb. Bakı Baş Gömrük İdarəsi və Hava Limanı vasitəsilə ölkəyə gətirilən mallar üçün KOB subyektləri bu anbarın imkanlarından istifadə edə bilərlər. Anbar 1350 kvadrat metr ərazini əhatə edir. Anbarda KOB subyektlərinin kiçikhəcmli malları saxlanılır və “Bakı KOB evi”ndə gömrük rəsmiləşdirilməsi həyata keçirilir. “KOB gömrük anbarı” KOB-ların mallarının operativ şəkildə rəsmiləşdirilməsi, bu sahədə fəaliyyətin sürətləndirilməsi və daha da asanlaşdırılması məqsədilə Dövlət Gömrük Komitəsi və KOBİA-nın birgə təşəbbüsü ilə yaradılıb.

“Bakı KOB evi”ndə fəaliyyət göstərən Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında Dövlət Gömrük Komitəsi, eləcə də gömrüklə əlaqəli xidmətlər təqdim edən gömrük təmsilçiləri, logistika şirkətləri və digər idxal-ixrac əməliyyatları ilə bağlı geniş xidmətlər təqdim olunur. Bu, idxal-ixrac əməliyyatları üzrə sahibkarların vahid mərkəzdən lazımi xidmətləri almasına, bununla da vaxt və əməliyyat xərclərinə qənaət etməsinə imkan verir.










# “Bakı KOB evi”

2023-cü ilin yanvarından fəaliyyət göstərən “Bakı KOB evi”ndə sahibkarlara 35 dövlət qurumu tərəfindən 300-dən çox “G2B”, 12 özəl qurum tərəfindən 100-dən çox adda “B2B” xidmətlər göstərilir.

## “Bakı KOB evi”ndə xidmət göstərən qurumlar:

**“G2B” xidmətlər üzrə:**

1. İqtisadiyyat Nazirliyi
2. Kənd Təsərrüfatı Nazirliyi
3. Fövqəladə Hallar Nazirliyi
4. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
5. Energetika Nazirliyi
6. Daxili İşlər Nazirliyi
7. Ekologiya və Təbii Sərvətlər Nazirliyi
8. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
9. Səhiyyə Nazirliyi
10. Mədəniyyət Nazirliyi
11. Elm və Təhsil Nazirliyi
12. Dövlət Gömrük Komitəsi
13. Dövlət Statistika Komitəsi
14. Əmlak Məsələləri Dövlət Xidməti
15. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti
16. Dövlət Vergi Xidməti
17. Dövlət Mineral Xammal Ehtiyyatlarından İstifadə Agentliyi
18. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)
19. Dövlət Reklam Agentliyi
20. Qida Təhlükəsizliyi Agentliyi
21. Dövlət Turizm Agentliyi
22. Bakı Şəhər İcra Hakimiyyəti
23. “Azəriqaz” İB
24. “Azərişıq” ASC
25. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
26. “Azərbaycan Hava Yolları” QSC
27. “Azərbaycan Dəmir Yolları” QSC
28. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC
29. Azərbaycan Gənclər Fondu
30. İpoteka və Kredit Zəmanət Fondu
31. Əqli Mülkiyyət Agentliyi
32. Auditorlar Palatası
33. Audiovizual Şura
34. Medianın İnkişafı Agentliyi
35. Notariat xidməti

**“B2B” xidmətlər üzrə:**

1. “Bank Respublika” ASC
2. “Kapital Bank” ASC
3. “Azərbaycan Beynəlxalq Bankı” ASC
4. Aqrar Kredit Səhmdar Kredit Təşkilatı
5. “Azerlotereya” ASC
6. Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası
7. “BSC” MMC (Konsaltinq və hüquqi yardım xidməti)
8. Mobil operator (Nar Mobile)
9. Mobil operator (Azercell)
10. “ASE Express” (Karqo xidməti)
11. “Dynamex Express” MMC (Karqo xidməti)
12. “Atəşgah” sığorta

**“G2B” qurumların xidmət sayı:**

| № | Qurumlar | Say | Faiz |
|---|---|---|---|
| 1 | İqtisadiyyat Nazirliyi | 858 | 0,30% |
| 2 | Kənd Təsərrüfatı Nazirliyi | 65 | 0,02% |
| 3 | Fövqəladə Hallar Nazirliyi | 1198 | 0,43% |
| 4 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 124 | 0,04% |
| 5 | Energetika Nazirliyi | 56 | 0,02% |
| 6 | Daxili İşlər Nazirliyi | 2 | 0,00% |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 13 | 0,00% |
| 8 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 205172 | 72,79% |
| 9 | Səhiyyə Nazirliyi | 25 | 0,01% |
| 10 | Mədəniyyət Nazirliyi | 2 | 0,00% |
| 11 | Dövlət Gömrük Komitəsi | 5627 | 2,00% |
| 12 | Dövlət Statistika Komitəsi | 73 | 0,03% |
| 13 | Əmlak Məsələləri Dövlət Xidməti | 71 | 0,03% |
| 14 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 23122 | 8,20% |
| 15 | Dövlət Vergi Xidməti | 8223 | 2,92% |
| 16 | Dövlət Mineral Xammal Ehtiyyatlarından İstifadə Agentliyi | 405 | 0,14% |
| 17 | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) | 891 | 0,32% |
| 18 | Dövlət Reklam Agentliyi | 30 | 0,01% |
| 19 | Qida Təhlükəsizliyi Agentliyi | 234 | 0,08% |
| 20 | Dövlət Turizm Agentliyi | 0 | 0,00% |
| 21 | Bakı Şəhər İcra Hakimiyyəti | 5 | 0,00% |
| 22 | “Azəriqaz” İB | 97 | 0,03% |
| 23 | “Azərişıq” ASC | 42 | 0,01% |
| 24 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 45 | 0,02% |
| 25 | “Azərbaycan Hava Yolları” QSC | 5 | 0,00% |
| 26 | “Azərbaycan Dəmir Yolları” QSC | 0 | 0,00% |
| 27 | “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC | 7 | 0,00% |
| 28 | Azərbaycan Gənclər Fondu | 0 | 0,00% |
| 29 | İpoteka və Kredit Zəmanət Fondu | 43 | 0,02% |
| 30 | Əqli Mülkiyyət Agentliyi | 79 | 0,03% |
| 31 | Auditorlar Palatası | 5 | 0,00% |
| 32 | Audiovizual Şura | 1 | 0,00% |
| 33 | Medianın İnkişafı Agentliyi | 0 | 0,00% |
| 34 | Notariat xidməti | 14 | 0,00% |
| 35 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 0 | 0,00% |
| | **TOPLAM:** | **246534** | **87,47%** |

**“B2B” qurumların xidmət sayı:**

| | | | |
|---|---|---|---|
| 1. | “Bank Respublika” ASC | 2719 | 0,96% |
| 2. | “Kapital Bank” ASC | 21018 | 7,46% |
| 3. | “Azərbaycan Beynəlxalq Bankı” ASC | 4098 | 1,45% |
| 4. | Aqrar Kredit Səhmdar Kredit Təşkilatı | 8 | 0,00% |
| 5. | “Azərlotoreya” ASC | 266 | 0,09% |
| 6. | Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | 6 | 0,00% |
| 7. | “BSC” MMC | 1810 | 0,64% |
| 8. | NAR Mobile | 911 | 0,32% |
| 9. | “Dynamex Express” MMC | 711 | 0,25% |
| 10. | “ASE Express” | 2125 | 0,75% |
| 11. | Azercell | 1643 | 0,58% |
| 12. | “Ataşgah Sığorta” | 10 | 0,00% |
| | **TOPLAM:** | **35 325** | **12,53%** |

2024-cü ilin 11 ayı üzrə “Bakı KOB evi”ndə sahibkarlıq subyektlərinə **281 859** xidmət göstərilib. Bu xidmətlərdən **246 534-ü (87,47%)** “G2B”, **35 325-i (12,53%)** “B2B” xidmətlər olub. Xidmətlərdən **55 600-ü** sənəd qəbulu, **218 471-i** hazır sənəd, **7788-i** informasiya xidmətləri üzrə olub.

2024-cü ilin 11 ayı üzrə “Bakı KOB evi”ndə sahibkarlıq subyektlərinə **281 859** xidmət göstərilib. Bu xidmətlərdən **246 534-ü “G2B”, 35 325-i “B2B” xidmətlər olub.**



"G2B" və "B2B" qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **sənəd qəbulu xidməti 19,73%** təşkil edib.

| № | Qurumlar | Sənəd qəbulu | Faiz |
|---|---|---|---|
| 1 | İqtisadiyyat Nazirliyi | 78 | 0,14% |
| 2 | Kənd Təsərrüfatı Nazirliyi | 8 | 0,01% |
| 3 | Fövqəladə Hallar Nazirliyi | 810 | 1,46% |
| 4 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 14 | 0,03% |
| 5 | Energetika Nazirliyi | 14 | 0,03% |
| 6 | Daxili İşlər Nazirliyi | 0 | 0,00% |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 | 0,00% |
| 8 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 12767 | 22,96% |
| 9 | Səhiyyə Nazirliyi | 1 | 0,00% |
| 10 | Mədəniyyət Nazirliyi | 0 | 0,00% |
| 11 | Dövlət Gömrük Komitəsi | 3035 | 5,46% |
| 12 | Dövlət Statistika Komitəsi | 35 | 0,06% |
| 13 | Əmlak Məsələləri Dövlət Xidməti | 19 | 0,03% |
| 14 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 59 | 0,11% |
| 15 | Dövlət Vergi Xidməti | 8061 | 14,50% |
| 16 | Dövlət Mineral Xammal Ehtiyyatlarından İstifadə Agentliyi | 154 | 0,28% |
| 17 | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) | 42 | 0,08% |
| 18 | Dövlət Reklam Agentliyi | 10 | 0,02% |
| 19 | Qida Təhlükəsizliyi Agentliyi | 27 | 0,05% |
| 20 | Dövlət Turizm Agentliyi | 0 | 0,00% |
| 21 | Bakı Şəhər İcra Hakimiyyəti | 1 | 0,00% |
| 22 | "Azəriqaz" İB | 55 | 0,10% |
| 23 | "Azərişıq" ASC | 6 | 0,01% |
| 24 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 1 | 0,00% |

| № | Qurumlar | Sənəd qəbulu | Faiz |
|---|---|---|---|
| 25 | "Azərbaycan Hava Yolları" QSC | 3 | 0,01% |
| 26 | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00% |
| 27 | "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC | 1 | 0,00% |
| 28 | Azərbaycan Gənclər Fondu | 0 | 0,00% |
| 29 | İpoteka və Kredit Zəmanət Fondu | 11 | 0,02% |
| 30 | Əqli Mülkiyyət Agentliyi | 25 | 0,04% |
| 31 | Auditorlar Palatası | 1 | 0,00% |
| 32 | Audiovizual Şura | 0 | 0,00% |
| 33 | Medianın İnkişafı Agentliyi | 0 | 0,00% |
| 34 | Notariat xidməti | 5 | 0,01% |
| 35 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 0 | 0,00% |
| 36 | "Bank Respublika" ASC | 2672 | 4,81% |
| 37 | "Kapital Bank" ASC | 20665 | 37,17% |
| 38 | "Azərbaycan Beynəlxalq Bankı" ASC | 3625 | 6,52% |
| 39 | Aqrar Kredit Səhmdar Kredit Təşkilatı | 1 | 0,00% |
| 40 | "Azerlotereya" ASC | 224 | 0,40% |
| 41 | Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | 1 | 0,00% |
| 42 | "BSC" MMC | 1701 | 3,06% |
| 43 | NAR Mobile | 824 | 1,48% |
| 44 | "Dynamex Express" MMC | 113 | 0,20% |
| 45 | "ASE Express" | 351 | 0,63% |
| 46 | Azercell | 175 | 0,31% |
| 47 | "Atəşgah Sığorta" | 3 | 0,00% |
| | TOPLAM: | 55 600 | 100% |

"G2B" və "B2B" qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **hazır sənəd 77,51%** təşkil edib.

| № | Qurumlar | Hazır sənəd | Faiz |
|---|---|---|---|
| 1 | İqtisadiyyat Nazirliyi | 526 | 24,08% |
| 2 | Kənd Təsərrüfatı Nazirliyi | 1 | 0,05% |
| 3 | Fövqəladə Hallar Nazirliyi | 155 | 7,09% |
| 4 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1 | 0,05% |
| 5 | Energetika Nazirliyi | 4 | 0,18% |
| 6 | Daxili İşlər Nazirliyi | 0 | 0,00% |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 3 | 0,14% |
| 8 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 188073 | 86,09% |
| 9 | Səhiyyə Nazirliyi | 2 | 0,09% |
| 10 | Mədəniyyət Nazirliyi | 0 | 0,00% |
| 11 | Dövlət Gömrük Komitəsi | 1982 | 0,91% |
| 12 | Dövlət Statistika Komitəsi | 17 | 0,01% |
| 13 | Əmlak Məsələləri Dövlət Xidməti | 4 | 0,00% |
| 14 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 23045 | 10,55% |
| 15 | Dövlət Vergi Xidməti | 99 | 0,05% |
| 16 | Dövlət Mineral Xammal Ehtiyyatlarından İstifadə Agentliyi | 188 | 0,09% |
| 17 | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) | 4 | 0,00% |
| 18 | Dövlət Reklam Agentliyi | 0 | 0,00% |
| 19 | Qida Təhlükəsizliyi Agentliyi | 82 | 0,04% |
| 20 | Dövlət Turizm Agentliyi | 0 | 0,00% |
| 21 | Bakı Şəhər İcra Hakimiyyəti | 0 | 0,00% |
| 22 | "Azəriqaz" İB | 13 | 0,01% |
| 23 | "Azərişıq" ASC | 5 | 0,00% |
| 24 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 17 | 0,01% |

| № | Qurumlar | Hazır sənəd | Faiz |
|---|---|---|---|
| 25 | “Azərbaycan Hava Yolları” QSC | 0 | 0,00% |
| 26 | “Azərbaycan Dəmir Yolları” QSC | 0 | 0,00% |
| 27 | “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC | 0 | 0,00% |
| 28 | Azərbaycan Gənclər Fondu | 0 | 0,00% |
| 29 | İpoteka və Kredit Zəmanət Fondu | 0 | 0,00% |
| 30 | Əqli Mülkiyyət Agentliyi | 3 | 0,00% |
| 31 | Auditorlar Palatası | 0 | 0,00% |
| 32 | Audiovizual Şura | 0 | 0,00% |
| 33 | Medianın İnkişafı Agentliyi | 0 | 0,00% |
| 34 | Notariat xidməti | 7 | 0,00% |
| 35 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 0 | 0,00% |
| 36 | “Bank Respublika” ASC | 31 | 0,01% |
| 37 | “Kapital Bank” ASC | 272 | 0,12% |
| 38 | “Azərbaycan Beynəlxalq Bankı” ASC | 414 | 0,19% |
| 39 | Aqrar Kredit Səhmdar Kredit Təşkilatı | 0 | 0,00% |
| 40 | “Azerlotereya” ASC | 14 | 0,01% |
| 41 | Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | 0 | 0,00% |
| 42 | “BSC” MMC | 44 | 0,02% |
| 43 | NAR Mobile | 51 | 0,02% |
| 44 | “Dynamex Express” MMC | 586 | 0,27% |
| 45 | “ASE Express” | 1749 | 0,80% |
| 46 | Azercell | 1078 | 0,49% |
| 47 | “Atəşgah Sığorta” | 1 | 0,00% |
| | **TOPLAM:** | **218 471** | **100%** |

"G2B" və "B2B" qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **informasiya xidməti 2,76%** təşkil edib.

| № | Qurumlar | İnformasiya xidməti | Faiz |
|---|---|---|---|
| 1 | İqtisadiyyat Nazirliyi | 254 | 3,26% |
| 2 | Kənd Təsərrüfatı Nazirliyi | 56 | 0,72% |
| 3 | Fövqəladə Hallar Nazirliyi | 233 | 2,99% |
| 4 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 109 | 1,40% |
| 5 | Energetika Nazirliyi | 38 | 0,49% |
| 6 | Daxili İşlər Nazirliyi | 2 | 0,03% |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 8 | 0,10% |
| 8 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 4332 | 55,62% |
| 9 | Səhiyyə Nazirliyi | 22 | 0,78% |
| 10 | Mədəniyyət Nazirliyi | 2 | 0,03% |
| 11 | Dövlət Gömrük Komitəsi | 610 | 7,83% |
| 12 | Dövlət Statistika Komitəsi | 21 | 0,27% |
| 13 | Əmlak Məsələləri Dövlət Xidməti | 48 | 0,62% |
| 14 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 18 | 0,23% |
| 15 | Dövlət Vergi Xidməti | 63 | 0,81% |
| 16 | Dövlət Mineral Xammal Ehtiyyatlarından İstifadə Agentliyi | 63 | 0,81% |
| 17 | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) | 845 | 10,85% |
| 18 | Dövlət Reklam Agentliyi | 20 | 0,26% |
| 19 | Qida Təhlükəsizliyi Agentliyi | 125 | 1,61% |
| 20 | Dövlət Turizm Agentliyi | 0 | 0,00% |
| 21 | Bakı Şəhər İcra Hakimiyyəti | 4 | 0,05% |
| 22 | "Azəriqaz" İB | 29 | 0,37% |
| 23 | "Azərişıq" ASC | 31 | 0,40% |
| 24 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 27 | 0,35% |

| № | Qurumlar | İnformasiya xidməti | Faiz |
|---|---|---|---|
| 25 | "Azərbaycan Hava Yolları" QSC | 2 | 0,03% |
| 26 | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00% |
| 27 | "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC | 6 | 0,08% |
| 28 | Azərbaycan Gənclər Fondu | 0 | 0,00% |
| 29 | İpoteka və Kredit Zəmanət Fondu | 32 | 0,41% |
| 30 | Əqli Mülkiyyət Agentliyi | 51 | 0,65% |
| 31 | Auditorlar Palatası | 4 | 0,05% |
| 32 | Audiovizual Şura | 1 | 0,01% |
| 33 | Medianın İnkişafı Agentliyi | 0 | 0,00% |
| 34 | Notariat xidməti | 2 | 0,03% |
| 35 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 0 | 0,00% |
| 36 | "Bank Respublika" ASC | 16 | 0,21% |
| 37 | "Kapital Bank" ASC | 81 | 1,04% |
| 38 | "Azərbaycan Beynəlxalq Bankı" ASC | 59 | 0,76% |
| 39 | Aqrar Kredit Səhmdar Kredit Təşkilatı | 7 | 0,09% |
| 40 | "Azerlotereya" ASC | 28 | 0,36% |
| 41 | Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | 5 | 0,06% |
| 42 | "BSC" MMC | 65 | 0,83% |
| 43 | NAR Mobile | 36 | 0,46% |
| 44 | "Dynamex Express" MMC | 12 | 0,15% |
| 45 | ASE Express | 25 | 0,32% |
| 46 | Azercell | 390 | 5,01% |
| 47 | Ataşgah Sığorta | 6 | 0,08% |
| | **TOPLAM:** | **7 788** | **100%** |




## “Xaçmaz KOB evi”

2020-ci ilin fevral ayından fəaliyyət göstərən “Xaçmaz KOB evi”ndə sahibkarlara **11** dövlət qurumu tərəfindən **170-dək “**G2B”, **5** özəl qurum tərəfindən **60-dək** “B2B” xidmətlər göstərilir.



“Xaçmaz KOB evi”ndə sahibkarlara 11 dövlət qurumu tərəfindən
**170-dək “G2B”**,
5 özəl qurum tərəfindən
**60-dək “B2B” xidmətlər göstərilir.**



## “Xaçmaz KOB evi”ndə xidmət göstərən qurumlar:

### “G2B” xidmətlər üzrə:

1. İqtisadiyyat Nazirliyi
   - Dövlət Vergi Xidməti
   - Əmlak Məsələləri Dövlət Xidməti
   - Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti
2. Kənd Təsərrüfatı Nazirliyi
3. Qida Təhlükəsizliyi Agentliyi
4. Dövlət Reklam Agentliyi
5. Dövlət Gömrük Komitəsi
6. “Azəriqaz” İB
7. “Azərişıq” ASC
8. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
9. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi
10. “Azərbaycan Dəmir Yolları” QSC
11. Xaçmaz Rayon İcra Hakimiyyəti

### “B2B” xidmətlər üzrə:

1. “Beynəlxalq Bank” ASC
2. “Kapital Bank” ASC
3. “Gate Baku” MMC
4. “Shams Group” MMC
5. “AZERCELL Telecom” MMC

**"G2B" qurumların xidmət sayı:**

| № | Qurumlar | Say | Faiz |
|---|---|---|---|
| 1 | Dövlət Vergi Xidməti | 8078 | 47,05% |
| 2 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 7454 | 43,42% |
| 3 | "Azəriqaz" İB | 395 | 2,30% |
| 4 | Kənd Təsərrüfatı Nazirliyi | 389 | 2,27% |
| 5 | Qida Təhlükəsizliyi Agentliyi | 281 | 1,64% |
| 6 | Əmlak Məsələləri Dövlət Xidməti | 238 | 1,39% |
| 7 | "Azərişıq" ASC | 142 | 0,83% |
| 8 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 95 | 0,55% |
| 9 | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 43 | 0,25% |
| 10 | İqtisadiyyat Nazirliyi | 36 | 0,21% |
| 11 | Dövlət Reklam Agentliyi | 10 | 0,06% |
| 12 | Xaçmaz Rayon İcra Hakimiyyəti | 4 | 0,02% |
| 13 | Dövlət Gömrük Komitəsi | 3 | 0,02% |
| 14 | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00% |
| | **TOPLAM:** | **17 168** | **100%** |



**"B2B" qurumların xidmət sayı:**

| № | Qurumlar | Say | Faiz |
|---|---|---|---|
| 1 | "Azercell Telecom" MMC | 2464 | 99,31% |
| 2 | "Beynəlxalq Bank" ASC | 11 | 0,44% |
| 3 | "Shams Group" MMC | 4 | 0,16% |
| 4 | "Kapital Bank" ASC | 2 | 0,08% |
| 5 | "Gate Baku" MMC | 0 | 0,00% |
| | **TOPLAM:** | **2 481** | **100%** |




2024-cü ilin **11 ayı üzrə** "Xaçmaz KOB evi"ndə sahibkarlıq subyektlərinə **19 649** xidmət göstərilib. Bu xidmətlərdən **17 168-i** "G2B", **2 481-i** "B2B" xidmətlər olub. Xidmətlərdən **9 467-i** sənəd qəbulu, **7 744-i** hazır sənəd, **2 438-i** informasiya xidmətləri üzrə olub.

**2024-cü ilin 11 ayı üzrə** "Xaçmaz KOB evi"ndə sahibkarlıq subyektlərinə **19 649 xidmət göstərilib.** Bu xidmətlərdən 17 168-i "G2B", 2 481-i "B2B" xidmətlər olub.



**"G2B" və "B2B"** qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **sənəd qəbulu xidməti 48,18% təşkil edib.**

| № | Qurumlar | Sənəd qəbulu | Faiz |
|---|---|---|---|
| 1. | Dövlət Vergi Xidməti | 6876 | 72,63 |
| 2. | "Azercell Telecom" MMC | 2003 | 21,15 |
| 3. | Kənd Təsərrüfatı Nazirliyi | 224 | 2,36 |
| 4. | Qida Təhlükəsizliyi Agentliyi | 167 | 1,76 |
| 5. | "Azəriqaz" İB | 96 | 1,01 |
| 6. | "Azərişıq" ASC | 48 | 0,50 |
| 7. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 45 | 0,47 |
| 8. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 4 | 0,04 |
| 9. | İqtisadiyyat Nazirliyi | 3 | 0,03 |
| 10. | Dövlət Reklam Agentliyi | 1 | 0,01 |
| 11. | Əmlak Məsələləri Dövlət Xidməti | 0 | 0,00 |
| 12. | Dövlət Gömrük Komitəsi | 0 | 0,00 |
| 13. | "Beynəlxalq Bank" ASC | 0 | 0,00 |
| 14. | "Kapital Bank" ASC | 0 | 0,00 |
| 15. | "Shams Group" MMC | 0 | 0,00 |
| 16. | "Gate Baku" MMC | 0 | 0,00 |
| 17. | Xaçmaz Rayon İcra Hakimiyyəti | 0 | 0,00 |
| 18. | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00 |
| 19. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 0 | 0,00 |
| | **TOPLAM:** | 9 467 | 100% |

**"G2B" və "B2B"** qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **hazır sənəd xidməti 39,41% təşkil edib.**

| № | Qurumlar | Hazır sənəd | Faiz |
|---|---|---|---|
| 1. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 7406 | 95,63 |
| 2. | "Azəriqaz" İB | 189 | 2,44 |
| 3. | Qida Təhlükəsizliyi Agentliyi | 56 | 0,72 |
| 4. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 54 | 0,69 |
| 5. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 27 | 0,34 |
| 6. | İqtisadiyyat Nazirliyi | 7 | 0,09 |
| 7. | "Azercell Telecom" MMC | 3 | 0,03 |
| 8. | Dövlət Vergi Xidməti | 2 | 0,02 |
| 9. | Əmlak Məsələləri Dövlət Xidməti | 0 | 0,00 |
| 10. | Kənd Təsərrüfatı Nazirliyi | 0 | 0,00 |
| 11. | Dövlət Reklam Agentliyi | 0 | 0,00 |
| 12. | Dövlət Gömrük Komitəsi | 0 | 0,00 |
| 13. | "Azərişıq" ASC | 0 | 0,00 |
| 14. | "Beynəlxalq Bank" ASC | 0 | 0,00 |
| 15. | "Kapital Bank" ASC | 0 | 0,00 |
| 16. | "Shams Group" MMC | 0 | 0,00 |
| 17. | "Gate Baku" MMC | 0 | 0,00 |
| 18. | Xaçmaz Rayon İcra Hakimiyyəti | 0 | 0,00 |
| 19. | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00 |
| | **TOPLAM:** | 7 744 | 100% |

| № | Qurumlar | İnform. xidməti | Faiz |
|---|---|---|---|
| 1. | Dövlət Vergi Xidməti | 1200 | 49,22 |
| 2. | "Azercell Telecom" MMC | 458 | 18,78 |
| 3. | Əmlak Məsələləri Dövlət Xidməti | 238 | 9,76 |
| 4. | Kənd Təsərrüfatı Nazirliyi | 165 | 6,76 |
| 5. | "Azəriqaz" İB | 110 | 4,51 |
| 6. | "Azərişıq" ASC | 94 | 3,85 |
| 7. | Qida Təhlükəsizliyi Agentliyi | 58 | 2,37 |
| 8. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 37 | 1,51 |
| 9. | İqtisadiyyat Nazirliyi | 26 | 1,06 |
| 10. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 16 | 0,65 |
| 11. | "Beynəlxalq Bank" ASC | 11 | 0,45 |
| 12. | Dövlət Reklam Agentliyi | 9 | 0,36 |
| 13. | "Shams Group" MMC | 4 | 0,16 |
| 14. | Xaçmaz Rayon İcra Hakimiyyəti | 4 | 0,16 |
| 15. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 3 | 0,12 |
| 16. | Dövlət Gömrük Komitəsi | 3 | 0,12 |
| 17. | "Kapital Bank" ASC | 2 | 0,08 |
| 18. | "Gate Baku" MMC | 0 | 0,00 |
| 19. | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00 |
| | **TOPLAM:** | 2 438 | 100% |

**"G2B" və "B2B"** qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **informasiya xidməti 12,41% təşkil edib.**









## “Yevlax KOB evi”

2021-ci ilin aprel ayından fəaliyyət göstərən “Yevlax KOB evi”ndə sahibkarlara **11** dövlət qurumu tərəfindən **150-dək** “G2B”, **3** özəl qurum tərəfindən **40-dək** “B2B” xidmətlər göstərilir.

“Yevlax KOB evi”ndə 11 dövlət qurumu tərəfindən **150-dək “G2B”**, 3 özəl qurum tərəfindən **40-dək “B2B”** xidmətlər göstərilir.

### “Yevlax KOB evi”ndə xidmət göstərən qurumlar:

**“G2B” xidmətlər üzrə:**

1. İqtisadiyyat Nazirliyi
   - Dövlət Vergi Xidməti
   - Əmlak Məsələləri Dövlət Xidməti
   - Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti
2. Kənd Təsərrüfatı Nazirliyi
3. Qida Təhlükəsizliyi Agentliyi
4. Dövlət Reklam Agentliyi
5. “Azəriqaz” İB
6. “Azərişıq” ASC
7. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
8. “Azərpoçt” MMC
9. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi
10. “Azərbaycan Dəmir Yolları” QSC
11. Yevlax Şəhər İcra Hakimiyyəti

**“B2B” xidmətlər üzrə:**

1. “Beynəlxalq Bank” ASC
2. “Kapital Bank” ASC
3. “Shams Group” MMC

**2024-cü ilin 11 ayı üzrə** “Yevlax KOB evi”ndə sahibkarlıq subyektlərinə **101 864 xidmət göstərilib.** Bu xidmətlərdən 97 645-i “G2B”, 4219-u “B2B” xidmətlərdir.

**“G2B” qurumların xidmət sayı:**

| № | Qurumlar | Say | Faiz |
|---|---|---|---|
| 1. | “Azərpoçt” MMC | 58545 | 59,96 |
| 2. | Dövlət Reklam Agentliyi | 32033 | 32,81 |
| 3. | Dövlət Vergi Xidməti | 3512 | 3,60 |
| 4. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 949 | 0,97 |
| 5. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 739 | 0,76 |
| 6. | “Azəriqaz” İB | 569 | 0,58 |
| 7. | “Azərişıq” ASC | 466 | 0,48 |
| 8. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 301 | 0,31 |
| 9. | Qida Təhlükəsizliyi Agentliyi | 236 | 0,24 |
| 10. | İqtisadiyyat Nazirliyi | 148 | 0,15 |
| 11. | Kənd Təsərrüfatı Nazirliyi | 107 | 0,11 |
| 12. | Əmlak Məsələləri Dövlət Xidməti | 23 | 0,02 |
| 13. | Yevlax Şəhər İcra Hakimiyyəti | 12 | 0,01 |
| 14. | “Azərbaycan Dəmir Yolları” QSC | 5 | 0,01 |
| | **TOPLAM:** | 97 645 | 100% |

Xidmətlərdən
**35 764-ü**
sənəd qəbulu,
**64 277-si**
hazır sənəd,
**1823-ü**
informasiya
xidmətləri üzrə
olub.

**“B2B” qurumların xidmət sayı:**

| № | Qurumlar | Say | Faiz |
|---|---|---|---|
| 1. | “Beynəlxalq Bank” ASC | 3607 | 85,49 |
| 2. | “Shams Group” MMC | 484 | 11,47 |
| 3. | “Kapital Bank” ASC | 128 | 3,03 |
| | **TOPLAM:** | 4 219 | 100% |




2024-cü ilin **11** ayı üzrə “Yevlax KOB evi”ndə sahibkarlıq subyektlərinə **101864** xidmət göstərilib. Bu xidmətlərdən **97645-i** “G2B”, **4219-u** “B2B” xidmətlərdir. Xidmətlərdən **35764-ü** sənəd qəbulu, **64277-si** hazır sənəd, **1823-ü** informasiya xidmətləri üzrə olub.

"G2B" və "B2B" qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **sənəd qəbulu xidməti 35,11% təşkil edib.**

| № | Qurumlar | Sənəd qəbulu | Faiz |
|---|---|---|---|
| 1. | "Azərpoçt" MMC | 34831 | 97,39 |
| 2. | Dövlət Vergi Xidməti | 536 | 1,50 |
| 3. | "Shams Group" MMC | 193 | 0,54 |
| 4. | Kənd Təsərrüfatı Nazirliyi | 55 | 0,15 |
| 5. | Qida Təhlükəsizliyi Agentliyi | 35 | 0,10 |
| 6. | İqtisadiyyat Nazirliyi | 26 | 0,07 |
| 7. | "Beynəlxalq Bank" ASC | 21 | 0,06 |
| 8. | "Azəriqaz" İB | 19 | 0,05 |
| 9. | "Kapital Bank" ASC | 19 | 0,05 |
| 10. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 15 | 0,04 |
| 11. | "Azərişıq" ASC | 13 | 0,04 |
| 12. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 1 | 0,00 |
| 13. | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00 |
| 14. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 0 | 0,00 |
| 15. | Əmlak Məsələləri Dövlət Xidməti | 0 | 0,00 |
| 16. | Yevlax Şəhər İcra Hakimiyyəti | 0 | 0,00 |
| 17. | Dövlət Reklam Agentliyi | 0 | 0,00 |
| | **TOPLAM:** | 35 764 | 100% |

"G2B" və "B2B" qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **hazır sənəd xidməti 63,10% təşkil edib.**

| № | Qurumlar | Hazır sənəd | Faiz |
|---|---|---|---|
| 1. | Dövlət Reklam Agentliyi | 32030 | 49,83 |
| 2. | "Azərpoçt" MMC | 23680 | 36,84 |
| 3. | "Beynəlxalq Bank" ASC | 3514 | 5,47 |
| 4. | Dövlət Vergi Xidməti | 1913 | 2,98 |
| 5. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 944 | 1,47 |
| 6. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 660 | 1,03 |
| 7. | "Azəriqaz" İB | 506 | 0,79 |
| 8. | "Azərişıq" ASC | 397 | 0,62 |
| 9. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 276 | 0,43 |
| 10. | "Shams Group" MMC | 184 | 0,29 |
| 11. | Qida Təhlükəsizliyi Agentliyi | 149 | 0,23 |
| 12. | İqtisadiyyat Nazirliyi | 22 | 0,03 |
| 13. | Əmlak Məsələləri Dövlət Xidməti | 1 | 0,00 |
| 14. | Kənd Təsərrüfatı Nazirliyi | 1 | 0,00 |
| 15. | Yevlax Şəhər İcra Hakimiyyəti | 0 | 0,00 |
| 16. | "Azərbaycan Dəmir Yolları" QSC | 0 | 0,00 |
| 17. | "Kapital Bank" ASC | 0 | 0,00 |
| | **TOPLAM:** | 64 277 | 100% |

"G2B" və "B2B" qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **informasiya xidməti 1,79% təşkil edib.**

| № | Qurumlar | İnform. xidməti | Faiz |
|---|---|---|---|
| 1. | Dövlət Vergi Xidməti | 1063 | 58,31 |
| 2. | "Kapital Bank" ASC | 109 | 5,98 |
| 3. | "Shams Group" MMC | 107 | 5,87 |
| 4. | İqtisadiyyat Nazirliyi | 100 | 5,49 |
| 5. | "Beynəlxalq Bank" ASC | 72 | 3,95 |
| 6. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 64 | 3,51 |
| 7. | "Azərişıq" ASC | 56 | 3,07 |
| 8. | Qida Təhlükəsizliyi Agentliyi | 52 | 2,85 |
| 9. | Kənd Təsərrüfatı Nazirliyi | 51 | 2,80 |
| 10. | "Azəriqaz" İB | 44 | 2,41 |
| 11. | "Azərpoçt" MMC | 34 | 1,87 |
| 12. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 24 | 1,32 |
| 13. | Əmlak Məsələləri Dövlət Xidməti | 22 | 1,21 |
| 14. | Yevlax Şəhər İcra Hakimiyyəti | 12 | 0,66 |
| 15. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 5 | 0,27 |
| 16. | "Azərbaycan Dəmir Yolları" QSC | 5 | 0,27 |
| 17. | Dövlət Reklam Agentliyi | 3 | 0,16 |
| | **TOPLAM:** | 1 823 | 100% |









# “FoodCity” Aqroparkında Xidmət Mərkəzi

2024-cü ilin avqust ayından Xudat şəhərindəki “Foodcity” Aqroparkında fəaliyyətə başlamış “Xaçmaz KOB evi”nin xidmət mərkəzində sahibkarlara **5** dövlət qurumu tərəfindən “G2B”, **2** özəl qurum tərəfindən “B2B” xidmətlər göstərilir.

“Foodcity” Aqroparkında “Xaçmaz KOB evi”nin xidmət mərkəzində sahibkarlara **5 dövlət qurumu tərəfindən “G2B”**, 2 özəl qurum tərəfindən **“B2B”** xidmətlər göstərilir.

## Xidmət mərkəzində xidmət göstərən qurumlar:

**“G2B” xidmətlər üzrə:**

1. İqtisadiyyat Nazirliyi
   - Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti
   - Dövlət Vergi Xidməti
2. Dövlət Gömrük Komitəsi
3. “Azterminalkompleks” Birliyi
4. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi
5. Qida Təhlükəsizliyi Agentliyi

**“B2B” xidmətlər üzrə:**

1. “Kapital Bank” ASC
2. “Azərbaycan Gömrük Təmsilçiliyi Logistika” MMC



**“G2B” qurumların xidmət sayı:**

| № | Qurumlar | Say | Faiz |
|---|---|---|---|
| 1. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 4439 | 41,61 |
| 2. | Dövlət Gömrük Komitəsi | 3607 | 33,81 |
| 3. | Qida Təhlükəsizliyi Agentliyi | 2356 | 22,09 |
| 4. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 212 | 1,99 |
| 5. | “Azterminalkompleks” Birliyi | 53 | 0,50 |
| 6. | Dövlət Vergi Xidməti | 0 | 0,00 |
| | **TOPLAM:** | 10 667 | 100% |

2024-cü ilin avqust ayından xidmət mərkəzində sahibkarlıq subyektlərinə **10 667 “G2B” xidmət göstərilib.**

2024-cü ilin avqust ayından xidmət mərkəzində sahibkarlıq subyektlərinə **10667** xidmət göstərilib ki, bunların hamısı “G2B” xidmətlərdir.

| № | Qurumlar | Hazır sənəd | Faiz |
|---|---|---|---|
| 1. | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 4439 | 41,61 |
| 2. | Dövlət Gömrük Komitəsi | 3607 | 33,81 |
| 3. | Qida Təhlükəsizliyi Agentliyi | 2356 | 22,09 |
| 4. | Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | 212 | 1,99 |
| 5. | “Azterminalkompleks” Birliyi | 53 | 0,50 |
| 6. | Dövlət Vergi Xidməti | 0 | 0,00 |
| 7. | “Kapital Bank” ASC | 0 | 0,00 |
| 8. | “Azərbaycan Gömrük Təmsilçiliyi Logistika” MMC | 0 | 0,00 |
| | **TOPLAM:** | 10 667 | 100% |

“G2B” və “B2B” qurumların göstərdiyi xidmətlərin statistikasına əsasən, **hazır sənəd xidməti 100%** təşkil edib.

# 02 KOB-LARIN BİLİK VƏ BACARIQLARININ İNKİŞAFI

## KOB inkişaf mərkəzləri

2024-cü ildə KOB-ların biznes sahəsində maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə KOBİA-nın strukturuna daxil olan KOB inkişafı mərkəzləri (KOBİM-lər) tərəfindən müxtəlif mövzularda **900-ə qədər təlim** keçirilib, **11000 saatdan çox** məsləhət xidməti göstərilib. Bu xidmətlərdən ümumilikdə **9700** KOB subyekti, startap və biznesə başlamaq istəyənlər faydalanıb.

KOBİM-lər tərəfindən 2024-cü ildə sahibkarlara **500-dən çox** biznes planın hazırlanmasında dəstək göstərilib. 2024-cü ildə KOBİM-lərin dəstəyi ilə Bakı və müxtəlif regionlarda kənd təsərrüfatı və xidmət sahələrində **20 yeni KOB** subyektinin yaradılmasına dəstək təmin olunub.



**2024-cü ildə:**

- **8 800** iştirakçıya – 900-ə qədər təlim keçirilib;
- **800** KOB subyektinə – 11000 saata qədər məsləhət xidməti göstərilib;
- **500**-dən çox biznes plan hazırlanıb;
- **20** yeni KOB subyektinin yaradılmasına dəstək göstərilib.



Qeyd edək ki, 2020-ci ildən etibarən KOBİM-lər tərəfindən KOB subyektlərinin, biznesə başlamaq istəyənlərin və star-tapların biznes sahəsində bilik və bacarıqlarının artırılması üçün onlayn və oflayn formatlarda təlimlər keçirilir, fərdi və qrup halında məsləhət xidmətləri göstərilir, biznes planın hazırlanmasına, KOB-ların şəbəkələşməsinə və s. istiqamətlərdə dəstək göstərilir.

Hazırda KOBİM-lər ölkənin **8 iqtisadi rayonunda** fəaliyyət göstərir. Bu mərkəzlər fəaliyyət göstərdikləri şəhərlə yanaşı, ətraf şəhər və rayonlara da xidmət edir. KOBİM-lər tərəfindən təşkil olunan təlimlər biznesə başla, soft skils (yumşaq bacarıqlar), layihə idarəetməsi, maliyyənin idarə olunması, korporativ hüquq, satış, marketinq, rəqəmsal bacarıqlar, "yaşıl iqtisadiyyat", sosial sahibkarlıq və s. istiqamətləri əhatə edir. KOB subyektləri satış kanallarına çıxışa dəstək, marketinq, biznes planlaşdırılması, mühasibatlıq, hüquq xidmətləri və digər məsələlərlə bağlı məsləhət xidməti üçün KOBİM-lərə müraciət edə bilərlər. KOBİM-lər tərəfindən göstərilən bütün xidmətlər ödənişsizdir. KOBİM-lərin xidmətlərindən faydalanmaq istəyən biznes subyektləri **www.kobim.az** vahid onlayn platforma vasitəsilə ətraflı məlumat ala və müraciət edə bilərlər.







# KOB Model Müəssisə

2024-cü ilin fevral ayında Azərbaycan Texniki Universitetində KOBİA tərəfindən yaradılmış **KOB Model Müəssisə fəaliyyətə başlayıb.**







**Model müəssisə** – kiçik və orta sənaye müəssisələrinin səmərəli və rəqabətqabiliyyətli olmasına imkan verəcək, qənaətli idarəetmə üsullarına əsaslanan tədris və təcrübə mərkəzidir. KOB Model Müəssisənin məqsədi yalnız müəssisələrdə səmərəli və qənaətli istehsalın təşviqi deyil, həm də mümkün qədər çox kiçik və orta biznes subyektini təlim və layihələrin həyata keçirilməsi sahəsində məsləhət dəstəyi ilə təmin etməklə qənaətli transformasiya prosesinin genişləndirilməsidir. Model müəssisənin imkanlarından faydalanan KOB subyektlərinin mühəndisləri və texniki heyəti qənaət üsullarını təcrübə əsnasında öyrənir və bu metodları öz şirkətlərində tətbiq edirlər. Bu isə həm işçilərin, həm də şirkətin məhsuldarlıq və rəqabətqabiliyyətlilik üzrə bacarıqlarını artırır.

Beynəlxalq təcrübə araşdırılmaqla yaradılmış KOB Model Müəssisədə ilkin planlaşdırmadan başlayaraq müəssisənin qurulmasına qədər real biznes prosesini əyani müşahidə etmək mümkündür. “Görmə, eşitmə və icra etmə” konsepsiyası əsasında fəaliyyət göstərən KOB Model Müəssisə zəruri avadanlıqlarla təchiz olunub ki, bu da nəzəri biliklərin təcrübədə sınaqdan keçirilməsinə, müasir texnoloji avadanlıqların fəaliyyətini əyani görməyə, istehsal prosesində resursa, vaxta və xərclərə qənaət üsullarını öyrənməyə imkan verir. KOB Model Müəssisənin təlimçiləri tərəfindən “Kaizen”, “Six Sigma”, “5S”, “KPI-KAI” və s. kimi strategiya və modellərə dair mövzular tədris olunur və tətbiqi sınaqdan keçirilir. Model Müəssisə tərəfindən keçirilən təlimlərdə sahibkarlarla yanaşı, aidiyyəti ixtisaslar üzrə təhsil alan tələbələr və





KOB Model Müəssisə tərəfindən sahibkarlara göstərilən **bütün xidmətlər ödənişsizdir.**

bu fənləri tədris edən müəllimlər də iştirak edə bilərlər.

KOB Model Müəssisə tərəfindən sahibkarlara göstərilən bütün xidmətlər ödənişsizdir.

2024-cü ildə KOB Model Müəssisənin təlim və praktik təcrübə imkanlarından 144 sahibkar və onların əməkdaşları faydalanıb. Onlar model müəssisədə keçirilən təlimlərdə öyrəndikləri bilikləri və metodları istehsal prosesində tətbiq edərək uğurlu nəticələr, o cümlədən istehsalatda məhsuldarlığın artmasına nail olub, vaxt və xərclərə qənaət edə biliblər.




















KOBİA tərəfindən yaradılmış videotəlim platformasından

**2024-cü ildə 100-dən çox**

KOB subyekti yararlanıb.

## Videotəlim platforması

KOBİA tərəfindən yaradılmış videotəlim platformasından 2024-cü ildə **100-dən çox** KOB subyekti yararlanıb. Bu platformada hazırda hər biri **20** mövzudan ibarət olmaqla biznesə başla, yumşaq bacarıqlar, korporativ hüquq, layihə idarəetməsi, maliyyə, satış, marketinq, turzim, ixrac prosesinin təşkili istiqamətləri üzrə ümumilikdə 180 təlim videosu, təlim mövzularının təqdimatları, müvafiq özünüqiymətləndirmə testləri və təlimçilər barədə məlumatlar öz əksini tapıb. Videotəlimlərdən **www.kobim.az** saytında qeydiyyatdan keçməklə faydalanmaq olar.













Videotəlim platforması sahibkarların təlim-tədris imkanlarının genişləndirilməsi və biznes sahəsində qabaqcıl təcrübənin tətbiqinin sürətləndirilməsi məqsədilə innovativ yanaşma və müasir təcrübə əsasında yaradılıb.




## Menecerlər üçün təlim proqramı

2024-cü ildə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 60 sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnmək üçün “Almaniya ilə biznes əməkdaşlığı” Proqramı çərçivəsində Almaniyada ixtisasartırma kursu keçərək beynəlxalq sertifikat alıb. Ümumilikdə isə 2009-2024-cü illərdə 619 sahibkar və menecer bu proqramdan faydalanıb.

Azərbaycan sahibkarlarının və menecerlərinin biznes sahəsində beynəlxalq təcrübəyə yiyələnməsi, bilik və bacarıqlarının artırılması, Almaniyanın qabaqcıl şirkətləri ilə birbaşa işgüzar əlaqələrinin qurulması məqsədilə həyata keçirilən proqramın Azərbaycan tərəfindən əlaqələndiricisi KOBİA, Almaniya tərəfindən isə Beynəlxalq Əməkdaşlıq Cəmiyyətidir (GİZ).

**2009-2024-cü illərdə**
Proqramdan faydalanan sahibkar və menecerlər:
**619 nəfər**

# 2024-cü ildə:

- **60 sahibkar və menecer** beynəlxalq ixtisasartırma kursu keçib;
- **144 sahibkarlıq subyekti** KOB Model Müəssisənin imkanlarından faydalanıb;
- **100-dən çox KOB subyekti** videotəlim platfomasından yararlanıb









# 03 KOB DOSTU şəbəkəsi

## Kiçik və Orta Biznesin Dostu şəbəkəsi

**KOBİA-nın sahibkarlara yerində dəstəyin göstərilməsi mexanizmlərindən biri də Kiçik və Orta Biznesin Dostu (KOB dostu) şəbəkəsidir. Agentliyin regionlardakı fəaliyyəti bu şəbəkə vasitəsilə həyata keçirilir.**

KOB dostları biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək istəyən biznes subyektlərinə mövcud dövlət dəstəyi mexanizmləri, o cümlədən Agentliyin xidmətləri çərçivəsində zəruri dəstəyi təmin edir. Yeni biznes subyektlərinin yaranmasına, sahibkarların qanuni maraqlarının müdafiəsinə və onların investisiya təşəbbüslərinin reallaşdırılmasına dəstək KOB dostunun başlıca fəaliyyət istiqamətlərindəndir. KOB dostu şəbəkəsinin fəaliyyətinin daha bir mühüm istiqaməti sorğu və monitorinqlərin keçirilməsidir. Sahibkarlarla sıx əlaqədə olan KOB dostları onların inkişaf ehtiyaclarını sorğular vasitəsilə öyrənir. Eyni zamanda bu şəbəkə vasitəsilə yerlərdə KOB-lara göstərilən xidmətlərin monitorinqi aparılır.








# KOB dostu rəqəmlərdə

**2024-cü ildə** Laçın, Ucar, Samux və Goranboy rayonlarında olmaqla dörd KOB dostu ofisi fəaliyyətə başlayıb. Hazırda KOB dostları ölkənin **14 iqtisadi rayon** üzrə **54 KOB dostu** ofisi olmaqla, **52 şəhər və rayonu** əhatə edir. Bu şəhər və rayonlarda ümumilikdə **10** koordinator və **56** KOB dostu sahibkaralara xidmət göstərir.

Azərbaycanda hazırda **10 koordinator və 56 KOB dostu** fəaliyyət göstərir.






## Monitorinq, sorğu və müşahidələrin aparılması üzrə fəaliyyət

Sahibkarlığın inkişafı üçün ölkədəki biznes mühitinin dəyərləndirilməsi, sahibkarların qarşılaşdığı çətinliklərin, onların şikayət və təkliflərinin öyrənilməsi, biznes mühitindəki problemlərlə tanışlıq, onların gələcək fəaliyyətinin biznes ehtiyaclarına uyğun qurulması baxımından əhəmiyyətlidir. Bu istiqamətdə KOB subyektləri arasında sorğular keçirilir.

2024-cü ildə KOB dostu şəbəkəsi tərəfindən KOB-ların ehtiyacları nəzərə alınmaqla ümumilikdə 1172 respondent arasında 6 sorğu keçirilib. Sorğular biznesə başlama sahəsində aparılmış islahatların üstünlükləri və nəticələri, beynəlxalq ticarətin səmərəliliyini artırmaq üçün xarici ölkələrin sərhəddə ticarətlə bağlı qabaqcıl təcrübələrinin öyrənilməsi, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin zəmanət və subsidiya mexanizmi ilə bağlı kredit müraciətləri və Zəngilan rayonunun Ağalı kənd sakinlərinin biznes ideyalarının, bilik və bacarıqlarının öyrənilməsi mövzularını əhatə edib.

Eyni zamanda, "Gənclərin Biznes Emalatxanası" layihəsi üzrə layihədən yararlanmış şəxslərin fəaliyyəti monitorinq olunub və onların əldə etdiyi vəsaitlərin bizneslərinə təsiri və digər dəstəyə ehtiyacları öyrənilib.

2024-cü ildə KOB dostu şəbəkəsi tərəfindən ümumilikdə

**1172 sahibkarlıq subyektinin iştirakı ilə 6 sorğu keçirilib.**

# Keçirilmiş tədbirlər və görüşlər



2024-cü ildə KOB dostları tərəfindən ümumilikdə **110 görüş** təşkil edilib. Bu görüşlərin **100-ü** sahəvi, **10-u** maarifləndirmə tədbiri olub və bu tədbirlərdə **2800-dən çox** sahibkar iştirak edib. Sahəvi görüşlərdə əsasən, kənd təsərrüfatı, çayçılıq, üzümçülük, heyvandarlıq, quşçuluq, istixana fəaliyyəti, şərabçılıq, turizm, nəqliyyat, logistika və poçt daşımaları, ictimai-iaşə, ticarət, KOB klaster, maliyyə, qadın və gənc sahibkarlıq, idxal-ixrac, reklam fəaliyyəti üzrə sahibkarlıq subyektləri iştirak ediblər. Aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş görüşlərdə səsləndirilən problem və təkliflər dövlət-sahibkar əməkdaşlıq platformasında müzakirə olunub. Sahəvi görüş və maarifləndirmə tədbirləri ilə yanaşı, müvafiq dövlət qurumları, biznes assosiasiyaları və sahibkarın iştirakı ilə KOBİA yanında İctimai Şuranın 4 iclası keçirilib.









# "REGİONAL TƏRƏFDAŞLARIN İNKİŞAFI" layihəsi çərçivəsində Xaçmazda tədbir

Regionlarda fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanları, bu sahədə mövcud olan dövlət dəstəyi mexanizmləri barədə məlumatlandırılması məqsədilə "Regional tərəfdaşların inkişafı" layihəsi 2024-cü ildə də davam etdirilib.

Martın 1-də "Regional tərəfdaşların inkişafı" layihəsi çərçivəsində Xaçmaz rayonunda tədbir keçirilib. KOBİA və "Marsol Group"un təşkilatçılığı ilə "Xaçmaz KOB evi"ndə keçirilən tədbirdə Bakı şəhərindən və Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzəndən 200-dən çox sahibkar, eləcə də müvafiq dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə Xaçmaz Rayon İcra Hakimiyyəti, KOBİA, Sahibkarlığın İnkişafı Fondu, Aqrar Kredit və İnkişaf Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Milli Məclisinin deputatları sahibkarlara göstərilən dəstək və xidmətlər, o cümlədən dövlətin güzəştli kreditləri,















subsidiyalar, biznesin maliyyələşdirilməsi sahəsində yeniliklər, alternativ maliyyələşdirmə alətləri, özünüməşğulluq proqramının sahibkarlığa başlanılmasında rolu, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara göstərilən xidmətlər barədə məlumat veriblər.

Həmçinin tədbir çərçivəsində "Region sahibkarlarının maliyyə kanallarına çıxış imkanları və dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirə təşkil olunub, sahibkarların təklifləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.







## UCARDA sahibkarlarla görüş

Martın 14-də KOBİA-nın təşkilatçılığı ilə Ucar rayonunda bölgədə fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib. Tədbirdə 80-ə yaxın sahibkar və müvafiq dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə KOBİA və Ucar Rayon İcra Hakimiyyətinin nümayəndələri tərəfindən sahibkarlara göstərilən dövlət dəstəyi tədbirləri, rayonun iqtisadi potensialı və biznes imkanları barədə məlumat verilib. KOBİA-nın dəstək və xidmətləri, eləcə də KOB dostu mexanizmi barədə məlumat da sahibkarların diqqətinə çatdırılıb, Ucar rayonu üzrə KOB dostu rayonun biznes ictimaiyyətinə təqdim edilib.

Həmçinin tədbirdə KOB dostu mexanizmi, KOBİA-nın mikro və kiçik sahibkarlara göstərdiyi dəstək barədə videoçarxlar nümayiş olunub, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Tədbir iştirakçıları Ucar Gənclər Evində yerləşən KOB dostu ofisində sahibkarlara dəstək və xidmətlərin göstərilməsi üçün yaradılmış şəraitlə də tanış olublar.

## SUMQAYIT Dövlət Universitetinin tələbə və müəllim heyəti ilə görüş

Aprelin 5-də KOBİA əməkdaşları Sumqayıt Dövlət Universitetinin tələbə və müəllim heyəti ilə görüşüb. Görüşdə KOBİA-nın fəaliyyəti, dəstək və xidmətləri, xüsusilə də gənclərin daha çox maraq göstərdiyi "Startap" şəhadətnaməsi, "Bakı KOB evi"ndə fəaliyyət göstərən Startap İnkişaf Mərkəzi, təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üçün qrant dəstəyi barədə məlumat verilib.



Tədbirdə universitetlə gələcək əməkdaşlıq imkanları, gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi, tələbələrin biznes bacarıqlarının inkişaf etdirilməsi, onların KOBİA tərəfindən təşkil olunan biznes təlimlərinə cəlb edilməsi və mentorluq dəstəyinin göstərilməsi, biznes sahəsində uğur əldə etmiş iş adamları ilə tələbələrin görüşlərinin təşkili barədə fikir mübadiləsi aparılıb. Görüş çərçivəsində həmçinin sahibkarlıq fəaliyyətinə maraq göstərən tələbələrin, biznesin idarəedilməsi və menecment kimi ixtisasları tədris edən müəllimlərin sualları cavablandırılıb.

Qeyd edək ki, Sumqayıt Dövlət Universitetinin tələbəsinin onlayn psixoloq xidmətinin təşkili layihəsinə 2022-ci ildə KOBİA tərəfindən "Startap" şəhadətnaməsi verilib.





## SAMUXDA sahibkarlar ilə görüş

Aprelin 9-da Samux rayonunda KOBİA-nın təşkilatçılığı ilə sahibkarlarla görüş keçirilib. Samux və ətraf bölgələrdən 200-ə yaxın sahibkar, eləcə də bölgədə biznes subyektlərinə xidmət göstərən dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbir çərçivəsində Samux rayonu üzrə KOB dostu rayonun biznes ictimaiyyətinə təqdim edilib.

Görüş çərçivəsində sahibkarların çətinliklərinə və ehtiyaclarına dair fikir və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb. Samux Rayon İcra Hakimiyyətinin və KOBİA-nın nümayəndələri tərəfindən rayonda sahibkarlıq fəaliyyəti və investisiya qoyuluşu üçün imkanlar, Agentliyin dəstək və xidmətləri, KOB dostu mexanizmi barədə məlumat verilib.












# “SAHİBKARLAR GÜNÜ”nə həsr olunmuş konfrans

Aprelin 25-də “Gülüstan” sarayında “Sahibkarlar Günü”nə həsr olunmuş “Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü” mövzusunda Konfrans keçirilib.

İqtisadiyyat Nazirliyinin dəstəyi, KOBİA və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə keçirilmiş tədbirdə dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

Tədbirdə dövlət və özəl qurumların nümayəndələri tərəfindən çıxışlar edilib, ölkəmizdə sahibkarlığın inkişafına və ASK-nın 25 illiyinə dair filmlər nümayiş olunub, dövlət-özəl dialoqunun inkişafına verdiyi töhfəyə görə bir qrup sahibkar mükafatlandırılıb.
























Konfransın sonunda Prezident İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunub.

# GORANBOY rayonunda sahibkarlarla görüş

Sahibkarların dövlət dəstəyi mexanizmləri, biznes sahəsində yeniliklər barədə məlumatlandırılması, inkişaf ehtiyaclarının və təkliflərinin dinlənilməsi məqsədilə mayın 23-də KOBİA tərəfindən Goranboy rayonunda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib.

Görüşdə sahibkarlığın qurulmasına və inkişafına göstərilən dövlət dəstəyi tədbirləri, o cümlədən KOBİA-nın xidmətləri barədə ətraflı məlumat verilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb. Tədbirdə sahibkarlar tərəfindən səsləndirilən təkliflərin aidiyyəti üzrə müvafiq qurumlara çatdırılacağı qeyd edilib.



130-a yaxın sahibkarın iştirak etdiyi tədbirdə Goranboy Rayon İcra Hakimiyyətinin, rayonda sahibkarlara dəstək və xidmət göstərən qurumların nümayəndələri iştirak ediblər.

Görüş çərçivəsində KOBİA-nın Goranboy Mədəniyyət Mərkəzində fəaliyyət göstərən KOB dostu ofisi barədə də məlumat verilib.








# GÖYÇAYDA sahibkarlarla görüş

İyunun 13-də Göyçayda Sahibkarlığın İnkişafı Fondunun və Göyçay Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Sahibkarlığın inkişafına dəstək" mövzusunda sahibkarlarla görüş keçirilib.

Görüşdə Göyçay Rayon İcra Hakimiyyəti, Milli Məclisin deputatı, KOBİA və Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara göstərilən dövlət dəstəyi tədbirləri və mexanizmləri barədə məlumat verilib, sahibkarların sualları cavablandırılıb, təklifləri dinlənilib.



# ƏTRAF MÜHİTİ İDARƏETMƏ sistemlərinə dair tədbir

İyulun 18-də "Bakı KOB evi"ndə KOBİA-nın dəstəyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə sahibkarlar üçün "İSO 140001 ətraf mühiti idarəetmə sistemləri. Tələblər və tətbiqinə dair rəhbərlik" mövzusunda maarifləndirici tədbiri keçirilib.



Tədbir müəssisələrin resurslardan effektiv istifadə edilməsi və tullantıların azaldılması hesabına özlərinin ətraf mühit performansını artırması, rəqabət üstünlükləri əldə etməsində və maraqlı tərəflərin inam və etibarını qazanmasında "ISO 14001 ətraf mühiti idarəetmə sistemləri. Tələblər və tətbiqinə dair rəhbərlik" standartının verəcəyi üstünlüklər barədə məlumatlandırılması məqsədilə təşkil olunub.

20-yə yaxın biznes subyektinin iştirak etdiyi tədbirdə beynəlxalq standartın tələbləri və tətbiqi barədə ətraflı məlumat verilib, sahibkarların sualları cavablandırılıb.

Tədbir Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı çərçivəsində keçirilib.

# ABŞERON rayonunda sahibkarlarla görüş

Avqustun 2-də KOBİA-nın təşkilatçılığı və Abşeron Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Abşeron rayonunda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib. Görüşdə KOBİA-nın və Abşeron Rayon İcra Hakimiyyətinin nümayəndələri, rayonda kənd təsərrüfatı, tikinti, qida, mebel istehsalı və alternativ enerji sektorlarında fəaliyyət göstərən 120-dən çox KOB subyekti iştirak edib.

Tədbirdə sahibkarlara göstərilən dövlət dəstəyi tədbirləri və dəstək mexanizmləri, yeni çağırışlar, rayonun iqtisadi potensialı və biznes imkanları barədə məlumat verilib. Sahibkarların təklifləri və təşəbbüsləri əsasında dövlətin dəstək tədbirlərinin davam etdiriləcəyi qeyd olunub. İş adamları ilə sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi, torpaqların təyinatının dəyişdirilməsi, Qarabağda yeni bizneslərin yaradılması, iri ticarət şəbəkələrinə çıxışa dəstək, yeni bazarlarla əlaqələrin qurulması, xarici ölkə sahibkarları ilə təcrübə mübadiləsinə dəstək, sənaye zonalarının imkanları, kommunal xidmətlər, biznes inkubatorların yaradılması, qadın və gənc sahibkarlar üçün yeni dəstək mexanizmlərinin formalaşdırılması kimi məsələlər barədə müzakirələr aparılıb. Görüşdə həmçinin sahibkarların çətinlikləri və təşəbbüsləri dinlənilib, sualları cavablandırılıb.







# ATMOSFER HAVASININ MÜHAFİZƏSİ ilə bağlı sahibkarlarla müzakirə













Avqustun 28-də "Bakı KOB evi"ndə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və KOBİA-nın təşkilatçılığı ilə atmosfer havasının mühafizəsi sahəsində sahibkarların maarifləndirilməsi məqsədilə görüş keçirilib. Nazirliyin müvafiq qurumlarının iştirakı ilə təşkil olunan tədbirdə sənaye və ictimai-iaşə (restoran, şadlıq evi) sahəsində fəaliyyət göstərən 50-yə yaxın sahibkar iştirak edib.

Tədbirdə atmosfer havasının mühafizəsi, bu sahədə qanunvericiliyin tələbləri sahibkarların diqqətinə çatdırılıb. Qeyd olunub ki, "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, hüquqi və fiziki şəxslər atmosferə atılan tullantıların qarşısını almalı,








onların zərərsizləşdirilməsi təmin olunmalı, az tullantılı və tullantısız texnologiyalar tətbiq edilməli, bu sahədə normativlərə əməl olunmalıdır. Həmçinin sahibkarların diqqətinə çatdırılıb ki, sənaye və ictimai iaşə obyektlərində qaz-toz tutucu qurğuların quraşdırılması, bu qurğulara mütəmadi texniki xidmətin göstərilməsi və filtrlərin təmizlənməsi, atmosferə atılan tullantılarla bağlı uçot və hesabatın aparılması, məlumatların regional ekologiya və təbii sərvətər idarəsinə təqdim edilməsi vacibdir.

Görüş çərçivəsində biznes subyektlərinin təklifləri və çətinlikləri öyrənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb və sahibkarların sualları cavablandırılıb.

# “İNVESTİSİYA TURU” tədbiri










Sentyabrın 3-də Azərbaycanın innovasiya ekosisteminin inkişafına töhfə vermək, yerli startapların layihələrini investorlara təqdim etməsinə və xarici bazarlara çıxmasına dəstək olmaq, əlaqələrini genişləndirmək məqsədilə dövlət və özəl sektorun iştirakı ilə tədbir keçirilib. KOBİA-nın tərəfdaşlığı və “Özbahçeci İnvest Club”un təşkilatçılığı ilə keçirilmiş “İnvestisiya turu” adlı tədbirdə 50-dən çox yerli və xarici investor, iş adamları iştirak edib.

Tədbirdə altı yerli startap layihəsini potensial investorlara təqdim edib. Layihələr investorlar tərəfindən maraqla qarşılanıb. İnvestorlar tərəfindən seçilən ən yaxşı layihəyə texniki və mentorluq dəstəyi göstəriləcək.





Tədbirdə KOBİA nümayəndələri tərəfindən ölkəmizdə startap ekosisteminin inkişafı, bu istiqamətdə dəstək tədbirləri, o cümlədən KOBİA-nın dəstək alətləri, gənc və innovativ sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi sahəsində dövlət-özəl sektor əməkdaşlığı barədə məlumat verilib.

Həmçinin tədbir çərçivəsində KOBİA və “Özbahçeci İnvest Club” arasında əməkdaşlıq haqqında Niyyət Protokolu da imzalanıb. Sənəd Azərbaycan startaplarının inkişafı üçün əməkdaşlıq məsələlərini, o cümlədən birgə təlim proqramlarını, mentorluq xidmətini, startaplar və kiçik biznes üçün digər dəstək tədbirlərini nəzərdə tutur.











## AZƏRBAYCAN TİCARƏT FORUMU

Oktyabrın 7-də KOBİA və Azərbaycan Gömrük Təmsilçiliyi və Logistika Şirkətlərinin Assosiasiyasının birgə təşkilatçılığı, "PAŞA Holding"in dəstəyi ilə Azərbaycan Ticarət Forumu keçirilib. "KOB-lar üçün imkanlar, mövcud vəziyyət və çağırışlar" mövzusuna həsr olunmuş forumda rəsmi şəxslərin, idxal-ixrac, istehsalat, logistika, gömrük təmsilçiliyi və s. sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələrinin iştirakı ilə idxal-ixrac əməliyyatları ilə bağlı mövcud vəziyyət və imkanlar, KOB-ların ixracda payının artırılması və ticarət sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Forumda çıxış edən Dövlət Gömrük Komitəsinin, KOBİA-nın,






İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələri ölkəmizdə sahibkarlıq fəaliyyəti üçün yaradılmış imkanlar, dövlət dəstəyi alətləri və güzəştlər, yerli məhsulların ixracı sahəsində mövcud vəziyyət və bu sahədə yeniliklər, KOB-ların idxal və ixracdakı mövqeyi və potensialı barədə fikirlərini bölüşüblər.

Həmçinin tədbirdə qeyd edilib ki, KOB-ların ticarət və logistika sahəsində inkişafına dəstək olmaq, bu sahədə dövlət-biznes dialoqunun davamlı xarakter daşıması üçün Azərbaycan Ticarət Forumu çərçivəsində müxtəlif tədbirlər keçiriləcək. Forumun ənənəvi olaraq növbəti illərdə də təşkil olunması nəzərdə tutulur.

Tədbir çərçivəsində yeni ticarət və investisiya imkanlarının, Azərbaycanın qlobal bazarlara inteqrasiyasının sürətləndirilməsi yollarının müzakirə olunduğu panel müzakirə də təşkil olunub, sahibkarların sualları cavablandırılıb.








# Respublika Əczaçılarının 5-ci KONFRANSI

Oktyabrın 10-da Beynəlxalq Əczaçı Gününə həsr olunmuş Respublika Əczaçılarının 5-ci Konfransı keçirilib. Səhiyyə Nazirliyinin və KOBİA-nın tərəfdaşlığı, "Əczaçılar Klubu" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə Milli Məclisin deputatları, aidiyyəti dövlət qurumlarının nümayəndələri və əczaçılıq sektorunda fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.

Əczaçılıq sektorunun vəziyyətinin, inkişaf perspektivlərinin və çətinliklərinin müzakirə edildiyi tədbirdə KOBİA tərəfindən əczaçılıq biznesinə dəstək mexanizmləri barədə məlumat verilib.





# QUBADA sahibkarlarla görüş

Oktyabrın 26-da Quba İş Adamlarına Dəstək (QİAD) platformasının təşkilatçılığı ilə Qubada 250-dən çox sahibkarın, eləcə də dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Görüşdə KOBİA-nı İdarə Heyəti sədrinin müavini Samir Hümbətov təmsil edib.

Tədbir bölgədə iqtisadi və işgüzar əlaqələrin, sahibkarlar arasında əməkdaşlıq imkanlarının genişləndirilməsi, biznes fəaliyyətinin təşviqi, ticarətin artırılması, bölgəyə xarici investisiyaların cəlb olunması, bununla da regionun inkişafına dəstək məqsədilə təşkil edilib.

Tədbirdə bölgədə sahibkarlıq fəaliyyəti, biznesin inkişaf etdirilməsi üçün imkanlar, regionun turizm potensialı, sahibkarlığın inkişafı üçün dövlət dəstəyi alətləri barədə məlumat verilib, sahibkarların fikirləri dinlənilib, sualları cavablandırılıb. Qeyd olunub ki, belə tədbirlər regionun sahibkarları arasında əlaqələrin genişləndirilməsi, yeni əməkdaşlıqların qurulması, iş adamlarının təkliflərinin dinlənilməsi baxımından əhəmiyyətlidir və mütəmadi olaraq təşkil olunacaqdır. Həmçinin tədbir çərçivəsində bölgənin iqtisadi və turizm potensialı ilə bağlı məlumatlandırıcı "Niyə Quba?!" adlı kitabçanın təqdimatı keçirilib.








# "ŞAMAXI RAYONUNUN ÖZƏL İNVESTİSİYALAR ÜÇÜN CƏLBEDİCİLİYİNİN ARTIRILMASI" layihəsi çərçivəsində biznes forum

Dekabrın 5-də Şamaxı Rayon İcra Hakimiyyətinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Elm və Təhsil Nazilriliyinin İqtisadiyyat İnstitutunun təşkilatçılığı ilə "Şamaxı rayonunun özəl investisiyalar üçün cəlbediciliyinin artırılması" layihəsi çərçivəsində biznes forum keçirilib.

Dövlət və özəl qurumların nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirdə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, İqtisadiyyat İnstitutunun direktoru Nazim Müzəffərli və İş Adamları Cəmiyyəti Milli Assosiasiyasının və "Marsol Group"un rəhbəri Tural Mustafayev ölkə regionlarının və sahibkarlığın inkişafına dövlət dəstəyi tədbirləri, Şamaxının biznes potensialı və bölgəyə investisiya qoyuluşu imkanları barədə fikirlərini bölüşüblər.

Tədbidə İqtisadiyyat İnstitutu tərəfindən 2024-cü il ərzində həyata keçirilmiş "Şamaxı rayonunun özəl investisiyalar üçün cəlbediciliyinin artırılmasına təşviq və dəstək mexanizmlərinin hazırlanması" layihəsi üzrə görülmüş işlər barədə məlumat verilib. Qeyd olunub ki, layihənin



məqsədi Şamaxı rayonuna özəl investisiyaların cəlb edilməsi imkanlarının araşdırılması, rayona sərmayə qoyuluşunun artırılması üçün təşviq və dəstək mexanizmlərinin hazırlanması olub. Bunun üçün Şamaxı rayonunun iqtisadi potensialı, demoqrafik xüsusiyyətləri, coğrafi mövqeyi, iqlim şəraiti, istehsal imkanları, insan kapitalı, maliyyə resursları ilə bağlı mövcud vəziyyət təhlil edilib, bir sıra xarici ölkələrin təcrübəsi öyrənilib, yerli sahibkarlar arasında sorğular keçirilib. Həmçinin layihə çərçivəsində sahibkarlarla görüşlər təşkil olunub, bir sıra dövlət qurumları, ekspertlər və KOBİA ilə əməkdaşlıq edilib.

Biznes forum zamanı məlumat verilib ki, tədqiqat Şamaxı rayonu üçün nəzərdə tutulsa da, ölkənin digər regionları üçün də nümunə olmaqla istifadə edilə, praktik idarəetmə qərarlarının hazırlanmasında, özəl investisiyaların cəlb olunmasında, yeni iş yerlərinin açılmasında, istehsalın artmasında yerli icra hakimiyyəti orqanları üçün faydalı ola bilər. Araşdırmanın nəticəsi olaraq Şamaxının investisiya cəlbediciliyinin və biznes imkanlarının təşviqi üzrə konsepsiya hazırlanıb. Bununla yanaşı, KOB klasterlərin yaradılması, təbii balın və yerli dərman bitkilərinin tədarükü və qablaşdırılması, məişət tullantılarının səmərəli idarə edilməsi, aqroparkların, tədarük məntəqələrinin və soyuducu anbarların genişləndirilməsi, sənaye məhəllələrinin yaradılması, turizmin inkişafı üzrə təkliflər verilib.








## KOBİA-nın özünüməşğulluq proqramına dəstəyi

Özünüməşğulluq proqramı mikro və kiçik sahibkarlıq fəaliyyətinə başlamaq istəyənlər üçün əlverişli imkanlar yaradır. KOBİA özünüməşğulluq proqramına cəlb olunan vətəndaşları potensial mikro və kiçik sahibkarlar kimi dəyərləndirir və proqram çərçivəsində öz təsərrüfatını – mikro biznesini qurmuş şəxslərə bizneslərinin inkişafı üçün dəstək göstərir. Agentlik proqram çərçivəsində müvafiq aktivlər əldə edərək mikro biznes qurmuş iştirakçılara sonrakı mərhələdə bizneslərinin inkişafı üçün biznesin planlaşdırılması, məsləhət xidməti, güzəştli maliyyə resurslarına, satışa və bazarlara çıxış, təlim, biznes planın hazırlanması kimi istiqamətlərdə dəstək və xidmətlər təqdim edir. Özünüməşğulluq proqramına qoşulmaq istəyən vətəndaşlar Dövlət Məşğulluq Agentliyinin yerli məşğulluq mərkəzlərinə müraciət etməklə və ya elektron qeydiyyat sistemindən istifadə etməklə yanaşı, KOBİA-nın dəstək və xidmətlərindən də faydalana bilərlər. KOBİA proqrama qoşulmaq istəyən vətəndaşlara məlumatlandırma, əlaqələndirmə və digər istiqamətlərdə dəstək göstərir.










**2024-cü ildə** də KOBİA vətəndaşların özünüməşğulluq proqramına qoşulması istiqamətində dəstək göstərib.







# Sahibkarlara "Dayaq" mükafatının təqdim olunması tədbiri

Dekabrın 16-da 2024-cü il üzrə "Dayaq" mükafatının sahibkarlara təqdim edilməsi üçün İqtisadiyyat Nazirliyinin dəstəyi, KOBİA-nın təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirdə dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, sahibkarlar və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev tədbirdəki çıxışlarında 2024-cü il ərzində ölkəmizdə sosial-iqtisadi sahədə, özəl bölmədə əldə olunmuş uğurlar, sahibkarların məşğulluğun təmin olunmasında rolu, növbəti illərdə iqtisadiyyat və sahibkarlıq sahəsində yeniliklər barədə məlumat veriblər. Milli Məclisin deputatı Nigar Arpadarai, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov isə çıxışlarında sahibkarlıq sahəsində qanunvericilik təşəbbüsləri, KOB-ların dayanıqlı və davamlı iqtisadi inkişafda, yaşıl keçiddə rolu, dövlət-özəl əməkdaşlığı barədə fikirlərini bölüşüblər.

Sonra 2024-cü ildə uğur qazanmış 15 sahibkarlıq subyektinə dövlət qurumlarının rəhbər şəxsləri tərəfindən müxtəlif nominasiyalar üzrə "Dayaq" müka-

















fatları təqdim edilib. Sahibkarlar "Turizm", "Fəal xarici şirkət", "Fəal ixracatçı şirkət", "Uğurlu fermer", "Gənc sahibkar", "Uğurlu qadın sahibkar", "İlin investoru", "Əlillik məhdudiyyət deyil", "İnnovativ həllər", "Uğurlu startap", "Naxçıvan Muxtar Respublikasında uğurlu şirkət", "Halal biznes", "Azad olunmuş ərazilərdə uğurlu biznes", "Yaşıl biznesin təşviqi" və "Təmiz ətraf mühit və yaşıl artım" nominasiyaları üzrə mükafatlandırılıblar. Həmçinin KOBİA tərəfindən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi KOB evlərində "G2B xidmətlərinin səmərəli təşkili" nominasiyası üzrə mükafata layiq görülüb.

Tədbir çərçivəsində KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsi məqsədilə KOBİA tərəfindən elan edilmiş 6-cı qrant müsabiqəsinin 20 qalibinə qrant mükafatları da təqdim olunub.

Sahibkarların ölkə iqtisadiyyatına verdiyi töhfə nəzərə alınaraq, 2022-ci ildən biznes nümayəndələrinə "Dayaq" mükafatı təqdim edilir. KOBİA tərəfindən təsis edilmiş "Dayaq" mükafatının məqsədi biznesində innovativ və müasir yanaşmalar tətbiq edən, ixracyönümlü məhsul və xidmətlər istehsal edən, aktiv investisiya fəaliyyəti ilə seçilən, məşğulluğun təmin edilməsinə öz töhvəsini verən şirkətləri mükafatlandırmaqla onları stimullaşdırmaq, eləcə də sahibkarların qazandıqları uğurları ictimaiyyətin diqqətinə çatdırmaq, biznes düşüncə tərzini təşviq etmək, dövlət və özəl sektor arasında əlaqələri daha da möhkəmləndirməkdir.



# 04 LAYİHƏLƏR VƏ PROQRAMLAR

## “Qarabağ KOB-ları 2024” proqramı

KOBİA, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, “İnkişaf Korporasiyası” QSC və Milli Təhsil Texnologiya Mərkəzinin birgə tərəfdaşlığı, “PAŞA Holding”in maliyyə dəstəyi ilə icra olunan “Qarabağ KOB-ları” proqramı 2024-cü ildə də davam etdirilib.

Şəhid ailələri, müharibə iştirakçıları və onların ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması və məşğulluğunun təmin olunmasına dəstək göstərilməsi məqsədilə icra olunan layihəyə ümumilikdə 70 vətəndaş cəlb edilib. Onlar üçün Bakı, Gəncə, Bərdə, Goranboy, Laçın və Füzulidə



**“Qarabağ KOB-ları” proqramı** çərçivəsində indiyədək **50-yə yaxın KOB subyekti** zəruri avadanlıqlarla təmin edilib.






KOBİA tərəfindən nəzəri və praktiki təlimlər təşkil edilib. Təlimlər əsasən marketinq, maliyyənin idarə olunması, biznes planın hazırlanması, satış, sosial media marketinq, insan resurslarının idarə olunması kimi mövzuları əhatə edib. Növbəti mərhələdə layihə iştirakçılarının özünüməşğulluq proqramı çərçivəsində Dövlət Məşğulluq Agentliyi tərəfindən peşə təlimlərinə cəlb edilməsi və avadanlıqlarla təmin edilməsi nəzərdə tutulur.

2023-cü ilin aprel ayından icra olunan “Qarabağ KOB-ları” proqramı çərçivəsində indiyədək 50-yə yaxın KOB subyekti zəruri avadanlıqlarla təmin edilib.










# "İnvestisiya səyahəti" layihəsi

Regionlarda fəaliyyət göstərən biznes subyektlərini alternativ maliyyələşmə mənbəyi olan qiymətli kağızlar bazarı barədə məlumatlandırmaq üçün 2024-cü il ərzində Quba, Şəki və Zaqatalada "İnvestisiya səyahəti" layihəsi çərçivəsində tədbirlər keçirilib.

Mərkəzi Bank, Bakı Fond Birjası, KOBİA və investisiya şirkətlərinin iştirakı ilə keçirilən tədbirlərdə regionda fəaliyyət göstərən biznes subyektləri kapital bazarının imkanları və Bakı Fond Birjasında listinqin üstünlükləri barədə məlumatlandırılıb. Həmçinin tədbir çərçivəsində investisiya şirkətləri tərəfindən kapital bazarı vasitəsilə maliyyələşməyə marağı olan biznes subyektlərinin təsərrüfatlarına yerində baxış keçirilib, onların maliyyələşmə imkanları dəyərləndirilib.




# “Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar” layihəsi

KOBİA, “Marsol Group” və İş adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) birgə təşkilatçılığı ilə 2024-cü ildə “Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar” layihəsi həyata keçirilib. Məqsəd qadın sahibkarlar arasında işgüzar əlaqələrin genişləndirilməsi olub.



Layihədə müxtəlif sektorları təmsil edən 70-dən çox qadın sahibkar iştirak edib. Layihə çərçivəsində qadın sahibkarların biznes bacarıqlarının artırılması üçün idarəetmə, satış, netvörkinq













kimi mövzularda təlimlər keçirilib. Ofis və istehsalat ziyarətləri layihə iştirakçılarına yeni biznes əlaqələri qurmağa, istehsal müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olmaqda imkan yaradıb. Sahibkarlara dəstək göstərən müxtəlif qurumların nümayəndələri ilə təşkil olunmuş işgüzar görüşlərdə qadın sahibkarlar biznes üçün imkanlar, dövlət dəstəyi tədbirləri barədə ətraflı məlumat əldə ediblər. Layihə çərçivəsində müxtəlif növ sosial fəaliyyətlər də təşkil olunub. Layihə üzrə fərqlənən qadın sahibkarlara sertifikatlar və hədiyyələr təqdim edilib.






# “KOB-ların rəqəmsallaşması proqramı”









İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və KOBİA-nın əməkdaşlığı çərçivəsində “KOB-ların rəqəmsallaşması Proqramı”na start verilib. Proqram KOB-ların rəqəmsal alətlərdən və qabaqcıl texnologiyalardan faydalanaraq, rəqabət qabiliyyətini artırmaq və bazar imkanlarını genişləndirmək məqsədilə hazırlanıb. Proqram çərçivəsində kiçik və orta bizneslər üçün maarifləndirici seminar və təlimlərin təşkil olunması, eyni zamanda “CTO-as-a-Service” kimi təşəbbüslər vasitəsilə bacarıqların artırılmasına dəstək göstərilməsi nəzərdə tutulur. Layihə çərçivəsində KOB-ların rəqəmsal yetkinliyi qiymətləndirilərək, ehtiyaclarına uyğun fərdi yol xəritələri hazırlanacaq. Rəqəmsallaşma təşəbbüslərinin qrantlar və digər maliyyə mexanizmləri ilə dəstəklənməsi də nəzərdə tutulur. KOB-ların rəqəmsal inkişafını sürətləndirmək məqsədilə yaradılmış “digiMATE” platforması 2024-cü ilin avqust ayından etibarən istifadəyə verilib.

Proqramın təqdimatına həsr olunmuş tədbirdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, KOBİA-nın, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin nümayəndələri iştirak ediblər.








## “Bizdən biznesə” startap müsabiqəsi

Startaplara dəstək məqsədilə “Bizdən biznesə” startap müsabiqəsi keçirilib. Dövlət-özəl əməkdaşlığı çərçivəsində “AccessBank” QSC tərəfindən həyata keçirilən layihənin tərəfdaşı KOBİA olub. Layihənin məqsədi innovasiyaları stimullaşdırmaq, yeni bizneslərə imkanlar yaratmaq, startapların biznes ideyalarını reallaşdırmasına dəstək olmaq, KOB-lara mentorluq və maliyyə dəstəyinin göstərilməsi, davamlı inkişaf və cəmiyyətə müsbət təsir











potensialı olan perspektivli biznes konsepsiyaların araşdırılması və uğurlu sahibkar şəbəkəsinin formalaşdırılmasına töhfə verməkdir.

Oktyabrın 30-da “Bizdən biznesə” layihəsinin dəstəklənməsi məqsədilə “Bakı KOB evi”ndə KOBİA və “AccessBank” QSC arasında Anlaşma Memorandumu imzalanıb, layihə ilə bağlı təqdimat keçirilib.

Münsiflər heyəti tərəfindən layihəyə müraciət etmiş sahibkarların və startapların arasından qaliblər seçilərək mükafatlandırılıb.





# Biznesə xidmətlər

1. **Mikro, kiçik və orta biznesin tənzimlənməsi**
2. **Birbaşa dəstək mexanizmləri**
3. **İnvestisiya layihələrinin təşviqi**
4. **KOB-ların bazarlara çıxışına dəstək**
5. **Sorğular**
6. **Sosial sahibkarlığa dəstək**


KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# 01 MİKRO, KİÇİK VƏ ORTA BİZNESİN TƏNZİMLƏNMƏSİ

## 2024-cü ildə:

- Hazırlanıb: 5 layihə
- Razılaşdırılıb: 3 layihə
- Razılaşdırılması üçün təqdim edilib: 2 layihə
- Normativ sənədlərə rəy və təkliflər təqdim edilib: 103 layihə

2024-cü ildə Agentlik sahibkarlıq sahəsində yeni qanunvericiliyin, normativ hüquqi aktların hazırlanması, mövcud normativ aktların yenilənməsi istiqamətində öz səlahiyyətləri çərçivəsində fəaliyyətini davam etdirib. Belə ki, Agentlik tərəfindən 3 qanunvericilik aktının layihəsi hazırlanaraq, müvafiq qurumlar ilə razılaşdırılıb və aidiyyəti üzrə təqdim edilib. Hər üç layihə hüquqi qüvvəyə minib. Agentlik tərəfindən hazırlanmış daha 2 qanunvericilik aktının layihəsi hazırda müvafiq qurumlar ilə razılaşdırılma prosesindədir. Eyni zamanda 2024-cü ildə ümumilikdə 103 normativ hüquqi aktın layihəsinə münasibət bildirilib və qüvvədə olan qanunvericilik aktlarının təhlilləri aparılıb.



# "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqindən irəli gələn tapşırıqlar ilə bağlı

Məlum olduğu kimi, 2 dekabr 2022-ci il tarixində mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində münasibətləri tənzimləyən, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dövlət dəstəyinin təşviqinin forma və metodlarını müəyyən edən "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Sözügedən Qanunun tətbiqindən irəli gələrək aşağıdakı normativ hüquqi aktlar hazırlanıb:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 fevral tarixli Qərarı ilə "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısı" təsdiq edilib. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin inkişafının stimullaşdırılması istiqamətində əlavə yeni dəstək mexanizmlərinin yaradılmasının məqsədi qlobal iqtisadiyyatda baş verə biləcək qeyri-müəyyənliklərə qarşı beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən stimullaşdırıcı mexanizmlərin çevik tətbiqi yolu ilə dəstəklənərək onların investisiya və innovasiya fəallığının qorunması, ölkə iqtisadiyyatında rolunun və xüsusi çəkisinin möhkəmlənməsidir.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 may tarixli Fərmanı ilə "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında Əsasnamə" təsdiq edilib. Bu Əsasnamə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını, o cümlədən reyestrin aparılması qaydasını və ona daxil edilməli olan məlumatların siyahısını müəyyən edir. Əsasnaməyə uyğun olaraq, yaradılacaq reyestrdə KOB subyektləri özləri barədə, onlara göstərilən dəstək tədbirləri və dövlət orqanları tərəfindən göstərilən xidmətlər barədə elektron məlumatları vahid informasiya resursu vasitəsilə bir mənbədən əldə edəcəklər. Reyestr ilə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsinin aparılması Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçiriləcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 yanvar tarixli Qərarı ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında Əsasnamə" təsdiq edilib. Əsasnaməyə uyğun olaraq, KOB evlərində sahibkarlıq subyektlərinə xidmət göstərilməsi zamanı Koordinasiya Qrupunda təmsil olunmuş dövlət orqanları ilə Agentlik arasında səmərəli əlaqələndirmənin həyata keçirilməsi və KOB evlərində təmsil olunmuş dövlət orqanının nümayəndəsinin hərəkət və ya hərəkətsizliyi barədə KOB subyektlərindən daxil olmuş şikayətlərə Koordinasiya Qrupunun iclaslarında operativ qaydada baxılması təmin ediləcəkdir. Həmçinin Koordinasiya Qrupunun fəaliyyəti çərçivəsində mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün prioritet sahələrin və dəstək metodlarının müəyyənləşdirilməsi istiqamətində müvafiq təkliflərin hazırlanması, bu sahədə dəstək tədbirlərinin həyata keçirilməsinə yönəlmiş təşəbbüslərin irəli sürülməsi, habelə KOB subyektlərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə əlaqədar müzakirələrin aparılması, bu istiqamətdə tövsiyələrin hazırlanması həyata keçiriləcəkdir.

# 02 BİRBAŞA DƏSTƏK MEXANİZMLƏRİ





## "STARTAP" şəhadətnaməsi

**2024-cü ilin** 1 yanvar – 1 dekabr tarixlərində KOBİA-ya mikro və kiçik sahibkarlar tərəfindən "Startap" şəhadətnaməsinin alınması üçün 98 müraciət daxil olub. Onlardan 59-na "Startap" şəhadətnaməsi verilib.

**182 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.**










Ümumilikdə isə 2024-cü ilin 1 dekabr tarixinədək Agentliyə "Startap" şəhadətnaməsinin verilməsi üçün 357 müraciət daxil olub və 182 sahibkara "Startap" şəhadətnaməsi verilib. Şəhadətnamə almış sahibkarlar istehsal və xidmət sektorlarında fəaliyyət göstərir, onlar tərəfindən təqdim olunmuş layihələr isə müvafiq sahələrdə innovativ həlləri özündə ehtiva edir.

Mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsini aldıqları tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad olunur.

Mikro və kiçik sahibkarlıq subyektlərinə "Startap" şəhadətnaməsi KOBİA tərəfindən 2021-ci ilin may ayından etibarən verilir. "Startap" şəhadətnaməsinin alınması qaydası və meyarları Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması Meyarları"nda öz əksini tapıb. "Startap" şəhadətnaməsinin verilməsi, yaxud imtina edilməsi haqqında qərarlar KOBİA tərəfindən Ekspertlər Şurasının rəyi əsasında verilir. Ekspertlər Şurası Agentliyin nəzdində 11 nəfərdən ibarət olan müxtəlif dövlət qurumlarının nümayəndələrindən və müstəqil ekspertlərdən ibarətdir.






## Azərbaycan startapı “AIM Congress”də



Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən ənənəvi İllik İnvestisiya Toplantısında (AIM Congress) ölkəmizi təmsil edəcək startapın seçilməsi üçün KOBİA və ABB İnnovasiya Mərkəzinin tərəfdaşlığı ilə milli tur təşkil olunub. Milli tura “Pre-seed” və ya “Seed” mərhələsində olan 67 startap müraciət edib. Onların arasından seçilmiş “Remart”, “Sampler.az”, “BYQR”, “Kofeal”, “MovementAZ”, “MenzilPark”, “MiLoy”, “Recepta”, “Eathanos”, “Simic.App”, “Rawuser” və “Metatesk” aprelin 9-da münsiflər heyəti qarşısında layihələrini təqdim ediblər. Nəticədə “Recepta” staratpı milli turun qalibi olub.




“Recepta” startapı 7-9 may tarixlərində ölkəmizi Əbu-Dabidə keçirilən “AIM Congress”də təmsil edib. Komandanın kassa çeklərinin rəqəmsallaşması platforması layihəsi dünyanın müxtəlif ölkələrindən olan startaplarla birgə investisiya qazanmaq üçün mübarizə aparıb. Milli turun qalibinin “AIM Congress”də iştirak üçün aviabilet (gediş-dönüş), qonaqlama xərcləri qarşılanıb və startapını təqdim etməsi üçün tədbir müddətində stend ayrılıb.

## Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi (qrant)



2024-cü ildə KOBİA tərəfindən təşkil olunmuş 5-ci və 6-cı qrant müsabiqələri çərçivəsində KOB subyektləri tərəfindən təqdim edilmiş layihələrdən **41-i** təqribən **700 min manat** məbləğində maliyyə ayrılıb.

**5-ci qrant müsabiqəsi** çərçivəsində maliyyələşdirilmiş layihələr "yaşıl iqtisadiyyat"ın dayanıqlığının təmin edilməsi istiqamətində peşə təhsil sisteminin inkişafı, sürətli şarj stansiyasının layihələndirilməsi, bərpa olunan enerji (günəş, külək) qaynaqlarından elektrik enerjisi istehsal edə bilən stansiyanın ilkin prototipinin istehsalı, aşağı temperaturlu geotermal sulardan elektrik və istilik enerjisi istehsalının tədqiqi, smart polimer kompozisiya materiallarından istifadə etməklə binalarda enerji sərfiyyatının azaldılması, işlənmiş sürtkü yağlarının regenerasiyasından alınan baza yağları əsasında yeni sürtkü yağlarının istehsalı, quru meyvələrin qablaşdırılmasında yeni üsulların tətbiqi və onun marketinqinin təkmilləşdirilməsi, quşçuluğun ətraf mühitə təsirinin azaldılmasına dəstək, atmosferdən suyun əldə edilməsi üçün innovativ su generatorunun istehsalı və satışının təşkili və s. istiqamətləri əhatə edir.

**6-cı qrant müsabiqəsi** çərçivəsində qrant dəstəyi almış layihələr isə "RoboRek" reklam robotunun sənaye üsulu ilə istehsalının təşkili, pyezoelektrik materiallardan istifadə olunmaqla elektrik enerjisi istehsalının və tətbiq sahələrinin tədqiqi, rəqəmsal bazarda istifadəçilərə bir tətbiq vasitəsilə gündəlik ehtiyaclarını qarşılamaq imkanı yaratmaq üçün platformanın hazırlanması, kənd təsərrüfatı sistemində mövcud olan problemlərin rəqəmsal və kimyəvi texnoloji yeniliklərin tətbiqi ilə həllinə dəstək göstərilməsi, aqrar sahədə yeni texnologiyalardan istifadə üzrə məhsuldarlığın artırılmasına dəstək üçün dərmanlama robotunun hazırlanması, tullantı qida yağlarından sintez yolu ilə "yaşıl" təmizləyici məhsulların alınması, perovskit-maye kristal hibrid strukturlarla səmərəliliyi artırılmış günəş elementlərinin hazırlanması və s. istiqamətlər ilə bağlıdır.

Ümumilikdə indiyədək KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə 99 layihəsinin maliyyələşdirilməsinə

**1,7 milyon manatdan çox qrant vəsaiti ayrılıb.**

14 layihə
**262 741 manat**
I / 2021

12 layihə
**228 519 manat**
II / 2022

13 layihə
**256 408 manat**
III / 2023

19 layihə
**304 799 manat**
IV / 2023

21 layihə
**374 488 manat**
V / 2024

20 layihə
**339 666 manat**
VI / 2024

Ümumilikdə isə indiyədək KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə 99 layihəsinin maliyyələşdirilməsinə 1,7 milyon manatdan çox qrant vəsaiti ayrılıb.

2021-ci ildən etibarən KOBİA tərəfindən KOB-lara təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə qrant verilir. Bu dəstək Nazirlər Kabinetinin 30 sentyabr 2020-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası" ilə tənzimlənir. KOB-lara qrantın verilməsi müsabiqələrin təşkili yolu ilə həyata keçirilir. KOB subyektlərinə aid olan istənilən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs müsabiqədə iştirak etmək hüququna malikdir. Agentliyə təqdim olunmuş hər bir layihə üzrə maliyyələşdirilmə məbləği maksimum 20000 manata qədərdir. Bu




dəstək tədbiri ölkəmizdə KOB-ların inkişafına müsbət təsir göstərməklə, bu sahədə yeni mexanizmlərin və innovativ layihələrin həyata keçirilməsi, sahibkarların fəaliyyətinə təsir edən faydalı model və texnoloji yeniliklərin elmi cəhətdən öyrənilməsi və tətbiqi baxımından əhəmiyyətlidir.




## Daxili bazar araşdırmaları

2024-cü ildə daxili bazar araşdırmalarına dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar KOB subyektlərindən KOBİA-ya 7 müraciət daxil olub. Sahibkarların müraciətləri əsasında 3 sahə üzrə daxili bazar araşdırmaları aparılıb. Həmçinin ölkənin sosial-iqtisadi inkişaf proqramlarında əks olunmuş prioritet istiqamətlər nəzərə alınaraq KOBİA-nın təşəbbüsü ilə 7 sahə üzrə daxili bazar araşdırması aparılaraq geniş sahibkar auditoriyasının faydalanması üçün KOBİA-nın rəsmi internet səhifəsində yerlədirilib. İndiyədək sahibkarların müraciəti əsasında 28, KOBİA-nın təşəbbüsü ilə isə 33 olmaqla ümumilikdə 61 daxili bazar araşdırması aparılıb.

Yeni biznesin uğur qazanması, mövcud sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, eləcə də yeni məhsul və xidmətlərin yaradılması zamanı bu sahədə tələbatın, müştərilərin, rəqiblərin, satış şəbəkəsinin və s. bu kimi məlumatların öyrənilməsi önəmlidir. Bu istiqamətdə bazar araşdırmaları əhəmiyyətli

## SAHİBKARLARIN MÜRACİƏTİ ƏSASINDA APARILMIŞ DAXİLİ BAZAR ARAŞDIRMALARININ SAYI:

| 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| **5** araşdırma | **5** araşdırma | **8** araşdırma | **5** araşdırma | **2** araşdırma | **3** araşdırma |

## KOBİA-NIN TƏŞƏBBÜSÜ İLƏ APARILMIŞ DAXİLİ BAZAR ARAŞDIRMALARININ SAYI:

| 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| **0** araşdırma | **21** araşdırma | **4** araşdırma | **1** araşdırma | **0** araşdırma | **7** araşdırma |

**İndiyədək sahibkarların müraciəti əsasında 28, KOBİA-nın təşəbbüsü ilə 33, ümumilikdə 61 daxili bazar araşdırması aparılıb.**

məlumat mənbəyi hesab olunur. Bazarın araşdırılması həm də sahibkarın risklərini azaldır, fəaliyyətini düzgün istiqamətdə qurmağa və genişləndirməyə dəstək olur. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarının aparılmasına dövlət dəstəyi göstərilir. KOBİA tərəfindən həyata keçirilən bu dəstək Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli Fərmanı ilə təsdiq edilmiş “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası” ilə tənzimlənir.

Bu dəstək mexanizmi çərçivəsində mikro sahibkarlıq subyektinin müraciəti əsasında aparılan hər bir daxili bazar araşdırmasına çəkilən xərcin 80%-i, kiçik sahibkarlıq subyektinin müraciəti ilə aparılan daxili bazar araşdırmasına çəkilən xərcin 50%-i dövlət tərəfindən qarşılanır. Orta sahibkarlıq subyektləri isə bu dəstək mexanizmi çərçivəsində ödənişsiz təlim və seminarlardan, informasiya dəstəyindən yararlana bilər. Ümumilikdə hər bir daxili bazar araşdırmasının aparılmasına görə ödənilən dəstək məbləği maksimum 20000 manata qədərdir.

## KOB klaster

2024-cü ildə KOB klaster şəhadətnaməsi almaq üçün KOBİA-ya 7 müraciət daxil olub. Bu müraciətlər qida, sənaye və kənd təsərrüfatı sahələri ilə bağlıdır. Ümumilikdə indiyədək KOB klaster şəhadətnaməsi almaq üçün KOBİA-ya 13 müraciət daxil olub.

KOB klasteri – eyni və ya oxşar iqtisadi fəaliyyət sahələrində, müəyyən coğrafi bölgədə yerləşmə əsasında yaranan, işçi qüvvəsini, vahid bazarı və xidmətləri bölüşən, qarşılıqlı iqtisadi münasibətlər quraraq əlaqəli, bir-birini tamamlayan və birgə fəaliyyət göstərən KOB klaster şirkəti və KOB klasteri iştirakçılarının məcmusudur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində KOB klaster şirkəti və onun iştirakçısı üçün bir sıra vergi güzəştləri nəzərdə tutulur. Belə ki, KOB klaster şirkəti müvafiq reyestrə daxil edildiyi tarixdən 7 il müddətinə mənfəət, KOB klasteri fəaliyyətində istifadə olunan torpaqlara görə torpaq və əmlak vergisindən, təsdiqedici sənəd əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün ƏDV-dən azaddır. KOB klasterinin iştirakçısı olan şəxs isə 7 il müddətində KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal üzrə əldə etdiyi mənfəət və ya gəlirin kapital xarakterli xərclərinin çəkilməsinə yönəldilən hissəsinin mənfəət və ya gəlir vergisindən azad olunur. KOB klaster şəhadətnaməsini almaq üçün kommersiya hüquqi şəxslər KOBİA-ya müraciət edə bilərlər.






# 03 İNVESTİSİYA LAYİHƏLƏRİNİN TƏŞVİQİ



2024-cü ildə sahibkarlara 15 investisiya təşviqi sənədi təqdim edilib. Layihələrin reallaşması nəticəsində yerli istehsala **1,5 milyard manatadək investisiyanın yatırılacağı, 3984 iş yerinin açılacağı nəzərdə tutulur.**

**2024-cü ildə** sahibkarlara **15** investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala **1,5 milyard** manatadək investisiyanın yatırılacağı, **3984** iş yerinin açılacağı nəzərdə tutulur.

Ümumilikdə 2016-cı ildən başlayaraq 01.12.2024-cü il tarixinədək **497** sahibkarlıq subyektinə **599** investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala **7,2 milyard** manatdan artıq investisiyanın yatırılacağı, **42,8 mindən çox** iş yerinin açılacağı nəzərdə tutulur. Təşviq sənədi almış layihələrin **13%-i** Bakı şəhəri və ətraf qəsəbələrin, **87%-i** isə regionların payına düşür. Təqdim edilmiş investisiya təşviqi sənədlərinin **62%-i** sənaye, **34,5%-i** kənd təsərrüfatı, **1,8%-i** logistika, **1,7%-i** isə turizm sahələrində icra olunacaq layihələri əhatə edir. İnvestisiya təşviqi sənədi verilmiş 500 layihə fəaliyyətə başlayıb, digər layihələr üzrə isə işlər davam edir. Fəaliyyət göstərən müəssisələr üzrə istehsal olunan












# 2016-2024-cü illər ərzində 497 sahibkarlıq subyektinə 599 investisiya təşviqi sənədi verilib

müxtəlif sənaye və kənd təsərrüfatı məhsulları dünyanın müxtəlif ölkələrinə (MDB, Avropa, ərəb ölkələri və s.) ixrac olunur. Mexanizm fəaliyyətə başlayandan 01.12.2024-cü ilədək **1,2 milyard ABŞ dolları** dəyərində texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün **6072** təsdiqedici sənəd verilib və sahibkarlar tərəfindən idxalda tətbiq olunan vergi və rüsumlardan **297,1 milyon ABŞ dolları** məbləğində güzəşt əldə edilib.

Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2024-cü il tarixli Fərmanına əsasən, sahibkarların **13** istiqamət üzrə strateji investisiya layihələrinə investisiya təşviqi sənədi verilir. Bu istiqamətdə ilk investisiya təşviqi sənədi 2024-cü ildə bərpa olunan enerji istehsalı sahəsi üzrə “Acva Pover Azərbaycan Renewable Energy” MMC-yə verilib. Şirkətin investisiya təşviqi sənədi verilmiş “240 MW/s gücündə bərpa olunan elektrik enerjisinin (külək enerjisi) istehsalı” layihəsi Xızı və Abşeron rayonlarını əhatə edir. Layihənin reallaşması nəticəsində ölkə iqtisadiyyatına təqribən **417 milyon manat** investisiya yatırılacağı, **55** yeni iş yerinin açılacağı nəzərdə tutulur.

İnvestisiya təşviqi sənədi hüquqi şəxslərə və fərdi sahibkarlara Azərbaycan Respublikasının Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. İnvestisiya təşviqi sənədini almış sahibkarlar **7 il** müddətində mənfəət və ya gəlir vergisinin **50** faizindən, əmlak və torpaq vergisindən, həmçinin idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğuların idxalı üçün ödənilən ƏDV-dən və gömrük rüsumundan azad edilir. Sahibkarlar investisiya təşviqi sənədini almaq üçün İqtisadiyyat Nazirliyinə, eləcə də nazirliyin KOB evlərində (Bakı, Xaçmaz və Yevlax şəhərlərində yerləşir) fəaliyyət göstərən xidmət pəncərəsinə müraciət edə bilərlər.

# İNVESTİSİYA LAYİHƏLƏRİNİN TƏŞVİQİ

KOBİA-nın fəaliyyətində iqtisadiyyata investisiya qoyuluşunu təşviq etmək, xarici investorlarla investisiya axtarışında olan yerli sahibkarları əlaqələndirmək, onların görüşlərini təşkil etmək və lazımi dəstəyi göstərmək əsas istiqamətlərdəndir.

Bu sahədə 2024-cü ildə də Agentlik Azərbaycanın investisiya imkanlarını, ölkəmizdə yaradılmış əlverişli biznes mühitini, iqtisadiyyatın prioritet sektorlarını xarici iş adamlarının və investorların iştirakı ilə ölkəmizdə və xaricdə keçirilən müxtəlif tədbirlər, sərgi və görüşlər çərçivəsində təşviq edib.

Belə layihələrdən biri də **www.invest.smb.gov.az** portalıdır. KOBİA tərəfindən Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin investisiya imkanlarını genişləndirmək məqsədilə yaradılmış portalda müxtəlif investisiya layihələri və biznes ideyalar yerləşdirilib. Biznes layihəsi olan və investor axtaran, mövcud biznesini satmaq istəyən və müxtəlif layihələrə yatırım etmək istəyən investorlar portalın imkanlarından istifadə edə bilərlər.

Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən portalda qeydiyyatdan keçməklə müvafiq xidmətlərdən istifadə etmək mümkündür. Portalda məlumat yerləşdirilməsi ödənişsizdir.

Biznes layihəsi olan və investor axtaran, mövcud biznesini satmaq istəyən və müxtəlif layihələrə investiya yatırmaq istəyən sərmayədarlar **www.invest.smb.gov.az** portalından istifadə edə bilərlər.


SİZİN İNVESTİSİYA BƏLƏDÇİNİZ
invest.smb.gov.az
"KOB" İnvestisiya Platforması
KOBİA-nın təklif etdiyi xidmətlər
KOBİA

# 04 KOB-LARIN BAZARLARA ÇIXIŞINA DƏSTƏK

## KOB-ların sərgilərdə iştirakına dəstək

KOBİA mikro, kiçik və orta sahibkarlıq subyektlərinin daxili və xarici bazarlara çıxışına, satış imkanlarının genişləndirilməsinə və istehsal etdikləri məhsulların tanıdılmasına dəstək məqsədilə ödənişsiz olaraq onların ölkəmizdə və xaricdə keçirilən sərgi və yaramarkalarda iştirakına kömək edir. Bu dəstək mexanizminin məqsədi KOB-ların məhsul və xidmətlərini daha geniş kütləyə təqdim etməklə satış imkanlarını genişləndirmək, yeni biznes əlaqələri qurmasına dəstək olmaqdır. 2024-cü ildə də KOBİA mikro, kiçik və orta sahibkarların bir sıra ixtisaslaşmış sərgilərdə təmənnasız olaraq iştirakına dəstək olub.

**2024-cü ildə:**

- **KOBİA-nın təşkil etdiyi sərgi və yarmarkaların sayı:** 13
- **Sərgi və yarmarkalarda iştirak etmiş KOB-ların sayı:** 499
- **KOBİA-nın xarici ölkələrdə təmsil olunduğu sərgilərin sayı:** 7
- **Xarici sərgilərdə iştirak etmiş sahibkarların sayı:** 19




# “47-ci Bağdad Beynəlxalq Sərgisi”

**10-19 yanvar 2024**

İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə KOBİA da İraqın Bağdad şəhərində keçirilən “47-ci Bağdad Beynəlxalq Sərgisi”nə qatılıb. “Made in Azerbaijan” vahid ölkə stendində Azərbaycan şirkətlərinin istehsal etdiyi çay, bitki yağları, qənnadı məmulatları, kolbasa və sosis məhsulları, nar şirəsi, limonad və mineral sular, konservlər və digər məhsullar nümayiş olunub. Stenddə “B2B” görüşlər üçün ayrılmış xüsusi yerlərdə Azərbaycan sahibkarları xarici ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, məhsul ixracına dair müzakirələr aparıb. Həmçinin stenddə KOBİA və AZPROMO-nun sahibkarlara göstərdiyi dəstək və xidmətlər, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verilib, müvafiq çap materialları təqdim edilib.



# Məkkə Halal Forumu çərçivəsində sərgi

**23-25 yanvar 2024**



Səudiyyə Ərəbistanının Məkkə şəhərində keçirilən Halal Forum çərçivəsində təşkil olunmuş sərgidə dünyanın 30-dan çox ölkəsi, o cümlədən Azərbaycan öz stendi ilə təmsil olunub. KOBİA və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) dəstəyi ilə sərgidə Azərbaycan şirkətlərinin məhsulları, o cümlədən müxtəlif bitki yağları, zəfəran, meyvə şirələri, qənnadı məmulatları, konservlər, süd məhsulları və s. nümayiş olunub. Stenddə KOBİA və ASK tərəfindən sahibkarlara göstərilən dəstək barədə məlumat verilib, yerli şirkətlərin investisiya layihələrinə dair kataloq və digər çap materialları təqdim edilib. Eyni zamanda stenddə "B2B" görüşlər üçün də şərait yaradılıb.









# “Gulfood 2024” Beynəlxalq Qida Sərgisi

**19-23 fevral 2024**







Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 29-cu Beynəlxalq Qida, İçkilər və HoReCa Sənayesi Sərgisi - “Gulfood 2024” keçirilib. İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycanın 20-dən çox şirkətinin məhsulları “Made in Azerbaijan” vahid ölkə stendi altında təqdim edilib. Stenddə AZPROMO və KOBİA da təmsil olunub. Ziyarətçilərə müvafiq qurumların sahibkarlara göstərdiyi dəstək barədə məlumat verilib, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə çap materialları təqdim edilib. Sərgi çərçivəsində Azərbaycan sahibkarları müxtəlif ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, məhsul ixracına dair müzakirələr aparıblar.

# "Russia Halal Expo 2024" Sərgisi

**15-17 may 2024**




Rusiya Federasiyasının Tatarıstan Respublikasının Kazan şəhərində keçirilmiş "Rusiya – İslam dünyası: Kazan Forumu 2024" çərçivəsində "Russia Halal Expo" Sərgisi təşkil olunub. İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə stenddə sahibkarlar tərəfindən ölkəmizdə istehsal olunan tekstil, çay, fındıq, qənnadı məmulatları, ədviyyatlar, ət və ət məhsulları nümayiş olunub. Sərgidə həmçinin KOBİA, AZPROMO və Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın iqtisadi imkanları, o cümlədən investisiya və ixrac perspektivləri, turizm sahəsinin potensialı, eləcə də investorlara təklif olunan imtiyazlar barədə məlumat verilib.





# "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri

**15-17 may 2024**




Bakı Ekspo Mərkəzində keçirilmiş 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı ("Caspian Agro") və 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi ("İnterFood Azerbaijan") sərgilərində KOBİA-nın dəstəyi ilə mikro və kiçik sahibkarlar 2024-cü ildə də ödənişsiz olaraq məhsul və xidmətlərini təqdim ediblər. KOBİA-nın təmin etdiyi dövlət dəstəyi hesabına yaradılmış xüsusi stenddə 10-a yaxın mikro və kiçik sahibkarlıq subyekti tərəfindən müxtəlif qida məhsulları, o cümlədən süd məhsulları, düyü, suxari, bal və digər arıçılıq məhsulları və s., eləcə də xidmətlər nümayiş olunub. Həmçinin stenddə KOB subyektlərinə satış imkanlarını genişləndirmələri və yeni biznes əlaqələri qurmaları üçün müxtəlif işgüzar görüşlərin keçirilməsi məqsədilə imkan yaradılıb.












# "The Saudi Food Show 2024" Beynəlxalq Qida Sərgisi

**21-23 may 2024**






Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində "The Saudi Food Show 2024" Beynəlxalq Qida Sərgisi keçirilib. İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə 20 Azərbaycan şirkəti məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində təqdim edib. Stenddə həmçinin KOBİA-nın sahibkarlara dəstək və xidmətləri barədə də məlumat verilib. Sərgi çərçivəsində yerli və xarici sahibkarlar arasında görüşlər keçirilib, potensial ixrac əməliyyatları ilə bağlı fikir mübadiləsi aparılıb.

# “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunda “May yarmarkası”

**28-30 may 2024**









İçərişəhərdə “May yarmarkası” çərçivəsində mikro və kiçik sahibkarların və sənətkarların məhsullarından ibarət sərgi-satış yarmarkası keçirilib. KOBİA və “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə təşkilatçılığı ilə keçirilmiş yarmarka KOB subyektlərinin istehsal etdiyi məhsulların geniş istehlakçı auditoriyasına tanıdılması və satışına dəstək olmaq, istehlakçıları KOB-ların məhsullarını almağa təşviq etmək məqsədilə keçirilib. Yarmarkada 10-a yaxın KOB subyektinin qida və qeyri-qida məhsulları, sənətkarların və yaradıcı şəxslərin əl işləri sərgilənib və satılıb. Yarmarka çərçivəsində ziyarətçilərin vaxtlarını maraqlı keçirməsi üçün mədəni-əyləncəli proqram da təşkil olunub.

# “Caspian Oil and Gas” Sərgisi

**4-6 iyun 2024**






Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi (“Caspian Oil and Gas”) və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi (“Caspian Power”) keçirilib. Sərgidə KOBİA “yaşıl KOB” konsepsiyası ilə iştirak edib. KOBİA-nın dəstəyi ilə yaradılmış












stenddə KOB subyektlərinin və startapların “yaşıl layihə”ləri nümayiş olunub. Stenddə 10-a yaxın KOB subyektinin alternativ və bərpa olunan enerji, ətraf mühitə təsirin ölçülməsi, təhlükəli tullantıların emalı və ləğvinə dair müxtəlif cihazlar və qurğular, ağıllı suvarma sistemləri sərgilənib, xidmətlər təklif olunub. Sərgi çərçivəsində yerli və xarici şirkətlər, eləcə də digər maraqlı tərəflər KOBİA-nın stendinə yaxınlaşmaqla “yaşıl KOB”larla görüşlər keçirib, əməkdaşlıq imkanlarını müzakirə ediblər.



## “5-ci yerli şirkətlərin tanıtım sərgisi”

### 24-26 iyun 2024

Bakı Ekspo Mərkəzində KOBİA və “Marsol Group”un birgə təşkilatçılığı ilə “5-ci yerli şirkətlərin tanıtım sərgisi” keçirilib. Sərginin əsas məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş kütləyə tanıtmaq, onlar üçün yeni bazarlar açmaq, satış imkanlarını genişləndirmək və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir. Builki sərgidə qida, İKT, təhsil, inşaat, sənaye, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox yerli şirkətin məhsul və xidmətləri, o cümlədən bir sıra yeni brendlər nümayiş olunub. Sərgi həmçinin iş adamları, sahibkarlar və təchizatçı şirkətlər arasında yeni əməkdaşlıqların qurulmasına imkan yaradıb.











KOBİA sərgidə KOB subyektlərinin ödənişsiz olaraq iştirakına dəstək məqsədilə ayrıca stendlə təmsil olunub. Stenddə kənd təsərrüfatı, İKT, təhsil, xidmət, tekstil, suvenir, keramika istehsalı, sənaye və s. sahələrdə fəaliyyət göstərən 10 KOB subyektinin məhsul və xidmətlərini təqdim etməsi üçün şərait yaradılıb.



## Göygöldə “KOB Fest”

**5-7 iyul 2024**



Göygöl rayonunun Xan Yaylağında keçirilən 3-cü Milli Yaylaq Festivalı çərçivəsində “KOB FEST” sərgi-satış yarmarkası təşkil olunub. KOBİA-nın təşkilatçılığı ilə keçirilən sərgi-satış yarmarkasında KOB subyektləri tərəfindən hazırlanan şəbəkə sənəti, rəssamlıq, xalçaçılıq, taxta oyma, milli musiqi alətləri nümunələri və müxtəlif əl işləri nümayiş olunub. Mikro və kiçik sahibkarlar tərəfindən istehsal olunan məhsulların







satışına dəstək olmaq və onları tanıtmaq, istehsalçılar və təchizatçılar arasında əlaqələrin genişləndirilməsi məqsədilə keçirilən "KOB FEST" sərgi-satış yarmarkasında Göygöl, eləcə də ətraf rayon və şəhərlərdən ümumilikdə 100-dən çox KOB subyektinin 1500-dən çox çeşiddə məhsul və xidmətləri sərgilənib. Həmçinin sərgi-satış yarmarkasında mədəni-əyləncəli proqram da təşkil olunub.







# Şəkidə "KOB Fest"

**18-20 iyul 2024**





KOBİA-nın təşkilatçılığı ilə Şəkidə keçirilmiş "KOB Fest" sərgi-satış yarmarkasında Qax, Balakən, Şəki və Qəbələdən olan 70-dən çox mikro və kiçik sahibkarın məhsul və xidmətləri nümayiş olunub. Yarmarkada ipək kəlağayı və xalçalar, lavanda, bal









və arıçılıq məhsulları, qurudulmuş meyvələr, konservləşdirilmiş məhsullar, keramika, suvenir və bijüteriyalar, sərinləşdirici içkilər, müxtəlif əl işləri, rəssamlıq nümunələri, dəri üzərində tikmə, taxta üzərində oyma və s. məhsullar sərgilənib və satışı həyata keçirilib.









## Gəncədə “KOB Fest”

**6-8 avqust 2024**

Gəncə şəhərində “Xan bağı”nda təşkil olunan “KOB FEST” sərgi-satış yarmarkasında Gəncə, eləcə də ətraf şəhər və rayonlardan olan 60-dan çox KOB subyektinin kənd təsərrüfatı və sənaye məhsulları, un məmulatları, qida, tekstil, sərinləşdirici içkilər, arıçılıq məhsulları, sənətkarların və yaradıcı şəxslərin əl işləri təqdim edilib və satılıb. “KOB FEST” çərçivəsində mədəni-əyləncəli proqram da təşkil olunub.











# Masallıda "KOB Fest"

**13-15 sentyabr 2024**



KOBİA-nın təşkilatçılığı ilə Masallı rayonunda "KOB FEST" sərgi-satış yarmarkası keçirilib. Yarmarkada Masallı, eləcə də ətraf şəhər və rayonlardan 50-dən çox mikro və kiçik sahibkarlıq subyektinin qida və qeyri-qida məhsulları, sənətkarların və yaradıcı şəxslərin əl işləri sərgilənib və satışı həyata keçirilib. "KOB FEST" çərçivəsində mədəni-əyləncəli proqram, yaradıcı şəxslərin və sənətkarların master-klasları da təşkil olunub.
















# Naxçıvanda "KOB Fest"

**4-6 oktyabr 2024**

Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində "KOB FEST" sərgi-satış yarmarkası təşkil olunub. 3 gün davam edən yarmarkada Naxçıvan şəhərindən və ətraf rayonlardan, eləcə də digər bölgələrdən 60-dan çox KOB subyektinin məhsul və xidmətləri təqdim edilib və satılıb. Sərgilənən məhsullar arasında kənd təsərrüfatı və sənaye məhsulları, o cümlədən meyvə və tərəvəz, un məmulatları,





tekstil, sərinləşdirici içkilər, arıçılıq məhsulları, xidmətlər, eləcə də sənətkarların və yaradıcı şəxslərin əl işləri üstünlük təşkil edib. Digər "KOB FEST"lərdə olduğu kimi burada da ziyarətçilərin vaxtını səmərəli keçirmələri üçün mədəni-əyləncəli proqram da təşkil olunub.





11-13 oktyabr 2024

## Zaqatalada “KOB Fest”

KOBİA-nın təşkilatçılığı ilə Zaqatala rayonunda “KOB FEST” sərgi-satış yarmarkası keçirilib. Yarmarkada Zaqatala və ətraf bölgələrdən olan 30-a yaxın KOB subyekti öz məhsullarını nümayiş etdirib və satışını həyata keçirib. Yarmarkada, əsasən, kənd təsərrüfatı və sənaye məhsulları, bal və arıçılıq məhsulları, qurudulmuş meyvələr, çərəzlər, konservlər, suvenirlər, müxtəlif əl işləri, xalça, dəri üzərində tikmələr, taxta üzərində oyma işləri və digər müxtəlif məhsullar təqdim olunub.











# "Rebuild Karabakh 2024" Sərgisi

**15-17 oktyabr 2024**








Bakı Ekspo Mərkəzində Xəzər İnşaat Həftəsi çərçivəsində 4-cü Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" Sərgisi ("Rebuild Karabakh") keçirilib. Sərgidə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərinin tanıdılmasına, satış imkanlarının genişləndirilməsinə və yeni biznes əlaqələri qurmasına dəstək məqsədilə bu dəfə də KOBİA-nın dəstəyi ilə KOB-lar üçün ayrıca stend qurulub. Stenddə 9 KOB subyektinin sənaye məhsulları, inşaat, tikinti materialları, istehsalat avadanlıqları, işçi geyimləri və müxtəlif xidmətlər təqdim edilib. KOBİA-nın stendində Qarabağda biznes və investisiya imkanları, bölgənin potensialı, işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parkları, sahibkarlar üçün nəzərdə tutulan güzəştlər barədə də məlumat verilib. Builki sərgidə KOBİA-nın və tərəfdaş qurumların dəstəyi ilə həyata keçirilən "Qarabağ KOB-ları" proqramına da ayrıca yer verilib.












# Xaçmazda "KOB Fest"

**25-27 oktyabr 2024**

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərinin tanıdılması və satış imkanlarının genişləndirilməsi məqsədilə Xaçmaz rayonunda "KOB FEST" sərgi-satış yarmarkası təşkil olunub. KOBİA-nın təşkilatçılığı ilə Zəfər Parkının ərazisində keçirilən yarmarkada Xaçmaz, eləcə də ətraf şəhər və rayonlardan olan 60-a yaxın KOB subyektinin məhsul və xidmətləri təqdim edilib və satılıb. Yarmarkaya KOB subyektləri tərəfindən çıxarılan məhsullar arasında kənd təsərrüfatı və sənaye məhsulları, un məmulatları, tekstil, sərinləşdirici içkilər, suvenirlər, arıçılıq məhsulları, sənətkarların və yaradıcı şəxslərin əl işləri üstünlük təşkil edib.












## Türkiyədə “MÜSİAD EXPO” Sərgisi

**26-29 noyabr 2024**

Azərbaycan sahibkarları İstanbulda keçirilən “MÜSİAD EXPO” 20-ci Beynəlxalq Ticarət Sərgisində iştirak ediblər. KOBİA-nın dəstəyi ilə sərgidə 10-a yaxın yerli sahibkarın məhsul və xidmətləri nümayiş olunub. Agentliyin stendində qida, sənaye, tikinti, alternativ və bərpa olunan enerji, parfümeriya sahələrində məhsullar və xidmətlər sərgilənib. Stenddə KOBİA və İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO tərəfindən Azərbaycanın investisiya və ixrac imkanlarına,






sahibkarlara göstərilən dəstək və xidmətlərə dair məlumat da verilib. Qeyd edək ki, sərgidə qida və qeyri-qida sektorları olmaqla 24 sahə üzrə 500-dən çox şirkət təmsil olunub. Azərbaycan məhsulları sərgi ziyarəçiləri tərəfindən maraqla qarşılanıb.

# Türkiyədə “Halal Expo” Sərgisi

**27-30 noyabr 2024**





İstanbulda keçirilən “Halal Expo” Sərgisində Azərbaycan sahibkarları da iştirak ediblər. İstanbul Sərgi Mərkəzində təşkil olunmuş sərgidə KOBİA-nın dəstəyi ilə 10 şirkətin istehsal etdiyi quru meyvə və tərəvəzlər, konservlər, təbii şirələr, ət və ət məhsulları, meyvə püreləri sərgilənib. Azərbaycanın stendində ölkəmizin investisiya və ixrac imkanlarına, sahibkarlara göstərilən dəstək və xidmətlərə dair də ziyarətçilərə məlumat verilib. Türkiyə Respublikasının ticarət naziri Ömər Bolat və Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev stendimizi ziyarət ediblər.






## Göyçayda “KOB Fest”

**3-5 dekabr 2024**







Regionlarda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərinin tanıdılması və satış imkanlarının genişləndirilməsi məqsədilə növbəti “KOB Fest” sərgi-satış yarmarkası Göyçay rayonunda keçirilib. Sabir bağının ərazisində təşkil olunmuş və üç gün davam edən yarmarkada Göyçay, eləcə də ətraf şəhər və rayonlardan 70-ə yaxın KOB subyektinin məhsul və xidmətləri təqdim olunub. Yarmarkaya çıxarılan məhsullar arasında kənd təsərrüfatı və sənaye məhsulları, o cümlədən un məmulatları, tekstil, sərinləşdirici içkilər, suvenirlər, meyvələr, arıçılıq məhsulları, sənətkarların və yaradıcı şəxslərin əl işləri üstünlük təşkil edib. “KOB Fest” sərgi-satış yarmarkası çərçivəsində həmçinin mədəni-əyləncəli proqram, yaradıcı şəxslər və sənətkarlar tərəfindən master-klaslar da təşkil olunub.










## Ticarət şəbəkələrinə çıxışa dəstək

Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışına dəstək mexanizmindən yararlanmaq istəyən KOB-ların 2024-cü ildə 56 olmaqla, ümumilikdə indiyədək 202 müraciəti qeydiyyata alınıb. KOBİA

tərəfindən 2024-cü ildə 21 olmaqla, mexanizmin işə başladığı müddət ərzində 80-ə yaxın sahibkarlıq subyektinin məhsullarının ticarət şəbəkələrində satışına dəstək göstərilib. Hazırda daxil olmuş müraciətlər üzrə sahibkarlıq subyektlərinin məhsullarının iri ticarət şəbəkələrində yerləşdirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 1 dekabr 2021-ci il tarixli Fərmanı ilə "Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası" təsdiq olunub. Bu sənəd mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ölkə ərazisində fəaliyyət

**2024-cü ildə 56 olmaqla** ümumilikdə indiyədək bu dəstəkdən yararlanmaq istəyən KOB-ların **202 müraciəti qeydiyyata alınıb.**

göstərən ticarət şəbəkələrində satışının genişləndirilməsinə, o cümlədən istehsal edilmiş məhsulların satışı ilə bağlı ticarət fəaliyyətinin təşkilinə çəkilən xərclərin ödənilməsi şərtlərini müəyyən edir. Sahibkarların istehsal etdikləri məhsulların satışının genişləndirilməsinə dəstək ticarət obyektlərində müəyyən sahənin (ticarət rəflərinin, piştaxtaların, stellajların və s.) Agentlik tərəfindən icarəyə götürməklə KOBİA-nın stendinin təşkil edilməsindən, habelə yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış yerlərdə satış-sərgi üçün şərait yaradılmasından ibarətdir. Agentlik tərəfindən ticarət şəbəkələrində 7 və "Şərq Bazarı" ticarət mərkəzində 1 daimi satış nöqtəsi yaradılıb.

**2024-cü ildə 21 olmaqla** mexanizmin işə başladığı müddət ərzində **80-ə yaxın** sahibkarlıq subyektinin məhsullarının **ticarət şəbəkələrində satışına dəstək göstərilib.**



# 05 KOBİA TƏRƏFİNDƏN KEÇİRİLMİŞ SORĞULAR

1

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*fevral-aprel ayları*

KOB subyektlərinin peşə təlimi və təhsilinə olan ehtiyaclarının müəyyən edilməsi

**734**
Respondentlərin sayı




2

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*fevral-aprel ayları*

KOB subyektlərinin dövlət satınalmalarında iştirak potensialının və səviyyəsinin öyrənilməsi

**593**
Respondentlərin sayı




3

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*fevral-aprel ayları*

Xarici ticarətdə KOB subyektlərinin maliyyə alətlərindən istifadə səviyyəsinin öyrənilməsi

**657**
Respondentlərin sayı




4

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*fevral-aprel ayları*

KOB subyektlərinin biznesyönümlü təlim və ixtisaslı kadr ehtiyaclarının müəyyən edilməsi

**612**
Respondentlərin sayı





5

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*fevral-aprel ayları*

Vergi hesabatları (bəyannamələri), vergi yoxlamaları və nəzarəti, vergi prosedurları (inzibatçılıq və prosessual) ilə bağlı KOB subyektlərinin qarşılaşdıqları çətinliklərin müəyyən edilməsi və bununla əlaqədar təkliflərin öyrənilməsi

100 200 300 400 500 600 700 800 900 1000

**628**
Respondentlərin sayı

6

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*May-iyun ayları*

KOB subyektlərinin alternativ maliyyə mənbələrindən istifadə səviyyəsinin öyrənilməsi

100 200 300 400 500 600 700 800 900 1000

**605**
Respondentlərin sayı

7

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*May-iyun ayları*

KOB subyektlərinin rəqəmsallaşma səviyyəsinin və ehtiyaclarının müəyyən edilməsi

100 200 300 400 500 600 700 800 900 1000

**547**
Respondentlərin sayı

8

**İQTİSADİ RAYONLAR ÜZRƏ**
*May-iyun ayları*

Sənaye sektorunda fəaliyyət göstərən KOB subyektlərinin qarşılaşdıqları çətinliklərin müəyyən edilməsi

100 200 300 400 500 600 700 800 900 1000

**314**
Respondentlərin sayı

# 06 SOSİAL SAHİBKARLIĞA DƏSTƏK

KOBİA sosial sahibkarlığı, əlilliyi olan şəxslər, gənclər və qadınlar arasında biznes fəaliyyətini təşviq edir, bu istiqamətdə dəstək göstərir. Agentlik bu sahədə dövlət qurumları və özəl sektorla əməkdaşlıq edərək birgə tədbirlər və layihələr həyata keçirir.



# QADIN SAHİBKARLIĞININ İNKİŞAFI

## “Yaşıl dünya naminə innovativ gələcək” sərgi-satış yarmarkası







Martın 7-9-da Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının (AQSİA) təşkilatçılığı və KOBİA-nın tərəfdaşlığı ilə İçərişəhərdə “Yaşıl dünya naminə innovativ gələcək” sərgi-satış yarmarkası keçirilib.

Yarmarkada 250-yə yaxın qadın sahibkarın əl işləri və məhsulları sərgilənib. Tədbir əl işləri hazırlayan sənətkar qadınların məhsullarının tanıdılması, istehsalçı şirkətlər ilə əlaqələrinin qurulması məqsədilə təşkil olunub.





## Qadın sahibkarlarla görüşlər keçirilib

KOBİA-nın təşkilatçılığı ilə aprelin 29-da Sumqayıt şəhərində və avqustun 16-da Naxçıvan şəhərində fəaliyyət göstərən qadın sahibkarlar ilə görüşlər keçirilib. Aidiyyəti dövlət qurumlarının nümayəndələrinin və qadın sahibkarların iştirakı ilə keçirilmiş görüşlərdə qadınlar arasında sahibkarlıq fəaliyyətinin təşviqi, onların maliyyə resurslarına və satış bazarlarına çıxışı, sərgilərdə iştirakına dəstək və digər məsələlər müzakirə olunub. Görüşlərdə həmçinin qadın sahibkarların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.



# “SHE Congress” keçirilib

Mayın 24-də qadınların şəxsi və peşəkar inkişafına dəstək olmaq, gender bərabərliyini təşviq etmək, qadınlar arasında şəbəkələşmə və təcrübə mübadiləsi məqsədilə “She (Smart, Happy, Equal) Congress” keçirilib. “İndinin gücü: Anı yaşa” şüarı ilə keçirilən tədbiri dəstəkləyən qurumlardan biri də KOBİA-dır. Rəsmi şəxslərin və sahibkarların iştirakı ilə keçirilən tədbirdə ölkəmizdə qadın sahibkarlığının inkişafı, bu sahədə həyata keçirilən tədbirlər və layihələr, qadınların biznesə marağı və bu istiqamətdə təşəbbüsləri, özünüməşğulluğun qadınların sahibkarlıq fəaliyyətinə başlamasında rolu barədə məlumat verilib, fikir mübadiləsi aparılıb. Tədbirdəki çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizdə qadın sahibkarlığının çəkisinin, qadınların kiçik biznes yaratmağa və özünüməşğulluğa marağının artdığını qeyd edib, Agentliyin biznesin qurulması və inkişafına dəstəyi barədə məlumat verib.











# GƏNC SAHİBKARLIĞIN İNKİŞAFI

## “Gənc startap” sahibkarlıq təlimləri

Fevral-mart aylarında KOBİA və Bilişim Vadisi Bakının birgə əməkdaşlığı çərçivəsində “Gənc startap” sahibkarlıq təlimləri keçirilib. Onlayn və oflayn formatlarda təşkil olunan təlimlərdə Türkiyənin Bilişim Vadisi Texnoparkının biznes inkubasiya mərkəzinin mentoru tərəfindən sahibkarlıq nədir, ideyadan biznes plana, komanda qurmaq, idarə etmək və liderlik, investisiya cəlb etmək





**Təlimləri uğurla başa vuran 45 nəfərə sertifikatlar verilib.**

metodları və s. mövzular tədris olunub. Eyni zamanda Bilişim Vadisinin rezidenti olan startapların qurucuları təlimlərin onlayn mərhələsində öz startap təcrübələrini bölüşüb və iştirakçıların suallarını cavablandırıblar.

Onlayn mərhələyə qatılmış iştirakçılardan seçilmiş 45 nəfər “Bakı KOB evi”ndə keçirilən üzbəüz təlimlərdə iştirak edib. Hər iki mərhələ üzrə təlimləri uğurla başa vuran 45 nəfərə sertifikatlar verilib və onlar KOBİA və Bilişim Vadisinin birgə təşkil etdiyi “KOB-ların inkişafı – sahibkarlıq təlimləri”ndə iştirak etmək hüququ qazanıblar.









# Azərbaycan və Türkiyənin gənc sahibkarlarının əməkdaşlıq görüşü

Mayın 22-də "Bakı KOB evi"ndə KOBİA və Azərbaycan Gənclər Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan və Türkiyənin gənc sahibkarlarının əməkdaşlıq görüşü keçirilib. Azərbaycandan və Türkiyədən 90-dan çox gənc sahibkarın, eləcə də gənclər təşkilatlarının və müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirin məqsədi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında gənc sahibkarların rolunun artırılması və yeni əməkdaşlıqların qurulmasıdır.

Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Azərbaycan Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov Türkiyə-Azərbaycan əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, ticarət, biznes sektorlarında uğurla inkişaf etdiyini vurğulayıb, hər iki ölkə gənclərinin, xüsusilə də gənc sahibkarların bu prosesdə aktiv iştirakına və onlar arasında əməkdaşlığın genişləndirilməsinə dair fikirlərini bölüşüblər.









Anadolu Aslanları İş Adamları Dərnəyinin Gənclər Şurasının baş direktoru Abdulla Uçan çıxışında Türkiyə iş adamlarının, xüsusilə gənc sahibkarların Azərbaycanda fəaliyyəti və əməkdaşlıq imkanları barədə məlumat verib.

Həmçinin tədbirdə KOBİA və Azərbaycan Gənclər Fondu tərəfindən həyata keçirilən tədbirlər və layihələrə dair təqdimatlar edilib, gənc sahibkarlar müvafiq layihələrdə aktiv iştiraka dəvət olunublar. Tədbir hər iki ölkə sahibkarları arasında alternativ enerji, kimya, inşaat, qida sənayesi, marketinq, e-ticarət, mədən sənayesi, tekstil kimi sektorlarda əlaqələrin daha da genişləndirilməsi imkanlarının və birgə təşəbbüslərin müzakirə edildiyi "B2B" görüşlərlə başa çatıb.




## Bakı Biznes Universitetinin tələbələri ilə görüş

İyunun 21-də "Bakı KOB evi"ndə Bakı Biznes Universitetinin tələbələri ilə görüş keçirilib. KOBİA və universitetin birgə təşkilatçılığı ilə keçirilmiş görüşdə 50-yə yaxın tələbə və müəllim iştirak edib.

Görüşdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov gənclərin sahibkarlığa təşviqi, uğurlu sahibkar olmaq üçün biznesyönümlü təhsilin önəmi, Agentliyin biznesin qurulması və inkişafına göstərdiyi dəstək və xidmətlər, "KOB könüllüləri" proqramı barədə məlumat verib. Qeyd olunub ki, Bakı Biznes Universiteti və KOBİA arasında 2023-cü ildə imzalanmış Anlaşma Memorandumu çərçivəsində universitetdə marketinq və biznesin idarə edilməsi üzrə təhsil alan 90 tələbə 15 istiqamət üzrə KOBİA tərəfindən keçirilən biznes təlimlərdə iştirak edib.

Bakı Biznes Universitetinin rektoru İbad Abbasov tələbələrin biznes savadlığının artırılmasında, gələcəkdə peşəkar kadr kimi fəaliyyət göstərməsində təlimlərin əhəmiyyətini qeyd edib, bu cür təlimlərin tələbələrin gələcək iş həyatında önəmini vurğulayıb.

Görüş çərçivəsində KOBİA-nın biznes təlimlərindən yararlanmış bir qrup tələbəyə sertifikatlar təqdim edilib, Agentlikdə işlə təmin edilmiş universitetin məzunu təcrübəsini bölüşüb. Tələbələr həmçinin "Bakı KOB evi"ndə biznes subyektlərinə göstərilən "G2B" və "B2B" xidmətlərlə tanış olublar.







# ƏLİL SAHİBKARLIĞIN İNKİŞAFI

## Sumqayıtda Sosial Sahibkarlıq və Məşğulluq Mərkəzi yaradılıb

Sumqayıt şəhərində Sosial Sahibkarlıq və Məşğulluq Mərkəzi fəaliyyətə başlayıb. Mərkəzdə həssas sosial qruplara aid şəxslərə ilkin mərhələdə dərzi peşəsi üzrə peşə bilikləri öyrədiləcək, eyni zamanda tekstil məhsulları istehsal olunacaq. Əmək bazarının tələblərinə uyğun olaraq mərkəzdə tədris olunacaq peşələrin sayının artırılması nəzərdə tutulur. Mərkəz KOBİA, Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Dayanıqlı Operativ Sosial Təminat Agentliyi, "Azərmaş" ASC, Bakı Mühəndislik Universiteti, "FORİELLA" MMC,





“Ekvita”, Bakı Tekstil Fabriki və “Əlil Sahibkarlar Təşkilatı” İctimai Birliyinin dəstəyi ilə yaradılıb. Mərkəzdə peşə biliklərinə yiyələnən şəxslərə mikro biznesə başlamaq üçün təlim, məsləhət və mentor dəstəyi də göstəriləcək. Peşə və biznes təlimlərini uğurla başa vuracaq sağlamlıq imkanları məhdud və həssas sosial qruplara aid şəxslər sonrakı mərhələdə özünüməşğulluq proqramı çərçivəsində müvafiq avadanlıqlarla təmin edilmələri üçün aidiyyəti qurumlarla əlaqələndiriləcək. Həmçinin layihənin tərəfdaşları tərəfindən iştirakçılara biznes planın hazırlanması, sahibkarlıq fəaliyyətinin idarə olunması və inkişafı sahəsində məsləhət xidmətləri göstəriləcək. Peşə təlimlərini uğurla başa vuran şəxslərin həmçinin mərkəzdə işləmək imkanı da var.

Qeyd edək ki, Sumqayıt şəhərində yaradılmış Sosial Sahibkarlıq və Məşğulluq Mərkəzi sayca ikincidir. Bundan əvvəl müvafiq mərkəz Masallıda yaradılıb və uğurla fəaliyyətini davam etdirir. Mərkəzlərin yaradılmasında məqsəd sağlamlıq imkanları məhdud və həssas sosial qruplara aid şəxslərin cəmiyyətə inteqrasiyası, onların biznesyönümlü bilik və bacarıqlarının artırılması, sosial sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, yeni biznes təşəbbüslərinin dəstəklənməsi, sosial cəhətdən həssas qrupların əmək bazarına çıxışına dəstək olmaqdır. Ölkənin digər şəhər və rayonlarında da belə mərkəzlərin yaradılması nəzərdə tutulur.








## KOBİA nümayəndələri "Kaşalata" kafesinin açılışında

Bakıda əlilliyi olan şəxslərin də çalışacağı ilk inklüziv kafe – "Kaşalata" kafe fəaliyyətə başlayıb. Kafenin açılışında iştirak edən dövlət və özəl sektorun nümayəndələri kafedə yaradılmış şərait və iş mühiti ilə tanış olub, burada məşğulluğu təmin edilmiş əlilliyi olan şəxsləri yeni işləri münasibətilə təbrik ediblər.

Qeyd edək ki, "Birgə və Sağlam" İB-nin təşəbbüsü ilə təsis edilən "Kaşalata" kafe əlilliyi olan gənclərin inklüziv mühitdə məşğulluğuna dəstək olmaq və onların cəmiyyətə inteqrasiyasını təşviq etmək məqsədi daşıyır. Ü.Hacıbəyli küçəsi, 57 ünvanında yerləşən kafedə ümumilikdə 20 gəncin məşğulluğu təmin olunub ki, onlardan 10 nəfəri əlilliyi olan gənclərdir. Kafenin yaradılmasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, KOBİA, SOCAR, "Pasha Holding" və "Trendyol Azərbaycan" tərəfindən dəstək göstərilib.





# Sosial sahibkarlığa dair təlimlər

22-23 noyabr tarixlərində Masallı Sosial Sahibkarlıq və Məşğulluq Mərkəzində Lənkəran KOB İnkişaf Mərkəzi tərəfindən "Sosial sahibkarlığın əhatə sahələri və inkişaf perspektivləri" mövzusunda maarifləndirici təlim keçirilib.

Təlimdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyi tərəfindən həyata keçirilən "Sosial sahibkarlıq və məşğulluq mərkəzləri Proqramı" layihəsinin məzunu olan sosial baxımdan həssas əhali qrupuna aid sahibkarlar iştirak ediblər. Ümumilikdə təlimdə şəhid ailələrinin üzvü və əlilliyi olan 16 nəfər iştirak edib.

Təlimdə sosial sahibkarlığa hüquqi və institusional dəstək mexanizmləri, əlilliyi olan şəxslərin əmək bazarına çıxışı, kiçik biznesin qurulması üçün imkanlar və dəstək alətləri barədə məlumat verilib. Eyni zamanda KOBİA tərəfindən əlilliyi olan şəxslərin özünüməşğulluq proqramına cəlb edilməsi və həssas əhali qrupuna aid edilən sahibkarların məhsul və xidmətlərinin satışına müxtəlif sərgilər çərçivəsində göstərilən dəstək barədə məlumat verilib.







# KOB maraqlarının müdafiəsi


KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# KOB MARAQLARININ MÜDAFİƏSİ

**Şikayət xarakterli müraciət**

**1129**

2024-cü ildə (yanvar-noyabr ayları üzrə) sahibkarlıq subyektlərindən onların maraqlarının müdafiəsi ilə bağlı **1129** şikayət xarakterli müraciət daxil olub. Daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq baxılıb. Müraciətlər üzrə araşdırmalar maraqlı tərəflərin iştirakı ilə aparılıb, hər bir müraciətə fərdi qaydada yanaşılıb.





Daxil olmuş müraciətlər operativ qaydada araşdırılıb, bəzi hallarda araşdırma yerində aparılıb, zərurət yarandığı hallarda isə dövlət-sahibkar əməkdaşlıq platforması çərçivəsində görüşlər təşkil olunaraq mövcud problem açıq müzakirə müstəvisində araşdırılıb. Dövlət-biznes əməkdaşlıq platforması, eləcə də sahibkar-sahibkar əməkdaşlıq platforması çərçivəsində dövlət orqanları və sahibkarlarla birgə üçtərəfli görüşlər təşkil edilərək müsbət nəticələr əldə olunub.



# Müraciətlərin icra statusları

Həyata keçirilmiş tədbirlər nəticəsində **1129** müraciətin **476-sı (42,2%)** üzrə sahibkarların pozulmuş hüquqları bərpa olunub, **531-i (47%)** üzrə müraciətçilərə qanunvericiliyin tələbləri izah olunmaqla müvafiq tövsiyələr verilib, **64** müraciət **(5,7%)** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 7.10-cu maddəsinin tələblərinə uyğun olaraq mahiyyəti üzrə baxılması üçün aidiyyəti qurumlara göndərilib, **13 (1,1%)** müraciətə zəruri sənədlər təqdim edilmədiyi üçün baxılması mümkün olmayıb və ya qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmamış saxlanılıb, **45 (4%)** müraciət üzrə isə icraat prosesi davam etdirilir.

## MÜRACİƏTLƏRİN İCRA STATUSLARI

| | ədədlə | %-lə |
|---|---|---|
| QANUNVERİCİLİYİN TƏLƏBİ İZAH OLUNMUŞ: | 531 | 47% |
| MÜSBƏT HƏLL OLUNMUŞ: | 476 | 42,2% |
| AİDİYYƏTİ ÜZRƏ GÖNDƏRİLƏN: | 64 | 5,7% |
| BAXILMAMIŞ SAXLANILAN: | 13 | 1,1% |
| İCRA MƏRHƏLƏSİNDƏDİR: | 45 | 4% |
| ÜMUMİ SAY: | 1129 | 100% |



# Müraciətlərin şikayət mövzuları üzrə bölgüsü







Şikayətlərin **42,4%-i** sahibkarlıq subyektləri arasında yaranmış mübahisələr, **25,4%-i** yerli icra hakimiyyəti orqanları və digər qurumlar tərəfindən sahibkarlıq fəaliyyətinə süni əngəllərin yaradılması, **9,7%-i** əmlak məsələləri, **8,3%-i** texniki infrastruktura (qaz, elektrik, su təchizatı) qoşulma və istifadə, **7,6%-i** gömrük məsələləri, **3,7%-i** vergi məsələləri, **2,8%-i** bank və digər maliyyə məsələləri, **0,1%-i** digər məsələlərlə (yol çəkilişi və infrastrukturun qurulması, xarici iqtisadi fəaliyyət, işlə təmin olunma və s.) bağlı olub.

# Müraciətlərin iqtisadi rayonlar üzrə bölgüsü

Daxil olmuş **1129** müraciətin ən çoxu Bakı şəhəri (**486** müraciət) üzrə olmaqla, qalanları müvafiq bölgü üzrə təsnifatlaşdırılmışdır – Gəncə-Daşkəsən iqtisadi rayonu (**91** müraciət), Abşeron-Xızı iqtisadi rayonu (**72** müraciət), Mil-Muğan iqtisadi rayonu (**69** müraciət), Mərkəzi Aran iqtisadi rayonu (**68** müraciət), Qazax-Tovuz iqtisadi rayonu (**61** müraciət), Qarabağ iqtisadi rayonu (**59** müraciət), Lənkəran-Astara iqtisadi rayonu (**58** müraciət), Şəki-Zaqatala iqtisadi rayonu (**51** müraciət), Quba-Xaçmaz iqtisadi rayonu (**50** müraciət), Şirvan-Salyan iqtisadi rayonu (**39** müraciət), Dağlıq Şirvan iqtisadi rayonu (**14** müraciət), Naxçıvan iqtisadi rayonu (**9** müraciət), Şərqi Zəngəzur iqtisadi rayonu (**2** müraciət).





# İşğaldan azad olunmuş ərazilərdə biznesin inkişafı


KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BİZNESİN İNKİŞAFI

30.11.2024-cü il tarixinə olan məlumatlara əsasən, işğaldan azad edilmiş ərazilərlə bağlı sahibkarlardan KOBİA-ya **2607** müraciət daxil olub. Müraciətlərin **2103-ü** yerli, **504-ü** xarici müraciətlərdir.







Ümumi müraciətlərin **1558-i** investisiya layihəsi, **625-i** iş və xidmətlər üzrə, **424-ü** isə digər müraciətlər ilə bağlı olub. İnvestisiya layihələrinə dair müraciətlərin **57%-i (889)** ticarət və xidmət, **16%-i (246)** sənaye, **19%-i (302)** kənd təsərrüfatı, **8%-i (121)** tikinti, turizm, səhiyyə, təhsil, mədəniyyət, nəqliyyat və logistika sahələrini əhatə edir.

İş və xidmətlərə dair müraciətlərin **69%-i (430)** tikinti işləri, **16%-i (97)** ticarət və xidmət, **12%-i (72)** sənaye və **3%-i (26)** turizm, kənd təsərrüfatı, təhsil, nəqliyyat və logistika sahələri ilə bağlıdır.

Müraciətlərin **472-si** Xankəndi, **248-i** Laçın, **200-ü** Ağdam, **190-ı** Füzuli, **171-i** Şuşa, **135-i** Kəlbəcər, **94-ü** Xocavənd, **63-ü** Zəngilan, **60-ı** Cəbrayıl, **59-u** Ağdərə, **32-si** Qubadlı, **22-si** Xocalı və **4-ü** Tərtər rayonlarına investisiya yatırılması ilə bağlı olub. Həmçinin **857** müraciət isə işğaldan azad edilmiş istənilən ərazidə biznes qurmaq ilə əlaqəlidir.







**Qeyd:** İş və xidmətlər üzrə müraciətlərin sahələr üzrə bölgüsü.

# Azad edilmiş ərazilərimizdə biznes imkanlarına dair panel müzakirələr




İyunun 28-də İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən “Sahibkarlar üçün yeni imkanlar: Qarabağı birlikdə quraq” mövzusunda tədbir çərçivəsində panel müzakirələr təşkil olunub.

“İşğaldan azad edilmiş ərazilərdə güzəşt və azadolmalar, dəstək tədbirləri” mövzusunda paneldə Dövlət Vergi Xidmətinin, KOBİA-nın, İqtisadi Zonaların İnkişafı Agentliyinin, Azərbaycan Banklar Assosiasiyasının, Sahibkarlığın İnkişafı Fondunun nümayəndələri tərəfindən işğaldan azad edilmiş ərazilərin cəlbediciliyini artırmaq üçün təqdim edilən güzəşt və dəstək tədbirləri barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, regionda fəaliyyət göstərən sahibkarlar mənfəət (gəlir), torpaq və əmlak vergisindən azad olunurlar, ərazidə





fəaliyyət göstərən biznes subyektləri üçün kommunal xidmətlər üzrə xüsusi güzəştlər tətbiq edilir. Biznes kreditlərinin 90 faizədək hissəsinə dövlət zəmanəti verilməsi, həmin kreditlərin 10 faizinin dövlət tərəfindən subsidiyalaşdırılması sahibkarların maliyyə resurslarına daha asan çıxış əldə etməsi baxımından önəm kəsb edir. Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları isə effektiv biznes qurulmasına mühüm imkanlar açır. Dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində azad edilmiş ərazilərdə layihələrin uğurla həyata keçirilməsi üçün geniş potensial var.

“İşğaldan azad edilmiş ərazilərdə sahibkarların rolu” mövzusunda paneldə isə aidiyyəti qurumlar və şirkətlər tərəfindən azad edilmiş ərazilərdə həyata keçirilən və keçirilməsi nəzərdə tutulan prioritet layihələr, Qarabağın iqtisadi dirçəlişində fəal biznes təşəbbüslərinin önəmi, uğurlu biznes ideyaları və təcrübələri barədə məlumat verilib. Biznes nümayəndələri yaradılmış əlverişli işgüzar mühitə, sahibkarlara çoxtərəfli və davamlı dəstəyə görə dövlət başçısına təşəkkürlərini bildirib, regionda özəl sektorun genişlənməsi məqsədilə fəal təşəbbüslərlə çıxış etmək istəklərini ifadə ediblər.

Hər iki panel üzrə müzakirələr bitdikdən sonra sahibkarların sualları cavablandırılıb, eləcə də “G2B” görüşlər təşkil olunub.








# Şuşada Dövlət Xidmətləri Mərkəzi




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak edib.

Dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, ümumi daxili sahəsi 2600 kvadratmetr olan Dövlət Xidmətləri Mərkəzinin yenidənqurma və təmir işlərinə ötən ilin mayında başlanılıb. Buradakı keçmiş poçt binasında və onun yerləşdiyi ərazidə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən əsaslı təmir işləri aparılıb, geniş yaşıllıq zonası salınıb. Dördmərtəbəli binanın əsaslı təmirindən sonra burada “ASAN xidmət” və “DOST xidməti” mərkəzləri, KOB evi, Rəqəmsal



İnkişaf və Nəqliyyat Nazirliyinin (poçt, rabitə qovşağı) filialları fəaliyyət göstərəcək. Diqqətə çatdırıldı ki, burada fəaliyyət göstərəcək qurumlar üzrə 56 nəfərin aidiyyəti üzrə işlə təmin edilməsi nəzərdə tutulur. Mərkəzdə işləyəcək əməkdaşların Şuşa şəhər sakini olması təmin edilib.






# “Yaşıl iqtisadiyyat”a keçiddə KOB-ların rolu


KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# “YAŞIL İQTİSADİYYAT”A KEÇİDDƏ KOB-LARIN ROLU

## “Yaşıl dünya naminə həmrəylik ili” və COP29

### Yaşıl biznes necə olmalıdır?

İqlim dəyişiklikləri ilə mübarizə, ətraf mühitin qorunması, resurslardan səmərəli istifadə fonunda yaşıl bizneslərin önəmi artmaqdadır. Yaşıl biznes dedikdə ekoloji və dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ətraf mühitə və cəmiyyətə müsbət təsir etməyə çalışan iş modeli nəzərdə tutulur. Fəaliyyətində yaşıl prinsipləri əsas götürən bizneslər ətraf mühitə dost olur, resurslardan daha səmərəli istifadə edir, az tullantı yaradır, ekoloji təmiz məhsul və xidmətlər istehsal edir. Bir sözlə, yaşıl biznes yalnız gəlir əldə etməyi deyil, həm də ətraf mühitin və






cəmiyyətin rifahını ön planda tutmağı hədəfləyir.

Ətraf mühitə münasibətdə məsuliyyətli davranış istehsal zamanı birbaşa təsirlərin aradan qaldırılması ilə məhdudlaşmır, ümumilikdə yaşıl davranışların təşkilatın bütün biznes proseslərinə və idarəetmə sisteminə inteqrasiyasını zəruri edir. Bu baxımdan, yaşıl planlama, yaşıl idarəetmə üzrə strategiya və siyasətlərin hazırlanması və tətbiq olunması əhəmiyyətlidir. Ekoloji təmiz xammal və materialların seçilməsi, su, enerji və torpaq ehtiyatlarından səmərəli istifadə, tullantıların düzgün idarəedilməsi, yaşıl maliyyələşmə kimi amillər yaşıl fəaliyyətin təşkili üçün zəruridir. Yaşıl biznes idarəetmə sisteminin tətbiqi ilə yanaşı, onun mütəmadi olaraq monitorinqinin aparılmasına, qiymətləndirilməsinə və təkmilləşdirilməsinə də diqqət yetirilməlidir.



# **KOBİA-nın** yaşıl biznesə dəstəyi

Sahibkarların "yaşıl layihə"ləri müxtəlif dövlət dəstəyi mexanizmləri vasitəsilə, o cümlədən KOBİA tərəfindən dəstəklənir. "Yaşıl layihə"ləri olan sahibkarlıq subyektləri qrant, "Startap" şəhadətnaməsi, daxili bazar araşdırmasının aparılması, təlim, sərgilərə çıxış kimi dəstək alətləri üçün KOBİA-ya müraciət edə bilərlər.

İndiyədək KOBİA tərəfindən KOB-ların "yaşıl layihə"lərinin inkişaf etdirilməsinə və "yaşıl iqtisadiyyat"a keçidə töhfə verə biləcək 27 layihəyə qrant ayrılıb, 10-dan çox "Startap" şəhadətnaməsi verilib.

KOB-ların "yaşıl layihə"lərinin inkişaf etdirilməsi və "yaşıl iqtisadiyyat"a keçid üzrə **27 layihəyə qrant ayrılıb**

**10-dan çox** "Startap" şəhadətnaməsi verilib

Təkrar emal və tibbi tullantıların zərərsizləşdirilməsinə dair sahibkarların müraciəti əsasında daxili bazar araşdırmaları aparılıb.

Eyni zamanda KOBİA tərəfindən sahibkarlara "yaşıl iqtisadiyyat" ilə bağlı təlim və məsləhət xidmətləri göstərilib. Təkcə 2024-cü ildə Agentlik Bakı şəhərində, Lənkəran, Şəki və Xaçmaz rayonlarında 140-a yaxın KOB subyektinin iştirakı ilə "Yaşıl iqtisadiyyat və yaşıl biznes", "Yaşıl maliyyələşmə", "Yaşıl innovasiyaların inkişafında mövcud imkanlar, çətinlik və perspektivlər" mövzularında təlim, seminar və maarifləndirmə tədbirləri təşkil edib.

**140-a yaxın KOB subyekti** təlim, seminar və maarifləndirmə tədbirlərində iştirak edib

Sahibkarların yaşıl layihələrinin Agentliyin təşkilatçılığı və dəstəyi ilə keçirilən müxtəlif sərgi və yarmarkalara çıxarılmasına da dəstək göstərilib.

Biznes subyektlərinin ətraf mühitə təsirini ölçmək, istifadə etdikləri resurslardan istifadənin səmərəliliyini qiymətləndirmək məqsədilə Agentlik tərəfindən sahibkarlar üçün özünüqiymətləndirmə platforması *(https://yb.smb.gov.az/)* yaradılıb. Biznes subyektləri bu platformada qeydiyyatdan keçərək müvafiq sualları cavablandırmaqla enerji və sudan nə dərəcədə səmərəli istifadə etdiklərini, tullantıların effektiv idarə olunması və ətraf mühitə təsirlərini qiymətləndirərək zəif nöqtələrini müəyyən edə və onların aradan qaldırılması üçün zəruri tədbirlər görə bilərlər.

# ESG prinsiplərinin
## Azərbaycanda tətbiqi

Ölkəmizdə ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin daha geniş təşviqi, bu sahədə dövlət və özəl sektorun səylərinin birləşdirilməsi və konseptual baxışın formalaşdırılaraq həyata keçirilməsi məqsədilə 2022-ci ildə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun tərkibində ESG





üzrə altqrupu yaradılıb. Altqrupa KOBİA rəhbərlik edir. Üzvlərin sayı və əhatə dairəsi baxımından bu altqrup komissiyanın geniştərkibli qruplarındandır. Altqrupun tərkibinə dövlət, özəl və ictimai sektoru təmsil edən 30-a yaxın qurum və təşkilatın nümayəndələri daxildir.

2023-cü ildə altqrup çərçivəsində fəaliyyət daha çox mövcud vəziyyətin araşdırılması, mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi, boşluqların müəyyən edilməsi və onların aradan qaldırılması istiqamətində təkliflərin formalaşdırılması ilə bağlı olub. 2023-cü il üzrə Yol Xəritəsi çərçivəsində ərsəyə gəlmiş materiallar, arayış və hesabatlar toplanaraq məcmuə halında ümumiləşdirilərək çap edilib. Sənəd maraqlı tərəflər arasında paylanıb, elektron versiyası isə KOBİA və Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın internet resurslarında yerləşdirilib.

2024-cü ilin Yol Xəritəsi isə ESG ilə bağlı konkret çərçivələrin, sənədlərin və resursların hazırlanmasına hədəflənib. Nəticədə 2024-cü ildə "Ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqi üzrə çərçivə" dövlət standartı təsdiqlənib, ESG üzrə vahid rəqəmsal platforma (https://esghub.az/) istifadəyə verilib, "Müəssisələrdə ESG aspektləri üzrə qiymətləndirməyə dair metodologiya" hazırlanıb, eləcə də ESG ilə bağlı təlimlər və məlumatlandırma tədbirləri keçirilib.







# ESG üzrə dövlət standartı

"AZS IWA 48:2024 "Ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqi üzrə çərçivə" dövlət standartı KOBİA-nın təşəbbüsü ilə Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) tövsiyələrinə əsasən hazırlanıb və 2024-cü ildə Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən qəbul olunub. Bu standart müəssisə və təşkilatlarda ESG prinsiplərini tətbiq etməklə müasir biznes mühitində dayanıqlı inkişafı dəstəkləmək və sosial məsuliyyəti təşviq etmək üçün çərçivə təqdim edir. Standartın məqsədi müəssisə və təşkilatlara ESG strategiyalarını formalaşdırmaqda və həyata keçirməkdə kömək etməkdir. ESG üzrə milli standartın tətbiqi dövlət və özəl sektorda dayanıqlı inkişafı dəstəkləməklə yanaşı, müştəri məmnuniyyətini artırmaq, riskləri azaltmaq və sosial məsuliyyətin artırılması baxımından müsbət təsir göstərəcəkdir. Standartın tətbiqi könüllü xarakter daşıyır.







Noyabrın 4-də "Bakı KOB evi"ndə KOBİA-nın təşkilatçılığı ilə keçirilmiş brifinqdə KOBİA və Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən ESG üzrə milli standart barədə ətraflı məlumat verilib, media nümayəndələrinin sualları cavablandırılıb.



# ESG üzrə vahid platforma **https://esghub.az/**

ESG üzrə vahid platforma daima yenilənən və ESG ilə əlaqəli hərtərəfli məlumat və materialları birləşdirən resurs mərkəzi rolunu oynayır. Platforma bizneslərin cari vəziyyəti, dayanıqlılığı, ESG hesabatlılığı üzrə indikator və məlumatları təmin etməklə, xarici investorların cəlb edilməsinə xidmət edəcək. Tərəfdaşlar ESG ilə əlaqəli xidmətlərini bu platforma üzərindən biznes subyektlərinə təqdim edə biləcək, bizneslər isə ESG üzrə təcrübəli mütəxəssis və peşəkar şirkətlərə çıxış imkanı əldə edəcəklər. Platforma ətraf mühit və dayanıqlı inkişaf məsələlərinə, beynəlxalq reytinqlərdə ekoloji performansla bağlı göstəricilərə müsbət töhfə verəcək.

Noyabrın 6-da Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın və KOBİA-nın təşkilatçılığı, ABB və "Azercell Telecom" MMC-nin dəstəyi ilə ESG üzrə vahid platformanın və milli standartın təqdimatı ilə bağlı konfrans keçirilib.














# “Yaşıl biznesin idarəedilməsi sistemləri” dövlət standartı

2024-cü ildə dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində KOBİA-nın təşəbbüsü və dəstəyi ilə AZS 962:2024 “Yaşıl biznesin idarəedilməsi sistemləri” dövlət standartı hazırlanıb və Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən qəbul edilib. Bu standart beynəlxalq müstəvidə ilk belə təcrübələrdəndir. Standart bizneslərin hansı istiqamətdə hansı yaşıl prinsipləri tətbiq edə biləciyini göstərməklə faydalı təlimat rolunu oynayır. Yeni standartın tətbiqi bizneslərin, o cümlədən KOB-ların yaşıl biznes modelinə keçidini asanlaşdırmaqla qlobal bazarda daha rəqabətqabiliyyətli olmasına imkan verəcək. KOB-ların ətraf mühitə təsirinin minimuma endirilməsini, resurslardan səmərəli istifadəni və ekoloji məsuliyyəti artırmağı nəzərdə tutan yeni standart, həmçinin ekoloji innovasiyaların stimullaşdırılmasına xidmət edəcəkdir.






# "KOB-ların yaşıl keçidi üçün **Bakı İqlim Koalisiyası Bəyannaməsi"**

2024-cü ildə KOBİA-nın təşəbbüsü ilə qlobal səviyyədə KOB-ların "yaşıl iqtisadiyyat"a keçidi üzrə birgə səylərin birləşdirilməsi məqsədilə "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası Bəyannaməsi" hazırlanıb. Bəyannamə kiçik bizneslərin davamlı biznes modellərinə keçidini dəstəkləmək üçün qlobal əməkdaşlığa çağırır. Bu sənəd kiçik bizneslərə təcrübələri mənimsəməkdə kömək etmək üçün məlumatlılığın və potensialın artırılması, yaşıl maliyyəyə çıxışın yaxşılaşdırılması və innovasiyaların təşviqi sahəsində əməkdaşlığı ehtiva edir. Bəyannamədə həmçinin KOB-ların yaşıl təchizat zəncirinə inteqrasiya etməsi və onların xalis sıfır emissiyaya keçidini asanlaşdırmaq üçün əməkdaşlıq və həll yolları vurğulanır.

Sözügedən Bəyannamə Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Beynəlxalq Ticarət Mərkəzi (ITC), Braziliyanın Mikro və Kiçik Müəssisələrə Dəstək Xidməti (SEBRAE), BMT-nin iqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempionu tərəfindən imzalanaraq rəsmi elan edilib.

Biznes subyektləri də "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası Bəyannaməsi"nə dəstəklərini ifadə ediblər. Noyabrın 22-də "Azərsun Holdinq" MMC və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) timsalında digər iş adamları Bəyannaməni imzalayaraq yaşıl keçidə dəstəklərini qeyd ediblər. Bununla bağlı KOBİA ilə ASK və "Azərsun Holdinq" MMC arasında Memorandumlar imzalanıb. Tərəflər Bəyannamə çərçivəsində iqlim dəyişmələri, yaşıl texnologiyalar,





yaşıl sahibkarlıq və "yaşıl iqtisadiyyat", maarifləndirmə və ətraf mühitin sağlamlaşdırılması tədbirləri üzrə əməkdaşlıq və birgə fəaliyyətlər həyata keçirəcəklər.







# “Yaşıl iqtisadiyyat”a keçidə dəstək məqsədilə sənədlər imzalanıb

Avqustun 6-da KOBİA və “Smartnation” İnsan İnkişafı Platforması arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və “Smartnation” İnsan İnkişafı Platformasının təsisçisi Şəbnəm Məmmədova imzalayıblar. Memorandumda “yaşıl iqtisadiyyat”, “yaşıl texnologiyalar”, “yaşıl sahibkarlıq”, maarifləndirmə və ətraf mühitin sağlamlaşdırılması tədbirləri çərçivəsində birgə əməkdaşlıq nəzərdə tutulur. Buraya “yaşıl KOB” konsepsiyasının inkişaf etdirilməsi, iqlim dəyişikliyinin maliyyələşdirilməsinin KOB-ların biznes modelinə inteqrasiyası və “yaşıl dəyər zənciri” üzrə birgə tədbirlərin təşkili, KOB-ların yaşıl keçidinin asanlaşdırılması istiqamətində layihələrin reallaşdırılması, “yaşıl fəaliyyət”ə dair təlimlərin təşkili daxildir. Həmçinin sənəddə iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılması, karbon dioksid emissiyasının azaldılmasının təbliği və təşviqi, enerjinin bərpa olunan mənbələrdən alınması sahələrində yeni texnologiyaların tətbiqini nəzərdə tutan startap layihələri üzrə müsabiqələrin, “yaşıl iqtisadiyyat”a keçidin asanlaşdırılması üzrə maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulur.

Noyabrın 13-də COP29 çərçivəsində Beynəlxalq Ticarət Mərkəzi (ITC), Braziliyanın Mikro və Kiçik Müəssisələrə Dəstək Xidməti (SEBRAE) və KOBİA arasında üçtərəfli əməkdaşlıq bəyannaməsi imzalanıb. Bu sənəd BMT-nin 2030 inkişaf gündəliyində qeyd edilmiş dayanıqlı və inklüziv iqtisadi inkişafa nail olmaq və KOB-ların aşağı karbon keçidinin asanlaşdırılması üzrə birgə əməkdaşlığın təşviqini nəzərdə tutur. Həmçinin KOBİA və ITC arasında “KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası Bəyannaməsi”ndən irəli gələn məsələlərə, o cümlədən KOB-ların yaşıl keçidinə dəstək, eləcə də KOB-ların inkişafına dair birgə tədbirlərin icrasını nəzərdə tutan Niyyət Protokolu imzalanıb.

# “Yaşıl iqtisadiyyat”a keçiddə ESG prinsiplərinin əhəmiyyətinə dair konfrans keçirilib

Mayın 31-də “Bakı KOB evi”ndə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın dəstəyi, KOBİA-nın təşkilatçılığı ilə “Yaşıl iqtisadiyyata keçiddə ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin əhəmiyyəti” mövzusunda Konfrans keçirilib.

Tədbirdə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın və onun tərkibində fəaliyyət göstərən ESG üzrə altqrupda təmsil olunan dövlət qurumlarının nümayəndələri, ekspertlər, eləcə də sahibkarlar, ali təhsil müəssisələri və ictimai birliklər iştirak ediblər.

Konfransda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev ESG-nin biznes subyektləri də daxil olmaqla, ümumilikdə əhali üçün faydası, bu prinsiplərin tətbiqi sahəsində görülən işlər, ESG-nin əsas elementlərindən olan ekologiya və sosial sahələrdə görülən tədbirlər və özəl sektorla əməkdaşlıq barədə fikirlərini bölüşüblər.

KOBİA-nın İdarə Heyəti sədrinin birinci müavini, ESG standartları üzrə altqrupun rəhbəri Natiq Həsənov altqrupun fəaliyyətinə və görülmüş işlərə dair məlumat verib.









Tədbir çərçivəsində ESG üzrə ekspertlər tərəfindən “yaşıl iqtisadiyyat” ilə ESG prinsipləri arasında əlaqə, uğurlu “yaşıl iqtisadiyyat”a keçidin təmin edilməsində özəl sektorun gözləntiləri və təşəbbüskarlığı, ESG üzrə qlobal trendlər və milli kontekstdə inkişaf məsələləri, dövlət şirkətlərində ESG təşəbbüslərinə dair təqdimatlar keçirilib, fikir mübadiləsi aparılıb.

Konfransda KOBİA tərəfindən hazırlanmış ESG-yə dair məcmuə iştirakçılara təqdim edilib.




# “Yaşıl iqtisadiyyatda kiçik və orta biznesin rolu” mövzusunda konfrans



KOB-ların iqlim dəyişiklikləri ilə mübarizəyə, yaşıl iqtisadiyyata keçidə verə biləcəkləri töhfəni bir daha diqqətə çatdırmaq, bu sahədə görüləcək birgə tədbirləri müzakirə etmək məqsədilə sentyabrın 9-da “Yaşıl iqtisadiyyatda kiçik və orta biznesin rolu” mövzusunda konfrans keçirilib. İqtisadiyyat, ekologiya və təbii sərvətlər nazirliklərinin dəstəyi,














KOBİA-nın təşkilatçılığı ilə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların və sahibkarların ictimai birliklərinin nümayəndələri, müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov və ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev "yaşıl iqtisadiyyat"ın dayanıqlı inkişafda rolu, Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən milli prioritetlərdən olan "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" prioriteti üzrə görülən tədbirlər, ekoloji təmiz texnologiyaların tətbiqi və yaşıl istehsalın artırılması, təkrar emal, çirklənmiş ərazilərin bərpasının təşviqi üzrə qarşıda duran vəzifələr barədə məlumat veriblər.

Konfransda BMT-nin iqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev və Dünya İqlim Fondunun İdarə Heyətinin sədri Cens Nilsen çıxış ediblər.

Tədbir çərçivəsində KOBİA tərəfindən KOB-ların yaşıl keçidinin asanlaşdırılmasına dəstək üçün irəli sürülmüş "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası Bəyannaməsi" COP29-un prezidentinə təqdim edilib.

Həmçinin konfransda KOBİA və “ACWA Power Azerbaijan Renewable Energy” MMC arasında KOB-ların yaşıl keçidi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və “ACWA Power Azerbaijan Renewable Energy” MMC-nin direktoru Səlim Güven tərəfindən imzalanmış sənəd kiçik və orta sahibkarlıq subyektlərinin “yaşıl iqtisadiyyat”a keçidinə dəstək məqsədilə birgə əməkdaşlıq tədbirlərini nəzərdə tutur.

Konfransda BMT-nin Qlobal Sazişi tərəfindən korporativ dayanıqlılıq mədəniyyətinin təşviqində fəal iştirakına görə KOBİA-ya sertifikat təqdim edilib.







Tədbir “KOB subyektlərinin yaşıl iqtisadiyyata keçidinin zərurəti” və “İqlim maliyyəsi və KOB-lar” mövzularında panel iclaslarla davam edib.




# COP29 çərçivəsində **"KOB-ların yaşıl iqtisadiyyatda rolu"** mövzusunda panel müzakirə

Noyabrın 16-da COP29 çərçivəsində "KOB-ların yaşıl iqtisadiyyatda rolu" mövzusunda panel müzakirə keçirilib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə "Yaşıl zona"da keçirilən tədbirdə rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri, iş adamları və "yaşıl iqtisadiyyat" ilə bağlı layihələri olan startaplar iştirak ediblər.

Panel müzakirədə İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, BMT-nin Cənub-Cənub Əməkdaşlıq Ofisinin direktoru Dima Əl-Xatib, İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Araşdırmalar və Təlim Mərkəzinin (SESRIC) Baş direktoru Zehra Zümrüt Selçuk, Beynəlxalq Ticarət Mərkəzinin şöbə müdiri Vanessa Erogbogbo və Qlobal Sahibkarlıq Şəbəkəsinin təsisçisi və prezidenti Conatan Ortmans çıxış ediblər. Çıxışlarda KOB-ların dünya iqtisadiyyatında və məşğulluqda, eləcə də iqlim dəyişiklikləri ilə mübarizədə rolu, iqlim maliyyələşdirilməsi, yaşıl keçidin KOB-lar üçün faydası, bizneslərin yaşıl keçidində ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin önəmi, ətraf mühitə məsuliyyətli münasibət və bu sahədə sahibkarların öhdəlikləri barədə məlumat verilib. Tədbirdə KOB-ların yaşıl transformasiyasının qlobal və milli səviyyədə birgə əməkdaşlıqla mümkün olduğu qeyd edilib və KOB ekosisteminin bütün maraqlı tərəfləri KOBİA-nın irəli sürdüyü "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası Bəyannaməsi"nə qoşulmağa dəvət olunublar. Paneldə KOB-ların "yaşıl iqtisadiyyat"a keçidi zamanı ehtiyaclarının davamlı dəstəklənməsi üçün zəruri addımlar və onların ekoloji məsuliyyətinin artırılması ilə bağlı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Həmçinin tədbir çərçivəsində Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin baş tədqiqat meneceri Tim Çeston İqtisadiyyat Nazirliyi və mərkəz arasında əməkdaşlıq əsasında hazırlanmış qlobal "Yaşıl artım portalı"na dair təqdimatla çıxış edib.

Eyni zamanda KOBİA nümayəndələri COP29 çərçivəsində KOB-ların yaşıl keçidinə dair bir sıra müzakirələrdə iştirak ediblər.

# KORPORATİV İNKİŞAF VƏ SOSİAL MƏSULİYYƏT

## İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə maarifləndirici tədbir



Aprelin 8-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) tərəfindən KOBİA-da informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq və kibergigiyenanı təmin etmək məqsədilə maarifləndirmə tədbiri keçirilib.

Ümumilikdə 30 nəfərin iştirak etdiyi tədbirdə ETX-nin əməkdaşları tərəfindən “Onlayn mühitdə kibertəhlükəsizlik” və “Kibertəhlükəsizliyin təməlləri” mövzularında çıxışlar edilib.

ETX VƏ KOBİA arasında əməkdaşlığın qurulması Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası”nda qeyd olunan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə maarifləndirmə tədbirlərinin keçirilməsini təşkil etmək, bu barədə televiziya proqramları, videoçarxlar hazırlamaq və nümayiş etdirmək, ictimai mübarizə üsulları və bu üsullardan istifadə barədə cəmiyyətin, fərdlərin bilik səviyyəsini yüksəltmək, həmçinin dövlət orqanlarında (qurumlarında), özəl təşkilatlarda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq – kibergigiyenanı təmin etmək məqsədi daşıyır.







# Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı KOBİA-da uşaqlarla görüş

1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar "Bakı KOB evi"ndə uşaqlarla görüş keçirilib. KOBİA-nın təşkilatçılığı ilə keçirilən görüşdə Vətən müharibəsi şəhidlərinin övladları iştirak ediblər.

KOBİA-nın kollektivi uşaqları təbrik edib, Uşaqların Beynəlxalq Müdafiəsi Günü və dövlətimiz tərəfindən uşaqlara göstərilən diqqət və qayğı barədə məlumat veriblər.

7-14 yaş arasında olan uşaqların iştirakı ilə keçirilən görüşdə həmçinin biznes ideyanın formalaşdırılması, biznesə başlamaq və inkişaf etdirmək, bu istiqamətdə KOBİA-nın gördüyü işlər, "Bakı KOB evi"nin fəaliyyəti barədə məlumat verilib, uşaqları və valideynləri maraqlandıran sualları cavablandırılıb.

Təlimdə aktiv iştirak edən uşaqlara sertifikatlar təqdim edilib.





Uşaqlar həmçinin əyani olaraq "Bakı KOB evi", burada fəaliyyət göstərən Startap İnkişaf Mərkəzi və təlim otaqlarında yaradılmış şəraitlə tanış olublar.












# Qanvermə aksiyası



Sentyabrın 27-də KOBİA və İş adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) birgə təşkilatçılığı, "Marsol Group", "Məlhəm Beynəlxalq Hospital", Milli Hematologiya və Transfuziologiya Mərkəzi və Mərkəzi Qan Bankının tərəfdaşlığı ilə könüllü qanvermə aksiyası keçirilib. Anım Gününə həsr olunmuş "Bir damla qan, min ümidə can" devizi ilə keçirilən qanvermə aksiyası üç ünvanda – "Bakı KOB evi", "Məlhəm Beynəlxalq Hospital"ı və Mərkəzi Qan Bankında təşkil olunub.

Korporativ sosial məsuliyyət tədbirləri çərçivəsində təşkil olunan aksiyaya qoşulan sahibkarlar və şirkət əməkdaşları, eləcə də KOBİA, İCMA və "Marsol Group"un nümayəndələri, ümumilikdə 500-ə yaxın şəxs qan verib. Həkim-hematoloqlar tərəfindən hər bir donorun sağlamlığı öncədən yoxlanılıb, hərtərəfli tibbi müayinədən sonra onlardan qan götürülüb.

Tədarük olunan qan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunacaq.

Sahibkarların iştirakı ilə belə xeyriyyə tədbirlərinin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

# QEYD

# QEYD